www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet  31 iyul 2014-cü il Cümə axşamı № 191 (5900) Qiyməti 40 qəpik

**Xəbər**

## Asiya Bankı ilə Ziya Məmmədovun müştərək korrupsiya layihəsi

yazısı səh.12-də

**Gündəm**

### İtaliyada diplomatik qalmaqal



İlham Əliyevin imzası olan sənədi dəyişmək istəyirlər

yazısı səh.5-də

### ABŞ Krımın işğalı ilə barışmayacaq, bəs Qarabağın?

yazısı səh.9-da

### Fərəc Kərimliyə vəkili ilə görüşə icazə verilməyib

yazısı səh.2-də

### 5 Latın Amerikası ölkəsi İsraildən səfirlərini geri çağırdı

yazısı səh.8-də

### Hüquq müdafiəçiləri həbslərlə bağlı həyəcan təbili çaldılar

yazısı səh.4-də

### Facebook həbsləri - dünyada və bizdə...

Misirdə, Türkiyədə gənc fəallar məhz statuslarına görə cəzalandırılır

yazısı səh.11-də

### "Nyu-York Tayms"dan Avropa ölkələrinə ittiham dolu yazı

yazısı səh.9-da

*Şahbaz Xuduoğlu:*

### "Məmur yarmarkaya gəlib deyir ki, hər şey qanla gəlir, kitabla yox..."

yazısı səh.7-də

### Yasamal sakinləri "Məxmər-77" MMC-ni məhkəməyə verəcək

yazısı səh.12-də

### Kənan M.M saxlanıldı və buraxıldı

Ondan şikayətçi olan müğənni ərizəsini geri götürdü

yazısı səh.2-də

### Məşhurlardan "Coca-Cola"nı boykot açıqlaması

yazısı səh.13-də

### Tovuzun Əlibəyli kəndində vəziyyət ağır olaraq qalır

yazısı səh.4-də

## Hüquq müdafiəçisinə dövlətə xəyanət ittihamı verildi

# İQTİDAR LEYLA YUNUSU NİYƏ HƏBS ETDİ ?! - XRONİKA VƏ ŞOK MƏLUMATLAR

Sülh və Demokratiya İnstitutunun rəhbəri haqda 3 aylıq həbs-qətimkan qərarı verildi; onun həyat yoldaşından isə ölkədən çıxmamaqla bağlı iltizam alındı, Rauf Mirqədirovla başlayan həbslər davam edə bilər




yazısı səh.5-də

## Azərbaycanın "əmlak kralı" ilə bağlı şok dosye

Kərəm Həsənovla bağlı sensasion məlumatlar yayıldı; komitə sədrinin heyrətamiz talançılığı

yazısı səh.10-da



*Tahir İmanov:*

### "Məmurlar bizi tapdalayır, təhqir edir, hədə-qorxu gəlirlər"

yazısı səh.15-də



*Bayram Səfərov:*

### "Nə alaram, nə sataram, özüm bilərəm"

yazısı səh.3-də



### Barak Obama İlham Əliyevi təbrik etdi

yazısı səh.2-də



**Müsavat Partiyasının başqanı İsa Qəmbər Natiq Ulubəyi 50 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Natiq bəy!**

**Sizi 50 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, işlərinizdə uğurlar arzulayıram.**

**Siz 1988-ci ildə başlayan Azərbaycan Xalq Hərəkatının ilk günlərindən onun sıralarına qoşulmuş, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizənin fəal nümayəndələrindən biri olmusunuz. Yarandığı ilk gündən Azərbaycan Xalq Cəbhəsinin üzvü kimi ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğu işinə böyük töhfələr vermisiniz. Apardığınız bu şərəfli işi 2004-cü ildən Müsavat Partiyasının sıralarında davam etdirmisiniz. Səbayel rayon təşkilatının Şura üzvü kimi aktiv fəaliyyətdəsiniz. Prinsipial və fədakar mübarizənizə görə dəfələrlə təqib və təzyiqlərlə üzləşsəniz və həbs olunsanız da heç zaman öz əqidənizdən dönməmisiniz.**

**Siz mehriban, qayğıkeş bir ailə başçısı, atasınız. İnanıram ki, bundan sonra da hər zaman övladlarınız və Sizi tanıyan insanlar Sizinlə qürur hissi keçirəcəklər.**

**Hörmətli Natiq bəy!**

**Bir daha Sizi 50 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik və apardığınız bu şərəfli mübarizə yolunda uğurlar arzulayıram".**

# Fərəc Kərimliyə vəkili ilə görüşə icazə verilməyib



**Müsavat Partiyası Gənclər Təşkilatı NTK-sının sədri, blogger, musavat.org.az saytının administratoru Fərəc Kərimlinin həbs edilməsi ilə bağlı növbəti bəyanat yayıb.**

Partiyadam daxil olan bəyanatda bildirilir ki, 23 iyul 2014-cü il tarixində Bakı Sağlamlıq Mərkəzinin reanimasiya şöbəsinin qabağından mülki geyimli şəxslər tərəfindən heç bir sənəd təqdim olunmadan, ona hüquq və vəzifələri elan edilmədən, faktiki olaraq oğurlanaraq, iradəsi əleyhinə məcburən qeyri-müəyyən istiqamətə aparılıb. Sonradan onun barəsində Nərimanov Rayon Məhkəməsi tərəfindən 3 aylıq həbs qətimkan tədbiri seçilib. Bütün bu proses F.Kərimlinin ailə üzvləri və vəkilinin iştirakı olmadan gizli şəkildə həyata keçirilib:

"Dünən Bakı İstintaq Təcridxanasında saxlanılan F.Kərimli ilə görüşmək istəyən vəkilinə bu görüş üçün istintaq orqanları tərəfindən lazım olan sənədlərin verilməsində maneələr yaradılıb. Bu barədə istintaq orqanlarına müraciət edən vəkil müxtəlif bəhanələrlə səlahiyyətli şəxslər tərəfindən qəbul edilməyib.

Saxlanıldığı gündən bu günədək bir həftə keçməsinə baxmayaraq F.Kərimlinin vəkili ilə görüşünə şərait yaradılmaması insan haqlarının kobudcasına pozulması, hüquq-mühafizə orqanları tərəfindən növbəti qanunsuzluqdur.

Bu fakt F.Kərimlinin saxlanılarkən fiziki təzyiqlərə məruz qalması və bunun nəticəsində yarana bilən izlərin gizlədilməsinə xidmət kimi də qiymətləndirilə bilər. F.Kərimlinin qardaşı Sirac Kərimlinin saxlanıldıqdan sonra Narkotiklərə Qarşı Mübarizə İdarəsinin əməkdaşları tərəfindən izahat almaq məqsədilə vəhşicəsinə döyülməsi faktı təsdiqləndiyi üçün qeyd olunanların həqiqətə uyğun olduğu ehtimalını artırır.

Müsavat Partiyası siyasi xarakter daşıyan bu həbslərin Müsavat Partiyasına, azad düşüncəli gənclərə, sosial şəbəkələrin fəal iştirakçılarına qarşı, bütövlükdə Azərbaycanın demokratik qüvvələrinə qarşı repressiyaların davamı olduğunu bir daha bəyan edərək, Fərəc Kərimlinin öz vəkili ilə görüşmək hüququnun təmin olunmasını və bu qanunsuzluğu həyata keçirənlərin cəzalandırılmasını tələb edir.

Müsavat Partiyası eləcə də Sirac Kərimli və Fərəc Kərimli qardaşlarının da adının daxil edildiyi siyasi məhbusların hamısının dərhal həbsdən azad olunmasını bir daha Azərbaycan hakimiyyətindən tələb edir".



# Barak Obama İlham Əliyevi təbrik etdi

**ABŞ prezidenti Barak Obama Azərbaycan prezidenti İlham Əliyevə Ramazan bayramı münasibətilə təbrik məktubu göndərib.**

APA-nın məlumatına görə, ABŞ prezidentinin məktubunda deyilir:

"Hörmətli cənab prezident, Amerika xalqı adından sizi və xalqınızı mübarək Ramazan bayramı münasibətilə təbrik edir, ən xoş arzu və diləklərimi yetirirəm. Dünyanın hər yerində yaşayan müsəlmanlar ötən ay ərzində Ramazan ayının gözəl ənənələrini paylaşıb, inanclarından qaynaqlanan daxili rahatlıq naminə ehtiyacı olanlara yardım əli uzadıblar. Ümidvaram ki, müqəddəs Ramazan ayı ölkənizin müsəlmanları üçün mənəvi saflaşma, mərhəmət və şəfqət hisslərinin bölüşdürülməsi dövrü olub.

Qoy qarşıdan gələn il sizə və xalqınıza sülh, cansağlığı və firavanlıq gətirsin. Ramazan bayramınız mübarək!"

# İki nəfəri öldürən məmur oğlu məhkəmə qarşısında

**Bakı Ağır Cinayətlər Məhkəməsində mahir tarzən, xalq artisti Ağasəlim Abdullayevin ailə faciəsinə səbəb olan "Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) keçmiş rəis müavini Mübariz Mədətovun oğlu Xalid Mədətovun cinayət işi üzrə məhkəmə istintaqı başlayıb. Proses hakim Əlövsət Abbasovun sədrliyi ilə keçir.**

Təqsirləndirilən şəxsin vəkili İsmayıl Mirzəzadə virtualaz.org saytına açıqlamasında Mədətovlar ailəsinin "qanı su ilə yumaq" niyyətində olduqlarını deyib: "Bu, bir qəzadır. Əlbəttə, heç kim istəməzdi ki, belə bir faciə yaşansın. Bu cür qəza hər birimizin başına gələ bilər. Bu, düşünülmüş, planlaşdırılmış qətl deyil, ehtiyatsızlıq üzündən baş vermiş hadisədir.

Mədətovlar tərəfindən Ağasəlim Abdullayevlə barışmaq üçün çox cəhdlər oldu. Amma hələ ki konkret heç nə yoxdur. Belə bir məsəl var: qanı qanla yox, su ilə yuyarlar. Biz qanı su ilə yumaq niyyətindəyik. Xalid Mədətov belə bir faciənin baş verməsindən çox peşmandır".

**Vəkilin sözlərinə görə, qəzanın X.Mədətovun sərxoşluğu ücbatından baş verməsi barədə deyilənlər həqiqətəuyğun deyil:** "Xalid özü də deyib ki, içkili olmamışam. Amma ona Cinayət Məcəlləsinin 263.1.4-cü maddəsi ilə (yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarını sərxoş halda və ya nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxs tərəfindən pozma ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda) cinayət işi qaldırıblar. Bu maddə ilə ittiham olunanları 7 ildən 12 ilə qədər həbs cəzası gözləyir".

Qeyd edək ki, martın 15-də Suraxanı rayonu ərazisində, Zığ şossesində X.Mədətov "Mercedes-Benz Gelandewagen-55" markalı avtomobilini idarə edərkən xalq artisti Ağasəlim Abdullayevin oğlunun idarə etdiyi "VAZ-2106"a çırpılıb. Nəticədə "VAZ-2106"da olan sərnişinlər - xalq artistinin həyat yoldaşı, 1959-cü il təvəllüdlü Brilyant Abdullayeva və 2008-ci il təvəllüdlü nəvəsi Ağasəlim Abdullayev hadisə yerində ölüblər. 1950-ci il təvəllüdlü Ağasəlim Abdullayev (məşhur tarzən, xalq artisti) və onun gəlini, 1984-cü il təvəllüdlü Səadət Abdullayeva isə müxtəlif dərəcəli bədən xəsarətləri ilə 3 saylı Şəhər Klinik Xəstəxanasına yerləşdiriliblər.

Fakta görə Suraxanı Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin 263.3-cü (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Sürücü X.Mədətov narkoloji tibbi müayinədən keçirilərkən orta dərəcəli alkoqol sərxoşluğu vəziyyətində olması müəyyən edildiyindən cinayət işi CM-in 263.1.4-cü maddəsinə tövsif olunub.

Qəzadan iki gün sonra Mübariz Mədətov prezidentin sərəncamı ilə tutduğu vəzifədən azad edilib, oğlu Xalid Mədətov isə həbs olunub. M.Mədətov Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin sabiq rəisi Aydın Bəşirovun həm qudası, həm də biznes ortağıdır.



# Kənan M.M saxlanıldı və buraxıldı

## Ondan şikayətçi olan müğənni ərizəsini geri götürdü

**İyulun 29-da Binəqədi Rayon Polis İdarəsi əməkdaşları tərəfindən rejissor Kənan.M.M saxlanılıb. Rejissorun saxlanılmasına səbəb müğənni Muradov Vüqar Qüdrət oğlunu döyməsi olub. Onun barəsində xuliqanlıq maddəsi ilə cinayət işi açılıb.**

Hadisə ilə bağlı rəsmi məlumat verən Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Ehsan Zahidovun məlumatına görə, Kənan Mahmudov müğənni Vüqar Muradov və onun qardaşını döydüyü üçün saxlanılıb.

Belə ki, Vüqar və Vüsal Muradov qardaşları ərizə ilə müraciət edərək bildiriblər ki, K. Mahmudov bir qrup şəxslə onları döyüb.

Saxlanılan K. Mahmudov əməllərini etiraf edib.

Məlumata görə, tərəflər arasında başlamış bu münaqişəyə səbəb ötən ay "ATV"də yayımlanan və məşhurların qatıldığı "Ulduzların yarışı" teleşousu olub.

Belə ki, yarışmada bu iki şəxs finala vəsiqə qazanıb. Gərgin keçən raundun sonunda isə V.Muradov qalib olaraq 20 min manat mükafatı qazanıb. Həmin döyüşdə Kənan M.M-in qolu 2 dəfə çıxmış və həkimlər oyunu davam etdirməsinə icazə verməmişdilər.

Dünən isə rejissordan şikayətçi olmuş müğənni ərizəsini geri götürərək, Kənanı bağışladığını bildirib.

MediaPost.az-ın məlumatına Kənan M.M ötən gün sərbəst buraxılıb.

❑ **Fəridə ABDIYEVA**



# Orxan Zeynalovun yaxınları dövlətdən kömək istəyir

**"Orxanın atası Zahid də, bütün ailəmiz də dövlətimizə güvənir, kömək istəyirik". Bu sözləri "Yeni Müsavat"a Moskvada 25 yaşlı Yeqor Şerbakovu qətlə yetirməkdə ittiham edilərək barəsində 17 illik həbs cəzası verilən Orxan Zeynalovun dayısı Ələddin Məmmədov deyib.**

Azərbaycanın Şəmkir rayonunun Seyfəli kəndində yaşayan Zeynalovun yaxınları da Ə.Məmmədov kimi dövlətdən kömək istəyirlər.

"Bu işlə dövlət məşğul olur. Mən başqa nə deyə bilərəm ki? Dövlətimiz özü bununla məşğul olur"- deyə O.Zeynalovun atası Zahid Zeynalov azvision.az bildirib. O, oğlunun həbsi barədə artıq danışmaq istəmədiyini də dilə gətirib.

Seyfəli kəndindəki məktəbdə müəllim olan Z.Zeynalov bundan əvvəlki açıqlamalarında ailələrində ziyankarlıq, davakarlıq, kiməsə ziyan vurmaq kimi halların olmadığını söyləmişdi. O, oğlunun həbsi səhnəsini telekanallardan izlədiyini də açıqlamışdı: "Hər bir dövlətin öz qanunu var və o qanun çərçivəsində cinayətkara cəza vermək lazımdır. Fiziki cəza, kobud rəftar etmək doğru deyil. Hadisə baş veribsə, onun hansı zəmində baş verdiyini araşdırmaq lazımdır. Yalnız cinayət sübuta yetiriləndən sonra cəza tətbiq etmək olar".

Qeyd edək ki, ötən il oktyabrın 10-da Rusiya paytaxtının Qərbi Birulyovo rayonunda 25 yaşlı Y. Şerbakovun qafqazlı tərəfindən qətlə yetirilməsi yerli sakinlərin etirazına səbəb olub. Qatilin tapılmasını tələb edən yüzlərlə rus milliyyətçisi və "skinhedlər" Qərbi Birulyovo rayonunda yerləşən "Biryuza" ticarət mərkəzi və "Pokrov" meyvə-tərəvəz bazasına hücum edərək orada çalışan Qafqaz və Orta Asyadan olan miqrantları döyüblər. Hadisə yerinə xüsusi təyinatlı polis dəstələri yeridilib. "Skinhedlər" polislərə də müqavimət göstəriblər. Onlar ticarət mərkəzində yerləşən mağazalara, ətrafdakı obyektlərə və avtomobillərə ciddi zərər vurublar. İğtişaş nəticəsində xeyli sayda miqrant və yerli sakin yaralanıb. Y. Şerbakovun qətlində şübhəli bilinən Azərbaycan vətəndaşı O. Zeynalov oktyabrın 15-də Moskva ətrafındakı Kolomna şəhərində saxlanılıb və vertolyotla Moskvaya aparılıb.

O, ilkin dindirmə zamanı qətli özünümüdafiə məqsədi ilə törətdiyini söyləyib. Moskva Şəhər Məhkəməsinin qərarı ilə O. Zeynalov Yeqor Şerbakovu qətlə yetirməkdə günahkar bilinib və ona 17 il həbs cəzası verilib.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Qızıl Xaçın nümayəndələri kəlbəcərli girovlarla görüşüblər

**Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nümayəndələri ermənilərin Kəlbəcərdə girov götürdükləri azərbaycanlılara baş çəkiblər.**

BQXK-nın Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova APA-ya bildirib ki, saxlanılan şəxslərə ailə məlumatları çatdırılıb və onlardan ailələrinə çatdırılması üçün məlumat alınıb.

Qeyd edək ki, Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə Ermənistan Silahlı Qüvvələri tərəfindən girov götürülüb, digər Azərbaycan vətəndaşı Həsən Həsənov isə öldürülüb.

H. Həsənov Dağlıq Qarabağda dəfn edilib.

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat» qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli
və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

YENİ MÜSAVAT
N 191 (5900) 31 iyul 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# 6-cı "B" sinfi üçün demokratiya

## (Bu yazını redaksiyamıza Tofiq Yaqublunun vəkili Nemət Kərimli təqdim edib)

**Xarici işlər naziri Elmar Məmmədyarov Brüsseldə AB-nin Şərq Tərəfdaşlığı Proqramına (ŞTP) daxil olan ölkələrin xarici işlər nazirlərinin toplantısında iştirak edib. Toplantının detalları haqda geniş məlumatım yoxdur. Ancaq bilirəm ki, proqrama üzv dövlətlərin müxtəlif sahələrdə gördükləri və görməli olduqları işlər haqqında müzakirə gedib.**

Səhv etmirəmsə, ŞTP-nin 6 yaşı var. Obrazlı desək, bu proqrama daxil olan ölkələr AB-yə inteqrasiya yolunda 6-cı sinfə gedirlər. Hər sinifdə yaxşı oxuyan və pis oxuyan şagirdlər olduğu kimi, ŞTP sinfində də əlaçı və rusca desək, "dvoişnik" söhbətinin yeri var. Bu sinifdə yaxşı oxuyanların və "dvoişnik"in kim olduğu hamımıza məlumdur. Əlbəttə ki, "dvoişnik" özü könüllü olaraq bu məktəbə yazılmış bizim Azərbaycanımızdır. Baxmayaraq ki, avropalı müəllimlər üzgörənlik edərək, Azərbaycana hər dəfə tramvay altında qalmış "3" yazaraq sinifdən-sinfə keçiriblər. Bu minvalla o, artıq 6-cı sinfə gedir. Ancaq hələ hərfləri oxumağı və yazmağı bacarmır. İqtidardan bu geriliyin səbəbini soruşanda, utanıb-qızarmaq, bundan sonra yaxşı oxuyacağına söz vermək əvəzinə, əfsanəvi müğənni Alla Puqaçovanın "Birinci sinif şagirdinin mahnısı"nı ("Pesnya pervoklassnika") oxumağa başlayır. Həmin mahnıda dərslərini öyrənə bilməyən şagird gileylənir ki, birinci sinfə ali məktəbə aid tapşırıqlar verirlər (Nınçe pervıy klass vrode instituta!)

İnanın mənə, yüzdə-yüz uğurlu bənzətmədir. AB hər dəfə proqram çərçivəsində Azərbaycandan siyasi və iqtisadi islahatlar, bəzən sadəcə olaraq bir addım atmağı tələb etdikdə bizim iqtidar ayrıca dərslik, ayrıca proqram tələb edir. Deyir ki, biz nəsə qeyri-adi bir şeyik, hamı üçün keçərli olan qaydalar bizə yaramır, bizim qeyri-adi (elmə məlum olmayan) yolumuz var.

Kamera yoldaşım Vasif İbrahimov danışır ki, İsbəndiyar adlı bir savadsız həmyerlisi var. Onun qızı 6-cı sinifdə oxuyarkən məktəbdə vahid məktəbli formasına keçmək təşəbbüsü olub. Müəyyən edilmiş qaydaya görə qızlar tünd rəngli don və ağ kolqotka geyinməli imişlər. İsbəndiyar alış-veriş üçün Cəlilabad yarmarkasına getməli olur. Arvadı tapşırır ki, oradan qız üçün ağ kolqotka alsın, yoxsa uşağı məktəbə qoymayacaqlar. İsbəndiyar Cəlilabad yarmarkasında pal-paltar satılan sıraya çatıb elə birinci satıcıdan belə soruşur: "Sizdə 6-cı "B" sinfi üçün kolqotka var?" Savadsız İsbəndiyar elə bilir ki, 6-cı "A" sinfi üçün bir cür, 6-cı "B" sinfi üçün başqa cür, 6-cı "C" sinfi üçünsə tamam ayrı cür ağ kolqotkalar olmalıdır. Eynən Azərbaycan iqtidarı kimi. Fikir verin, neçə illərdir ki, YAP iqtidarı beynəlxalq təşkilatların qabağında Azərbaycan üçün ayrıca demokratiya qaydaları tələbi qoyur. Çox güman ki, Elmar Məmmədyarov Brüsseldə 6-cı "B" sinfi üçün ağ kolqotka istəyib. Başqa cür ola da bilməz.

# Bu gün gələcəyin jurnalistləri qabiliyyət imtahanı verəcəklər

## Zeynal Məmmədli: "Bu imtahan söz və ifadə azadlığı ilə bağlı təməl qanunla uyuşmur"

**Xəbər verdiyimiz kimi, bu gün Tələbə Qəbulu üzrə Dövlət Komissiyası jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı keçirəcək. Detallara nəzər salanda bəlli olur ki, imtahan 2 saat 30 dəqiqə müddətində aparılacaq. Jurnalistika ixtisasına qəbul olmaq üçün 569 abituriyent qeydiyyatdan keçib. Onlardan 441 nəfəri III ixtisas qrupu üzrə keçirilən test imtahanında tələb olunan müsabiqə şərtini ödəyərək ikinci mərhələyə buraxılıb.**

Abituriyentlər bakalavriat səviyyəsinə qəbul imtahanının qabiliyyət imtahanı mərhələsində təqdim olunmuş mövzu üzrə inşa (esse) yazacaqlar. Yazı işi abituriyentin imtahan verdiyi bölmədən asılı olaraq Azərbaycan və ya rus dilində yerinə yetirilməlidir.

İnşa (esse) abituriyentin təklif olunmuş mövzu üzrə öz nöqteyi-nəzərini əsaslandırılmış surətdə ifadə etdiyi müstəqil yaradıcı yazı işidir. İnşa yazıda (essedə) abituriyent öz fikirlərini aydın və savadlı ifadə etməlidir.

Azərbaycanda sovet dövründən bəri ilk dəfədir ki, jurnalistika fakültəsinə qabiliyyət imtahanı keçirilir. Daha öncə bu məsələ ilə bağlı ciddi müzakirələr aparılıb və onu müdafiə edənlərlə yanaşı, tənqid edənlər də olub.

**Media eksperti Zeynal Məmmədli hesab edir ki, jurnalistika fakültəsinə qəbul zamanı yaradıcı imtahanın verilməsi yersizdir. Müsahibimiz sovet dövründə keçirilən imtahanın özəlliklərinə toxundu:** "Sovet dövründə bu, şifahi söhbət xarakteri daşıyırdı. Abituriyentdən jurnalistika ilə bağlılığını, maraq dərəcəsini, jurnalistikanı, kimləri izlədiyini, hansı mətbuat orqanı ilə tanış olduğunu, kimi kumir seçdiyini soruşurdular. Buna görə də bir bal müəyyənləşdirilirdi. Ondan sonra bir neçə mövzu üzrə yazı turu keçirilirdi. Həmin yazı turunda da sərbəst yazılar olurdu. İki turun nəticələrinə görə, bu, qiymətləndirilirdi. Bundan başqa, daha öncədən abituriyentin çap olunmuş materialları olmalıydı. Yəni əslində üç mərhələ sayılır: çap materialları, şifahi söhbətdə dünyagörüşünün səviyyəsi və yazı texnikası. Bütün bunlarla yanaşı, tanışlıq faktoru da rol oynayırdı. Kimin mətbuatda tanışı vardısa, yazısının asanlıqla çap etdirirdi. Nəticədə isə şifahi imtahandan da keçirdi, yazılıdan da".



**"Kriteriyalar dəqiq deyil, Münsiflər Heyətində kimlər təmsil olunacaq, bilinmir..."**

**Z.Məmmədli hesab edir ki, yaradıcı turun aparılması söz və ifadə azadlığı ilə bağlı təməl qanunla uyuşmur. Onun sözlərinə görə, jurnalistika dünyada yeganə ixtisasdır ki, bu sahədə lisenziyasız işləmək olar:** "Vacib deyil ki, sən bu sahədə oxuyasan, bu sahədə oxuduğunu təsdiqləyəsən. Qısamüddətli kurslar var ki, etika ilə tanış olursan, professional məqamları öyrənirsən. Konkret sahəni bitirmiş adam üçün də bu yazışdır ki, bu sahədə ixtisaslaşır. İndiki halda 17-18 yaşında abituriyentlərin nə dünyagörüşü var ki, bilək bu, çox yaxşı bir inşa yazıdı. Jurnalistikada əsas kriteriya yalan və ya doğru yazmaqdır. Burada bu, uydurma təxəyyüllə yazacaq. Bu, özünü real həyatda necə göstərəcək? Real həyatda həmin jurnalist namizədinə təsir edən min cür faktorlar var. Mən gözəl, amma yalan yazıma görə imtahandan keçəcəyəm. Amma o birisi doğru, yazı texnikası baxımdan zəif olan məqaləsinə görə keçməyəcək? Doğrunu yaz, amma pis yaz daha önəmlidir, nəinki yalan yaz, amma yaxşı yaz. Ona görə də bu yaradıcı tur ancaq işə qəbulda həyata keçirilməlidir".

**Z.Məmmədli xatırlatdı ki, sovet dönəmində yaradıcı turların keçirilməsinin səbəbi fərqli idi. Belə ki, həmin vaxt jurnalistika fakültəsinə stajsızlar qəbul edilmirdi:** "Stajsızlar üçün az limit müəyyənləşdirmişdilər. Heç 10 faizi də keçmirdi. Təsəvvür edin ki, minimum 2 il staj tələb olunurdu. Bundan başqa, həmin illərdə Moskavada yaradıcı imtahan da başqa cür keçirilirdi. Abituriyenti aparırdılar bir olayın içinə, məsələn, bir zavoda. Hamı o yerə gedib, ordan bir reportaj hazırlayırdı. Amma bizimki götürüb mövzu verirdi. O dövrdə də Azərbaycanda bu məsələdə tanışlıq, rüşvət öz rolunu oynayırdı. İndi də eyni qaydada davam edir. Bizim hansı təminatımız var ki, bu imtahanlar tanışlıqla aparılmayacaq? Hansı qarantiyamız var ki, burda da ancaq həqiqəti yazmaq istəyən, prinsipal, öz xətti olanlar qəbul olunacaq? Hardan bilirik ki, şəraitə uyğunlaşanlar, buyruq qulu olanlar, imtahandan keçmək üçün ölkədəki problemlərdən obyektiv yazmayanlar keçməyəcək? Mən indiyə kimi bunun əleyhinə idim. Məleykə Abbaszadənin də Allah canını sağ eləsin, dolayısı ilə məni müdafiə edirdi. Bu il meydan boş qalıb".

**Z.Məmmədlinin fikrincə, Azərbaycandakı şəraitdə ictimai-siyasi proseslərə sərbəst, fərqli baxışı olan abituriyentin imtahandan keçmə şansı şübhə altındadır. Bundan başqa, Münsiflər Heyətində kimlərin təmsil olunacağı da maraq doğurur:** "Bu adamların müasir media təcrübəsi ilə hansı bağlantıları var? Baxaq görək kimlər olacaq? Mətbuat Şurasından, redaksiyalardan və universitet müəllimlərindən adamlar olacaq. Kriteriyalar dəqiq deyil. Bir də ki, məqsəd nədir? İşə qəbulda yaradıcı tur edək. Amma bununla söz azadlığı haqqı tapdanır. Ona görə bütün dünyada söz və mətbuat azadlığı ilə bağlı təzad yaratdığı üçün jurnalistika fakültələrinə qəbulda yaradıcı turdan istifadə etmirlər".

❑ **Sevinc TELMANQIZI**

# "Nə alaram, nə sataram, özüm bilərəm"

## Bayram Səfərov bir daha bahalı villasından danışdı

**Şuşa Rayon İcra Hakimiyyətinin başçısı, "Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədri Bayram Səfərov publika.az-a müsahibə verib. Həmin müsahibəni təqdim edirik:**

***- Son günlər bahalı villa almağınızla bağlı məlumatlar yazılır. Deyəsən, bu barədə verdiyiniz kobud cavablarla jurnalistlərin yenə də xətrinə dəymisiniz?***

- Axı mən nə edim? Mən jurnalistlərə qarşı hər zaman səmimi olmuşam. Ancaq bəzi jurnalistlər mənimlə səmimi olmur. İndi mən nə edim ki, nə danışıramsa, hamısını da yazırlar? İnsan gərək başqasının şəxsi həyatına, şəxsi işinə qarışmasın. O, mənim şəxsi işimdir. Mənim şəxsi işimə qarışmağa heç kimin səlahiyyəti yoxdur. Hər kəs gedib öz işi ilə məşğul olsa, daha yaxşı olar.

Görün heç erməni jurnalisti öz icma rəhbəri barədə yazar ki, filankəs özünə villa alıb və sairə? Məgər villa almaq qəbahətdir? Hər kəsin özü şəxsi işi var. Bu isə mənim şəxsi işimdir. Nə alaram, nə sataram, özüm bilərəm.

***- Şəxsi həyatınıza qarışmaq kimi olmasın. Vaxtilə Şuşada villanız olub?***

- Qardaş, hamının evi-eşiyi olub. Mən də küçədə yaşamamışam, evim və bağım olub. Hər zaman zəhmətlə yaşamışam. Məni tanıyan adamlar da bunu yaxşı bilir ki, Bayram Səfərov hər zaman zəhmət çəkərək yaşayıb. Mən 1968-ci ildə rəsmi əmək fəaliyyətinə başlamışam. Mən 46 il ayrı-ayrı işlərdə çalışmışam və bu gün də bunu davam etdirirəm. Ömrümün sonuna qədər də xalqım, Vətənim və övladlarım üçün çalışacam.

***- Yaxın vaxtlarda Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları arasında növbəti görüşün keçirilməsi gözlənilir?***



- Hazırda çalışırıq ki, icmaların görüşü olsun. Biz belə bir görüşün reallaşmasını istəyirik. Ancaq bu məsələ təkcə bizdən asılı deyil. Bizdən olsa, günü bu gün ermənilərlə görüşüb onlara hər şeyi başa salardıq.

***- Görüşün yeri bəllidir?***

- Hələlik biz görüşün yeri barədə heç nə bilmirik. Ancaq ATƏT-in sədrinə müraciət etmişik ki, bizə kömək etsinlər.

Ancaq çox təəssüf ki, icmaların görüşünə Ermənistan hakimiyyəti çox ciddi əngəllər törədir. İstəmir ki, azərbaycanlı və erməni icmaları bir araya gəlib hər hansı razılığa gəlsin. Bu gün Ermənistanda mövcud olan hakimiyyət əli azərbaycanlı qanına bulaşmış hakimiyyətdir. Təbii ki, bu hakimiyyət sülhün əldə olunmasını istəməz. Çünki sülh olarsa, o zaman Ermənistanın bu hakimiyyətinin də sonu olacaq. Ermənistanda sıravi əhali də bu hakimiyyətdən narazıdır.

***- Kəlbəcərdə erməni hərbi birləşmələri tərəfindən girov götürülən Azərbaycan vətəndaşlarının qaytarılması ilə bağlı icma hansı işləri görür?***

- Bilirsiniz ki, girovlarla bağlı Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Hərəkatının nümayəndələri Ermənistan tərəfi ilə danışıqlar aparır. Bu məsələ icma səviyyəsində həll olunası məsələ olmasa da, Dağlıq Qarabağın Azərbaycanlı İcması bu məsələdən narahatlıq keçirir. İcma olaraq biz azərbaycanlı girovların tezliklə Azərbaycana qaytarılmasında əlimizdən gələn dəstəyi verməyə hazırıq.

Bundan əlavə, girovlarımızla bağlı məsələ ölkə rəhbərliyinin də nəzarətindədir.

YENİ MÜSAVAT
N 191 (5900) 31 iyul 2014



# Avtoritar rejimlər üçün sınaq müddəti

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Uzun illərdən bəri Rusiyada yaşayan qohumlarım Bakıya qonaq gəliblər. Rusiyanın ən ucqar əyalətlərindən birində yaşayırlar. Onlar işsiz-gücsüz soydaşlarımızın üz tutduğu Rusiyada son üç ayda güzəranın hiss ediləcək qədər pisləşdiyindən gileylənirlər: son on ildə ilk dəfədir ki, ardıcıl olaraq iki aydır maaşlar, təqaüdlər verilmir. Artıq narazılığın ilk dalğası da hiss olunur.**

Biz indi sakit, səssiz bir kənardan Avropanın və ABŞ-ın Rusiya ilə topsuz, tüfəngsiz davasını izləyirik. Əslində top-tüfəng də var, ancaq atəş səsləri Ukraynanın şərqindəki Donetsk və Luqansk vilayətlərində eşidilir... Səsi isə dünyanın hər yerinə yayılır. Öz çalarlarına və xarakterinə görə Rusiya ilə dünyanın öncül ölkələri arasındakı qarşıdurma həm siyasi tutumuna, həm də hədəfə aldığı niyyətlərə görə fərqlənir... 23 il əvvəl Sovet imperiyasının süqutu ilə dünyanın xəritəsi dəyişdi və elə bu qədər də zaman ötəndən sonra Rusiya bu dəyişmə ilə barışmadığını ortaya qoydu...

Qərb ölkələri hadisələrin dramatik xarakter aldığına laqeyd seyrçi olmadı. Əslində Rusiyanın Ukraynaya yönələn qəzəbi daha böyük bir hədəfə tuşlanmışdı. O atəş hədəfində biz də varıq. Təhlükə hələ də sovuşmayıb.

İndi Rusiyaya yönələn iqtisadi qadağaların nə ilə yekunlaşacağını, 600 il ərzində formalaşan rus imperiyasının sonuncu süqutunun nə ilə nəticələnəcəyini həyəcanla izləyirik. Hər günün baş xəbəri Ukraynada gedən döyüşlərdir. Açıq-aşkar hiss olunur ki, Rusiya bu savaş cəbhəsində də yenilir... Artıq Rusiyadan canlı qüvvə, silah-sursat, maliyyə dəstəyi alan terrorçular addım-addım yenilirlər. Bütün bu uğursuzluqlar da Rusiyanın ayağına yazılır...

Amma olduqca ciddi, taleyüklü bir məsələ yaddan çıxır: Rusiya məğlub olsa, indiyə qədər onun qanadı altına sığınan avtoritar rejimlərin taleyi necə olacaq? Kimə sirdir ki, Rusiya özü avtoritarizmin böyük dayağı idi. Avtoritar rejimləri öz tipologiyasına görə qruplaşdırsaq, ərəb ölkələrindəki idarəçiliyin, MDB məkanındakı rejimlərdən ciddi şəkildə fərqləndiyini görərik. İstisnasız olaraq ikincilər öz yerişlərini, siyasi gedişləri, dünya ilə iqtisadi-siyasi əlaqələri Rusiyanın atdığı addımlara uyğunlaşdırıblar. Qərbi sərt demokratiya tələblərindən çəkindirən də digər qütbdə Rusiyanın dayanması olub. Təkcə son 20 ildə Azərbaycanda keçirilən parlament və prezident seçkilərini bircə-bircə göz önündə canlandırın - Rusiyanın saxtalaşdırılan seçkiləri dəstəkləməsi həlledici rol oynayıb.

Rusiya bircə dəfə bu seçkilərdən kənarda qalsa nə baş verə bilər? Yaxud sanksiyalar ciddi nəticə versə, Rusiyadakı rejim iqtisadi-siyasi təzyiqlərə yenilsə, onun qanadı altına sığınan avtoritar rejimlərin taleyi necə olar?

Birmənalı bu demək olar ki, Rusiyanın məğlubiyyəti istənilən halda zəncirin qırılması analogiyası ilə üst-üstə düşəcək. İllər boyu avtoritar rejimlərin qida mənbəyi olan rüşvətxorluqdan, məmur dərəbəyliyindən cana doyan kütlə ayağa qalxacaq. Bu imperiya xarabalıqlarında azad, demokratik cəmiyyət qurmaq yolundakı böyük bir maneənin aradan qaldırılması ilə nəticələnək...

Bu gün Rusiyanın hədəfə aldığı bütün ölkələrin taleyi Ukraynada həll olunur. Gürcüstan, Moldova da Ukrayna ilə eyni qütbdə dayanıblar. Onlar Qərbin demokratik inkişaf yolu tutan dövlətlərə necə arxa-dayaq olduğuna bir nümunədirlər... Faciənin əks tərəfində isə bizim dövlətimiz, Orta Asiya ölkələri, Belorus və Ermənistan dayanırlar... Bu ölkələrdə siyasi müxalifətə münasibət, azad mətbuatın boğulması, korrupsiyanın xarakteri qəribə sinxronluqla təkrarlanır...

Rusiya yenilsə, eyni ardıcıllıqla bu ölkələrdəki avtoritar rejimlər də süquta uğramayacaqmı?

Hətta daha böyük faciələrin də məhz bu məkanda baş verəcəyi gözlənilir.

20 ildən bəri bütün mümkün ifadələrlə Azərbaycana nifrətini gizlədə bilməyən Jirinovskinin qəfildən bizi belə "sevməsi" də yaxın gələcəyə yönələn siyasi gedişdir. İndiyəcən barmaq silkələyən bir rejim, indi qılıqla danışır, özünə ortaq axtarır. Bilir ki, Azərbaycandakı avtoritar liderlər istənilən tərifdən məst olurlar. Siyasi mühitin komik obrazı olan Jirinovskinin dilindən qopan sözlər alqışlarla qarşılandı...

Bir daha Azərbaycanın hələ də Rusiyanın himayəsinə güvəndiyi bəlli oldu... Axı kimə sirdir ki, Rusiya ilə Qərbin savaşı avtoritar rejimlər üçün də son sınaqdır.

# Hüquq müdafiəçiləri həbslərlə bağlı həyəcan təbili çaldılar

## "Vətəndaşların narkotiklə şərlənib həbs olunması adi hal alıb"

**İyulun 30-da bir qrup hüquq müdafiəçisi ölkədə baş verən son siyasi həbslərlə bağlı mətbuat konfransı keçiriblər. Hüquq Müdafiə Təşkilatlarının Monitorinq Qrupunun üzvləri son həbslərdən narahatlıqlarını bildiriblər və vəziyyətin acınacaqlı olduğunu vurğulayıblar.**



Hüquq müdafiəçisi Səadət Bənəniyarlı bildirib ki, son həbslər onlarda narahatçılıq yaradır və bu, ciddi müzakirə olunmalı məsələlərdir: "Hüquq müdafiəçisi Həsən Hüseynlinin həbsi, Müsavat fəalı Fərəc Kərimlinin və qardaşı Siracın həbsi ciddi hadisədir. İndicə də eşitdik ki, hüquq müdafiəçisi Leyla Yunus həbs edilib. Biz bu kimi məsələləri daim diqqətdə saxlayır və hakimiyyətin problemi həll etməsi üçün çalışırıq. Biz Həsən Hüseynlinin işi ilə bağlı Gəncəyə getdik, araşdırdıq. Məlum oldu ki, onun üzünə duran adam polisin işverənidir. Məsələ ilə bağlı Prezident Administrasiyasında, Baş Prokurorluqda olmuşuq. Problemin ciddiliyi aidiyyəti şəxslərin diqqətinə çatdırılıb. Bu məsələ onlar tərəfindən nəzarətə götürülüb".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu isə qeyd edib ki, NİDA-çı gənclərin, Tofiq Yaqublunun, Yadigar Sadıqovun və digərlərinin də işi ilə bağlı danışıqlar aparılır:** "Həbs edilən siyasi məhbusların problemini çözməmiş yeniləri həbs edilir, bu, daha pisdir. İndi də Sirac və Fərəc Kərimli qardaşları həbs olunublar, onların hər ikisini narkotiklə ittiham edirlər, ciblərinə narkotik qoyublar. Gənclərin, vətəndaşların narkotiklə şərlənib həbs olunması adi hal alıb. Biz bu iki gənclə bağlı da Daxili İşlər Nazirliyinə də müraciət etmişik".

**Hüquq müdafiəçisi həbs edilən, məhkəmələrə yolu düşən minlərlə vətəndaşın pozulan hüquqlarından da danışıb və məhkəmə sisteminin vəziyyətini tənqid edib:** "Məqsədimiz odur ki, məhkəmələrdə dəyişiklik olsun".

**Hüquq müdafiəçilərinin sözlərinə görə, ölkədə qanunlar, məhkəmə sistemi vətəndaşlara deyil, müəyyən qrup insanlara xidmət etməyə yönəlib:** "Nə qədər insanları xuliqanlıqla, narkotiklə həbs etmək olar? Bizə hətta vətəndaşlar narkotik satılan gerçək şəxslər və ünvanlar barədə məlumat vermişdilər, biz bu barədə aidiyyəti qurumlara məlumat verdik. Onları həbs etdilər, ancaq bir ay sonra onlar azadlığa çıxdılar. Bu ölkədə məhkəmələr ya sifarişlə, ya da zənglə qərar çıxarırlar".

**Hüquq müdafiəçisi Səidə Qocamanlı isə bildirib ki, baş verən son siyasi həbslər siyasi məhbus siyahısını artıracaq və bu, hökumət və cəmiyyət üçün yaxşı olmayan nəticələr doğuracaq:** "Belə görünür ki, ilin sonuna qədər siyasi məhbus siyahısı bir neçə dəfə artacaq. Bu ilin iyununda Avropa Şurasına apardığımız siyasi məhbus siyahısında 27 nəfərin adı vardı. Biz Rauf Mirqədirovu o siyahıya istintaqı getdiyinə görə salmamışdıq. İndi Həsən Hüseynlinin də adı siyahıya salınacaq. Biz siyasi motivlərlə həbs edilənlər barədə araşdırma aparır, istintaqın nəticəsini gözləyir və sonra onları siyahıya əlavə edirik. İndi Leyla Yunusun həbs xəbəri yayılıb. Bu iş çox ağır işdir. Bizim 27 nəfərlik siyahımız iyunda Avropa Şurası baş katibinə təqdim edilmişdi. Növbəti siyahının daha uzun olacağını təəssüflə qeyd etməliyik. Ağrıdıcı vəziyyətdir. Hüquq-mühafizə orqanları iki maddə bilirlər, xuliqanlıq və narkotik. Əgər kimsə xoşuna gəlmirsə, onu belə cəzalandırmaq olar? Məhkəmə orqanları cəza verəndə də ən yüksək səddi götürürlər. İstintaq və prokurorluq orqanlarında islahatlar aparılmalıdır. Vətəndaşlar məhkəmələrə etibar etmirlər. Biz Monitorinq Qrupu olaraq görüşlər keçirmişik. Müxtəlif instansiyalarla, səlahiyyətli şəxslərlə, deputatlarla görüşüb vəziyyəti müzakirə etmişik".

**Hüquq müdafiəçiləri AXCP fəalı Kəmalə Xəlilova ilə bağlı yayılan videodan da danışıblar və baş verənləri rəzillik adlandırıblar:** "Bu, çox çirkin işdir. Bu işi edənlər, çəkənlər, yayanlar hamısı məhkəməyə verilməlidir. Hüquq müdafiəçiləri onu müdafiə edəcəklər. İş araşdırılmalıdır, ekspertiza təyin olunmalıdır. Burada istəmirlərsə, ölkə xaricində, məsələn, Gürcüstanda ekspertiza aparıla bilər. Biz buna köməklik göstərərik. Biz əminik ki, hakimiyyətin bundan xəbəri yoxdur. Kəmalə Xəlilova öz ətrafında axtarsın ki, kim bunu edib".

❑ Röya RƏFİYEVA
Fotolar müəllifindir

# Azərbaycanın qərb cəbhəsində gərginlik

## Tovuzun Əlibəyli kəndində vəziyyət ağır olaraq qalır

**"Bir qədər əvvələ qədər vəziyyətimiz indiki kimi gərgin idi. İndi də həmin gərginlik var. Amma ordumuzun ermənıyə layiq olduğu cavabı verməsi bizdə ümid yaradıb". Tovuzun atəş altındakı Əlibəyli kəndinin sakini belə deyir.**



Təmas xəttində yaşayan həmsöhbətimiz bildirib ki, vaxtilə ermənilərə yüksəklikdə səngərlərini, qazmalarını bərkitməyə imkan verildiyindən düşmən həmin nöqtələrdən kəndi təhlükəsiz şəkildə atəş altında saxlayır: "Səngərlərini betonlayıblar. Yeri qazıb yol da çəkiblər ki, maşınları ilə səngərlərinə təhlükəsiz şəkildə gedib-gələ bilsinlər. Ordumuz həmin səngəri vura bilmir. Ona görə də bundan istifadə edib Əlibəylini daimi atəş altında saxlayırlar. Gecə olan kimi güllə səsi eşidilir. Hava dumanlı, çiskin, yağışlı olanda atmırlar".

**Əlibəyli sakini yeni müdafiə nazirinin əmrlərini alqışladıqlarını söylədi:** "Səfər Əbiyevin vaxtında erməni 1 saat atırdı, vurub evlərimizi dağıdırdı, bundan sonra bizimkilər cavab verirdilər. İndi erməni atır və cavabını alır. Susdururlar erməninı, üstəlik layiqli cavabını da verirlər".

**Həmsöhbətimiz son günlər düşmənin fəallaşmasını bayramla əlaqələndirir:** "Həmişə belə olur. Bildilər ki, müsəlmanın bayramıdır başlayırlar atmağa. Adamları snayperlə vururlar. Bayramı vaya çevirmək üçün əllərindən gələni edirlər. Cavablarını da alacaqlar, inşallah".

Qeyd edək ki, iyulun 26-da atəşkəsin pozulması nəticəsində 2 Əlibəyli sakini 1997-ci il təvəllüdlü Fərid Məmmədov Nəbi oğlu və 52 yaşlı Anya Ələsgərova ağır yaralanıblar. Hazırda hər iki şəxsin vəziyyəti stabildir. İyulun 30-da Müdafiə Nazirliyindən aldığımız məlumata görə, son sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimi ümumilikdə 111 dəfə pozulub.

İyulun 29-u axşam saatlarında düşmənin atəşkəsi pozması nəticəsində 1992-ci il təvəllüdlü, Ağstafa rayonundan çağırılmış müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu, əsgər Mustafayev Tural Natiq oğlu yaralanıb.

İlkin tibbi yardım göstərildikdən sonra T.Mustafayev hospitala yerləşdirilib. Vəziyyəti sabit-ağırdır.

❑ E.MƏMMƏDƏLİYEV

# Hüquq müdafiəçisinə dövlətə xəyanət ittihamı verildi

**Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus dünən həbs olunub. Gün ərzində Baş Prokurorluqda, daha sonra isə Nəsimi Rayon Məhkəməsində davam edən gərgin və üzücü istintaqın yekununda tanınmış hüquq müdafiəçisi barədə 4 ağır ittihamla 3 aylıq həbs-qətimkan tədbiri seçilib. Bütün günü Leyla Yunusla bağlı istintaq prosesini izləyən müxbirimiz "Yeni Müsavat"a bildirib ki, hüquq müdafiəçisini məhkəmədən həbsxanaya qara rəngli Toyota "Prado" markalı «JEEP»də aparıblar. Baş Prokurorluqdakı və Nəsimi Məhkəməsindəki istintaqı ölkə jurnalistləri və bir neçə tanınmış şəxs davamlı olaraq binaların çölündə keşik çəkməklə izləyib.**



# İqtidar Leyla Yunusu niyə həbs etdi ?! - xronika və şok məlumatlar

## Sülh və Demokratiya İnstitutunun rəhbəri haqda 3 aylıq həbs-qətimkan qərarı verildi; onun həyat yoldaşından isə ölkədən çıxmamaqla bağlı iltizam alındı, Rauf Mirqədirovla başlayan həbslər davam edə bilər

Hadisə isə dünən səhərdən başlayıb. İlk olaraq Leyla Yunusun həyat yoldaşı Arif Yunus musavat.com-a onun küçədə saxlanması xəbərini verib.

Onun sözlərinə görə, Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutuna tədbirə gedərkən L. Yunusun olduğu avtomobil saxlanılıb və üç nəfər hüquq müdafiəçisini maşından düşürərək naməlum istiqamətdə aparıb.

Arif Yunus xəbəri ilk verəndə onu da bildirmişdi ki, yaşadıqları binanın həyətinə 6 nəfər mülki geyimli şəxs gəlib. Onlar A.Yunusdan qapını açmasını tələb ediblər. Politoloq isə əvvəlcə buna etiraz edib. Lakin sonradan prokurorluqda ifadə verməyə razılaşıb: "Qapını açmırdım. Tələb edirdim ki, Leyla Yunus prokurorluqda vəkillə təmin olunsun. Xəbərdarlıq etdilər ki, açmasam, sındıracaqlar. Vəkil Xalid Bağırovla məsləhətləşəndən sonra qapını açdım".

Musavat.com-un hadisə ilə bağlı yayınladığı operativ xəbərlərdə yazılırdı ki, L. Yunusun səlahiyyətli nümayəndəsi Yusif Ağayev dindirməyə buraxılmayıb.

Bu məqamda musavat.com-un xəbərləri əsasında xronikaya göz gəzdirək. Təxminən 18.05-ə qədər prokurorluqda dindirilən L.Yunus daha sonra Nəsimi Rayon Məhkəməsinə aparılıb. Hüquq müdafiəçisinin vəkili Cavad Cavadov jurnalistlərə bildirib ki, L. Yunusa saxta sənəd hazırlamaq, vergidən yayınma, dövlətə xəyanət kimi maddələrlə ittiham elan olunub və barəsində həbs-qətimkan tədbiri seçilməsi üçün Nəsimi Rayon Məhkəməsinə aparılıb.

Həmin dəqiqələrdə L. Yunusun həyat yoldaşı A. Yunus isə hələ də istintaqçılar tərəfindən dindirilirdi. Hadisə yerində olan əməkdaşımız Cavanşir Abbaslının dediyinə görə, L.Yunusu iki "JEEP" markalı maşınla prokurorluqdan məhkəməyə aparıblar. Jurnalistlər avtomobillərin ardınca düşsələr də, çata bilməyiblər. Bununla belə, əməkdaşımız sonradan təsdiqlənən bir məlumat əldə edə bilib: L.Yunusa qarşı CM-in 274 (dövlətə xəyanət), 178 (dələduzluq), 192-ci (qanunsuz sahibkarlıq) və 213-cü (vergidən yayınma) maddələrlə cinayət işi açılıb.

Bundan başqa, məlim olub ki, L.Yunusun həyat yoldaşı Arif Yunusa Bakıdan çıxmamaqla bağlı xəbərdarlıq olunub və dilindən iltizam alınıb. Arif Yunus Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət), 178-ci (dələduzluq) maddələri ilə təqsirləndirilir. A.Yunus jurnalistlərə deyib ki, o, hətta Montinə gedəndə də polisə xəbər verməlidir.

SDİ rəhbərinin həbsi etirazlar doğurub.

Müsavat Partiyası L. Yunusun həbsi ilə bəyanat yayıb. Müsavat Partiyası hüquq müdafiəçisi L. Yunus və onun həyat yoldaşı A. Yunusun qanunazidd üsullarla saxlanılaraq prokurorluğa aparılmasını və L.Yunusun həbsini ölkə vətəndaşlarına qarşı repressiyaların davamı olduğunu bəyan edərək, ölkədə qanunun aliliyinə cavabdeh olan təşkilatların Azərbaycanın beynəlxalq aləmdə onsuz da yüksək olmayan nüfuzuna xələl gətirən hal olduğunu bildirir, bu cür mənfi halların aradan qaldırılmasını hüquq müdafiəçisinin təcili azad edilməsini səlahiyyətli orqanlardan tələb edir.

"Siyasi məhbuslarsız Azərbaycan" ictimai alyansı L.Yunusun həbsini pisləyib.

Alyansın bununla bağlı bəyanatında deyilir ki, məşhur hüquq müdafiəçisi siyasi motivlərlə təqib olunur və bu, onun siyasi məhbusların azad edilməsi uğrunda mübarizəsi ilə bağlıdır.

Alyans L. Yunusun dərhal azadlığa buraxılmasını və tapdanmış hüquqlarının bərpa edilməsini tələb edir.

Qeyd edək ki, "Ayna-Zerkalo" qəzetlərinin siyasi icmalçısı R.Mirqədirov aprelin 18-də həbs olunduqdan sonra ona da vətənə xəyanət ittihamı verilib və bu proses üzrə L.Yunus da daxil, bir sıra şəxslər dindirilmişdi. İstintaq R.Mirqədirovun L.Yunusun təşkilatının xətti ilə bir neçə dəfə Ermənistana səfərlər edərək orda görüşlər keçirdiyini bildirir.

Bu iş üzrə yeni həbslərin ola biləcəyi ehtimalları var.

Bir sıra ekspertlər isə iddia edirdilər ki, hüquq müdafiəçisi Leyla Yunusun saxlanmasının əsas səbəbi onun son günlər ölkə prezidentinə yönəlik ağır tənqidləri olub. **"Hakimiyyət hələ də dözərdi və hüquq müdafiəçisini saxlamazdı. Lakin o, hər gün birinci şəxsə yönəlik ağır tənqidlərin dozasını artırırdı. Hesab edirəm ki, prezidentə sonuncu müraciəti səbr kasasının daşmasına və Leyla Yunusun saxlanmasına səbəb olub", deyə, ölkənin tanınmış politoloqlarından biri "Yeni Müsavat"a deyib.**

❑ **Cavanşir ABBASLI**

# Heydər Əliyevlə Süleyman Dəmirəlin sui-qəsdçisi azadlığa çıxır

## Məhkəmə Hasan Toku haqqında 30 il həbs qərarının qüvvədən düşməsinə hökm verib

**1993-cü ildə elan edilən prezident seçkilərindən 3 gün öncə Milli Məclisin o zamankı sədri Heydər Əliyevə qarşı sui-qəsd etdiyi üçün 10 il, Süleyman Dəmirələ sui-qəsd etdiyi üçün 30 il azadlıqdan məhrum edilən Türkiyə vətəndaşı Hasan Toku azadlığa buraxılıb. Vəkillərinin iddiası əsasında 1993-cü ildə çıxarılan qərara yenidən baxan məhkəmə Həsən Toku haqqında 30 illik həbs qərarının qüvvədən düşməsinə hökm verib.**

Hürriyet.com yazır ki, vəkillərinin Hasan Toku haqqında çıxarılan həbs-qətimkan tədbirinin ləğvi haqqında iddiasına baxan 9-cu Ağır Cəzalar Məhkəməsi iddianı təmin edib. Məhkəmə hökmündə bildirilir ki, Hasan Tokunun azad edilməsi qərarı onun haqqında cinayət işinin kökünün Azərbaycanda olması, ittiham üzrə Azərbaycanda 10 il azadlıqdan məhrumetmə cəzası alması gərəkçəsi ilə çıxarılır.

Hasan Toku 1993-cü ildə Azərbaycan vətəndaşı ilə birlikdə həbs edilib. Həbs edilərkən silahları da müsadirə olunan şəxslərə qarşı Heydər Əliyevə qarşı sui-qəsd hazırlamaq ittihamı irəli sürülüb.

İşə baxan Azərbaycan Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə Həsən Toku haqqında 10 il azadlıqdan məhrumetmə cəzası çıxarıb. Həbsdən 3 gün sonra Azərbaycan prezidenti postunu tutan Heydən Əliyevin il yarım sonra imzaladığı əfv fərmanı ilə Hasan Toku azadlığa çıxıb. Azərbaycanda əfv edilməsinə baxmayaraq, o, 2 gün sonra Türkiyədə həbs edilib. Türkiyəyə aparılan Hasan Toku İstanbulun Atatürk Hava Limanında Türkiyə hüquq-mühafizə orqanlarına təhvil verilib. İstanbul Ağır Cəza Məhkəməsinin qərarı ilə H.Toku "xarici dövlətin prezidentini öldürməyə təşəbbüs edərkən yanlışlıqla Türkiyə Cümhuriyyəti prezidentini öldürməyə cəhd etdiyi üçün" 30 il həbs cəzası alıb.

❑ **Aygün MURADXANLI**

# İtaliyada diplomatik qalmaqal

## İlham Əliyevin imzası olan sənədi dəyişmək istədilər



**İtaliyada Azərbaycan prezidenti İlham Əliyevin bu ölkəyə rəsmi səfəri zamanı imzalanan sənədlə bağlı diplomatik insident baş verib. Virtualaz.org saytı spondasud.it adlı İtaliya portalına istinadən xəbər verir ki, Azərbaycanla İtaliya arasında strateji tərəfdaşlıq haqda Birgə Bəyannamənin mətnində Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinə dəstək ifadə olunması xarici işlər naziri Federiko Moqerinin Avropa İttifaqının xarici siyasət məsələləri üzrə ali komissarı vəzifəsinə seçilməsi şanslarına zərbə vura bilər.**

Saytda yerləşdirilmiş məqalənin müəllifi Kalyari Universitetinin Yaxın Şərq İnstitutunun əməkdaşı, tarix elmləri namizədi Laura Tossodur.

L.Tosso Türkiyə araşdırmaları üzrə ixtisaslaşıb və belə görünür ki, erməni çevrələrinə bağlıdır. Qeyd edək ki, müəllifin Türkiyədə qətlə yetirilən erməni jurnalist Qrant Dink barədəki araşdırması beynəlxalq jurnalistika mükafatı alıb.

Məqalədə deyilir ki, Azərbaycan prezidentinin səfəri ərəfəsində İtaliya XİN-dən iki diplomat strateji tərəfdaşlıq haqda Birgə Bəyannamənin mətnini işləyib hazırlayıb.

Sənədin bu variantı rəsmi Bakı ilə razılaşdırılıb və orada Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü prinsipi çərçivəsində həllinə çağırış ifadə olunur.

Sənəd iyulun 14-də prezident İlham Əliyev və İtaliyanın baş naziri Mattio Renzi tərəfindən qəbul edilib.

Lakin məlumata görə, ATƏT-in Minsk Qrupunun həmsədri olan Fransanın nümayəndələri İtaliyanın Minsk Qrupuna üzv olan ölkə kimi münaqişə ilə bağlı bu cür mövqe tutmasını düzgün hesab etməyiblər və məsələni İtaliya xarici işlər nazirinin diqqətinə çatdırıblar.

Nəticədə İtaliya XİN "anlaşılmazlığı" başa düşüb və rəsmi mətnin dərcini dayandırıb. İtaliya XİN Bakıya təklif edib ki, yeni mətn üzərində işləsinlər.

Təbii ki, Azərbaycan tərəfi bu təklifi qəbul etməyib və yüksək səviyyədə qəbul edilmiş sənədi dəyişdirməkdən imtina edib. İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq barədə Birgə Bəyannamənin mətni Azərbaycan XİN tərəfindən dərc edilib. İtaliya XİN isə buna baxmayaraq sənədin mətninə yenidən baxmağa başlayıb və onun dərcini dayandırıb.




# Taleh Heydərov fotoyarışa start verdi

**2015-ci ilin iyununda, Azərbaycanın paytaxtı Bakıda keçirilməsi planlaşdırılan Avropa ölkələri arasında tarixdə ilk yay oyunlarına hazırlıqlar davam edir. Avropanın 49 Milli Olimpiya Komitəsini birləşdirən Beynəlxalq Olimpiya Təşkilatı tərəfindən keçirilən Avropa Oyunları (European Games) üçün nəzərdə tutulmuş stadion və digər tikililərdə işlər davam edir. Artıq sıra bu möhtəşəm tədbirin təbliği ilə bağlı təşviqat işlərinə də çatıb.**

Fövqəladə hallar naziri Kəmaləddin Heydərovun oğlu Taleh Heydəroun rəhbərlik etdiyi "The European Azerbaijan Society (TEAS) ( Avropa Azərbaycan Cəmiyyəti) " yaydığı növbəti bəyanatda deyilir ki, cəmiyyət "Azerbaijan - Sport in Focus" adlı yarışa start verir. Peşəkar və həvəskar fotoqrafların qatıla biləcəyi yarışda qaliblərə müvafiq mükafatlar veriləcək. Yarışa qatılanların Bakı səfərinin bütün xərcləri ödəniləcək, o cümlədən onlar Avropa Oyunları ərzində oyunların hamısına biletlə təmin olunacaqlar. Yarış iştirakçılarının həftəsonu istirahətləri üçün də tədbirlər nəzərdə tutulub. Onlara iPad-də veriləcək.

O da xüsusi vurğulanır ki, yarışa qatılmaq istəyənlər idmanla bağlı fotolarını münsiflər heyətinə təqdim etməlidir. Yalnız bu mərhələdən keçənlər yarışa qatıla bilər.

Münsiflər heyəti beynəlxalq səviyyədə tanınan fotoqraflardan təşkil olunub: Ed Qaşi, Filip Razmer və Aqdes Bağırzadə yarış iştirakçılarının təqdim etdiyi fotoları dəyərləndirəcəklər.

Yarışı əks etdirən və mükafata layiq görülmüş fotolar Avropa Azərbaycan Cəmiyyətinin London, Paris, Brussel, İstanbul və Bakı ofislərində sərgidə nümayiş etdiriləcək.

Yarışa qatılmağın yeganə şərti odur ki, mövzu idman və Azərbaycanla bağlı olmalıdır.

REWeb-in yaydığı bəyanatda münsiflər heyətində olanlar barədə də məlumat verilib. Ed Qaşi amerikalı fotojurnalistdir. Bir çox mükafatların sahibidir. Bəyanatda bildirilir ki, o, həmçinin İraq kürdlərinin "Azadlıq Uğrunda" mübarizəsini əks etdirən fotoları ilə tanınır...

Filip Razmer isə Almaniyada doğulub. Vodafone, Nivea, Mercedes-Benz, Sony və Wella kimi nüfuzlu şirkətlər üçün fotoçəkilişlər edib. Lady Gaga, Luciano Pavarotti, Michael Schumacher, Sofi Loren və Eva Grin kimi nəhənglərlə çalışıb.

Aqdes Bağırzadə isə Bakıda doğulub. Onun sərgiləri bir çox ölkələrdə nümayiş etdirilib...

Bu bəyanat onu deməyə əsas verir ki, Taleh Heydərov Avropa Azərbaycan Cəmiyyətinin xətti ilə Bakıda keçiriləcək Avropa Oyunlarının təbliğində xüsusi rol alıb. Artıq o, bu vəzifənin yerinə yetirilməsinə başlayıb.

❑ **Elbəyi HƏSƏNLİ**

YENİ MÜSAVAT
N 191 (5900) 31 iyul 2014



# Müsavatda nizamnamə söhbəti

Zahid SƏFƏROĞLU
zahid.safaroglu@box.az

**Müsavat Partiyasının qurultayı yaxınlaşdıqca sövq-təbii təşkilat daxilində siyasi mübarizədən doğan ehtiraslar da qızışır. Təbiidir, ən azı o səbəbə ki, budəfəki ali tədbirin əvvəlkilərdən köklü şəkildə fərqlənəcəyi və tarixə böyük ehtimalla bənzərsiz özəlliyi ilə düşəcəyi gözlənilir - möcüzə baş verməsə, Müsavat növbəti qurultayda yeni başqanını seçəcək.**

Ancaq qeyri-təbii görünən söz-söhbətlər var ki, bir müsavatçı olaraq onlara münasibətimi dəyərli partiyadaşlarımın diqqətinə çatdırmaq istərdim.

Biri - nizamnaməni dəyişmək söhbətidir. Məlumat var ki, partiyada müəyyən kəsim bir şəxsin ardıcıl iki dəfədən artıq başqan olmasını yasaqlayan normanı götürməyin, başqa sözlə, ömürlük başqanlığın yolunu "açmağın" tərəfdarıdır. Olsun. Hər kəsin təşəbbüskarlıq göstərmək, öz namizədliyini vermək, kimisə dəstəkləmək və ya dəstəkləməmək hüququ var. Fəqət, qəribəsi odur ki, iddialara görə, nizamnaməyə düzəliş heç də İsa Qəmbərin başqan qalması zərurəti ilə bağlanılmır, post-İsa Qəmbər dönəminə hesablandığı deyilir.

Əlbəttə ki, heç bir konstitusiya, qanun, nizamnamə Quran ayəsi deyil. İstənilən vaxt, daha dəqiqi, milli-ictimai maraqlar diktə etdikdə onların hamısına düzəlişlər oluna bilər və olunmalıdır. Ancaq zəruri bilindikdə! Buradaca mütləq mühüm bir detal unudulmamalıdır - düzəlişə eyni zamanda müasir dünyanın imperativləri nəzərə alınmaqla və geriyə addım niyyəti güdülməməklə gedilməlidir. Yoxsa ki, düzəliş xətrinə düzəliş olacaq və o, qrup-klan maraqlarına xidmət edəcəksə, insan haqlarının fəlsəfəsi ilə uzlaşmayacaqsa, əksinə, avtoritar-totalitar idarəçiliyə yol açacaqsa, ona indidən və fikirləşmədən "yox" demək lazım!

Müsavata gəlincə, daha çox liberal yönümlü təşkilat olan bu partiyada iki dəfə norması, yanılmırıqsa, elə başqanın özündən gəlib və düz də edib. O da yaxşı bəllidir ki, İsa Qəmbər başqanlıdan getməkdə israrlıdır və bu da yenə onun halal haqqıdır, demokratiya, demokratik fəlsəfə ilə uzlaşan mövqedir.

Gerçək bundan ibarətdir ki, inkişaf təşəbbüskarlıqda, yenilikdədir, durğunluqda, ətalətdə, reallıqla barışmaqda yox. Müsavat kimi partiyanın daxili potensialını hərəkətə gətirmək, onu dinamiklik verib təravətli vəziyyətdə saxlamaq, Müsavatın lider sarıdan "qısır" təşkilat olmadığını nümayiş etdirmək üçün başqan dəyişikliyi də vacibdir. Müsavat demokratik qurumdursa, o zaman demokratiyada nə çərə tükənər, nə də ki, əvəzedilməz şəxs problemi yaşanar.

İstənilən halda, ehtiyac yaransa, İsa bəy 4 il sonra yenidən demokratik yolla başqanlığa qayıda bilər, zira, partiyada, ümumən müxalifətdə yaxın illərdə İsa Qəmbər zirvəsinin fəth edəcək siyasi fiqur yoxdur, gözlənilmir. Amma İsa bəyin qalması, yaxud daha betəri, onun yerinə gələcək şəxsin əbədi başqanlığı üçün nizamnaməni dəyişməyin Müsavat adına zərərdən başqa xeyri ola bilməz. O zaman əbədi prezidentlik üçün konstitusiyanı saxta referendumla dəyişib bir nəfərin ömürlük prezidentliyi önündə hüquqi əngəli götürən hakim qüvvə ilə Müsavatın nə fərqi oldu ki?..

Müqayisə bəlkə də qüsurlu olar, Azərbaycanın qanunları, konstitusiyası kifayət qədər ədalətli və normaldır, universal dəyərləri nəzərə alır. Amma bu, mövcud hakimiyyətə onları ayaqaltı etməyə, milli sərvətləri mənimsəməkdə davam etməyə mane olmur. Sabah hakimiyyət dəyişəcək, ola bilsin yeni rejim əksinə, onlara saygılı olacaq? Sivil dünya çoxdan bu testdən keçib: konstitusiyanı, oyun qaydalarını bir nəfərə yox, bir nəfəri konstitusiyaya (nizamnaməyə, oyun qaydalarına) uyğunlaşdırmaq gərəkdir.

Sözümüzün canı odur ki, problem kağızda deyil, əbədi problem olan təfəkkür tərzindədir. Yaxşı deyiblər, "Niyyətin hara, mənzilin də ora". Hamımız üçün ifrat diqqətli olmaq zamanı çatıb. Qarşıdakı bir neçə ayda elə edək ki, sözümüzdən tutub Müsavatı qınaq hədəfinə çevirməsinlər. Gözlər Müsavatdadır.

Bu, öyüd deyil, Rəsulzadə işığına toplaşanlardan səmimi bir xahişdir. Müsavat qurultaydan öz adına, şanlı keçmişinə layiq şəkildə çıxmağa borcludur. Və təkcə yeni başqanla yox, həm də yeni və modern düşüncə ilə, daha monolit qüvvə kimi bu mərhələni aşmalıdır.

# "Kimin kim olduğunu çox gözəl bilirik"

## Tural Abbaslı: "Aparılan təbliğat kampaniyası gənclərin partiyada ciddi rəqib olduqlarını göstərdi"

**Son günlər Müsavat Partiyasının qurultay məsələsi qədər başqanlığa namizədlərin kimlər olacağı da ciddi müzakirə mövzusuna çevrilib. Sosial şəbəkələrdə aktiv olan müxalifətçilər başqanlığa namizəd kimi Müsavat Divanının üzvü Tural Abbaslı, Müsavatın Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı, Müsavat Partiyası Divanının üzvü Qubad İbadoğlu və Müsavat başqanının müşaviri Səxavət Əlisoyu görürlər.**

Namizədlər hələlik rəsmi olaraq təsdiqlənməsə də, sosial şəbəkələrdə başqanlığa namizəd olacaqlarını açıqlayan şəxslərin tərəfdarları təbliğat işlərinə başlayıblar. Facebook sosial şəbəkəsində Müsavat Divanının üzvü Tural Abbaslının şəklini paylaşan gənclər namizəd kimi onu dəstəklədiklərini ifadə ediblər. Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin "Ey Gənclik! Sənin öhdəndə böyük bir vəzifə var" sitatı ilə üzərində T.Abbaslıya aid "Gənclik məsuliyyəti öz üzərinə götürməyə tam hazırdır!" sözlərinin yazıldığı şəkil sosial şəbəkə istifadəçiləri tərəfindən paylaşılaraq böyük marağa səbəb olub. Müsavatçı gənclərin apardığı bu kampaniyaya münasibət bildirən **Tural Abbaslı** deyib ki, bunu siyasi təbliğat kampaniyası adlandırmır. Onun sözlərinə görə, hələ namizədlərin kim olacağı bilinmir və təbliğata start



Tural Abbaslı

verilməyib: "Hər halda, sağ olsunlar, bizi dəstəkləyən gənclərin belə bir təşəbbüsü oldu və biz də etiraz etmədik. Çox gözəl də alınıb və mən bunu normal qiymətləndirirəm. Digər namizədlərin də adlarını səsləndirirlər. Düzdür, çalışırlar onların adını gizli saxlasınlar və gizli təbliğat aparsınlar. Bizlər siyasətlə məşğul oluruq və kimin kim olduğunu çox gözəl bilirik".

T.Abbaslı bildirdi ki, facebookda aparılan təbliğat kampaniyası gənclərin partiyada ciddi rəqib olduqlarını göstərdi.

Qeyd edək ki, Müsavat Partiyasında qurultayın Suraxanıdakı Səttar Bəhlulzadə adına Mədəniyyət Evində keçirilməsi məsələsi müzakirə olunur. Srağagün Müsavat Partiyası Mərkəzi İcra Aparatının sədri Arif Hacılı açıqlamasında bildirmişdi ki, qurultay həmin mədəniyyət evində keçirilə bilər. Ancaq hələlik Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin bu barədə qərarı yoxdur.

**A.Hacılı demişdi ki, partiya istənilən halda qurultayını keçirməlidir. Onun sözlərinə görə, qurultayın ləngiməsi Müsavat Partiyasına ciddi ziyan vurur:** "Sentyabrın 27-nə qurultayımızı təyin edərkən Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsində əsas fikir bundan ibarət oldu ki, nəyin bahasına olur-olsun, qurultayı keçirməliyik. Hələlik qurultayın partiyanın qərargahında və ya Səttar Bəhlulzadə adına Mədəniyyət Evində keçirilməsi barədə qəti fikir söyləmək tezdir. Biz təbii ki, daha yaxşı variantları axtarmaqda davam edəcəyik və çalışacağıq ki, partiyanın qurultayı 800-1000 nəfərin iştirak edə biləcəyi uğurlu bir zalda təşkil olunsun. Sonuncu müraciətimizə cavab olaraq, Bakı Şəhər İcra Hakimiyyətindən bildirmişdilər ki, partiya hər hansı şadlıq sarayı və ya özəl müəssisə ilə razılıq əldə edə bilər. Məncə, bu məsələlər də müzakirə olunmalıdır. Biz yenə də Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edəcəyik".

❑ **Fərahim İLQAROĞLU**

# Eynulla Fətullayev Lalə Şövkətin oğlu ilə iş birliyindən danışdı

## "Sidqi Şövkət istedadlı və savadlı gənc olaraq bu işin öhdəsindən gələ biləcək"

**Yaxın günlərdə "Azeri Daily" adlı yeni analitik-informasiya saytı fəaliyyətə başlayacaq. İngilis dilində olacaq bu nəşrin baş redaktoru haqqin.az portalının aparıcı müəlliflərindən biri olan Sidqi Şövkətdir. Sidqi Şövkət ALP lideri Lalə Şövkət Hacıyevanın oğludur.**

Qeyd edək ki, hüquq üzrə fəlsəfə doktoru olan Sidqi Şövkət Britaniyanın məşhur Oksford Universitetinin məzunudur. O, bir ilə yaxındır ki, Eynulla Fətullayevin təsisçisi olduğu haqqin.az portalı ilə əməkdaşlıq edir.

"Azeri Daily" saytı təkcə Azərbaycanın yox, ümumən bütün Qafqaz regionunun ictimai-siyasi və sosial-iqtisadi həyatını, bu bölgədə baş verən prosesləri işıqlandıracaq.

Yeni ingilisdilli saytın təsisçisi Eynulla Fətullayevdir. O, yeni elektron nəşrin fəaliyyətə başlamasını zəruri edən



Eynulla Fətullayev

səbəbləri virtualaz.org saytına şərh edərkən bildirib ki, bu nəşr əsasən xarici oxucu auditoriyasına hesablanıb.

Sidqi Şövkət virtualaz.org saytına açıqlamasında bildirib ki, "Azeri Daily" portalı online rejimdə işləyəcək və gün ərzində müntəzəm olaraq yenilənəcək.

Bu xəbərin mətbuatda yayılmasından sonra bir çoxları sosial şəbəkələrdə müxtəlif statuslar yazdı. Xüsusən də E.Fətullayevlə Lalə Şövkətin münasibətlərinin gərgin olduğunu əsas gətirənlər bu xəbəri təəccüblə qarşıladıqlarını deyiblər.

**E.Fətullayev musavat.com-a açıqlamasında bildirib ki, 1 ildən artıqdır ki, S.Şövkətlə əməkdaşlıq edir:** "O, demək olaraq hər gün saytımızda siyasi şərhlərlə, analitik məqalələrlə çıxış edir".

**L.Şövkətlə münasibətlərini soruşduqda E.Fətullayev "Lalə Şövkət xanıma mənim böyük hörmətim var"-dedi:** "Onunla həmişə yaxşı münasibətlərimiz, ünsiyyətimiz olub. Amma Sidqi Şövkətə qalanda, o, müstəqil şəxsdir. Çox qabiliyyətli, analitik təfəkkürə malik, istedadlı qələm sahibi olan bir gəncdir. Oksford Universitetində oxuyub, fəlsəfə doktorudur, yaxşı publisistdir və məncə, bu işin öhdəsində çox yaxşı gələcək. Həm də ona görə ki, ingilis dili onun üçün doğma dil kimidir. Məncə, xarici ölkələrdə Azərbaycanla bağlı xəbərlərə, şərhlərə və analitikaya böyük zərurət var. Nəzərə alsaq ki, indiyədək ingilis dilində keyfiyyətli resurs yaradılmamışdı, məncə, bu layihəyə böyük maraq olacaq. Biz həm də xaricdən bir neçə eksperti də işə cəlb etmişik, bizim üçün yazacaqlar. Azərbaycanın həm regionda, həm də dünyada geosiyasi çəkisi artır. Məhz ona görə də ölkəmizdə ingiliscə də yaxşı resurs olmalıdır. Məsələn, politoloq Teodor Karasik, ekspert Ariel Koen və digərləri bizə yazacaq. Yazar heyəti hələ genişlənəcəkdir".

❑ **Fəridə ABDIYEVA**

**“Qanun Nəşrlər Evi”nin direktoru Şahbaz Xuduoğlu facebook səhifəsində kitab yarmarkasını dayandırdığı barədə açıqlama yayıb. O, “Kitaba bu qədər laqeyd olan millətin gələcəyi böyük şübhə altındadır. Daha bundan sonra yarmarka məsələlərinə son qoydum. Nə əcaib bir mühitə gəldik” deyə bildirib. Ş.Xuduoğlu ilə söhbətdə bu sahəyə olan münasibətdən danışdıq. Təbii ki, öncə son qərarının üzərində dayandıq.**

# “Mən uğursuz bizneslə məşğul deyiləm”

## Şahbaz Xuduoğlu: “Məmur yarmarkaya gəlib deyir ki, hər şey qanla gəlir, kitabla yox...”

***- “Bir daha kitab yarmarkaları təşkil etməyəcəm”. Bu, son qərarınızdır, yoxsa emosiyadan doğan ilkin reaksiyanız?***

- Məntiq və görülən zəhmətin cavabı onu deyir ki, bu yarmarkalar keçirilməsə yaxşıdır. Amma təkidləri, dostların çağırışını, gənclərin münasibətini bu yarmarkaların bu cür düşünən insanlar üçün gərəkli olduğunu görəndən sonra verdiyin ilkin qərarın əksinə hərəkət etməyə məcbur olursan. Bu mənada emosional dediyim fikirlər reallığın göstəricisidir, özü də soyuq reallığın. Amma nəticə də reallığa uyğun olur. Bütün hallarda yenə də fikirləşirik ki, bizim əlimizdə bir qrafik hazırlanırdı. Bu qrafik hansı müddətə və harada olsun ki, oxucular bundan maksimum yararlansınlar.

***- Yəni yarmarkalar davam edəcək...***

- Davam edəcək.

***- Sizin kitab yarmarkasının dayandırılması ilə bağlı ilkin qərarınıza reaksiyalar fərqli oldu. Kitabsevərlərin buna şiddətli etirazları ilə yanaşı, “yay fəslində paytaxt əhli istirahətdə olduğundan yarmarkaya axın olmadı”, “kitablarınız baha idi”, “keyfiyyət parametrləri aşağı idi” tipli arqumentlər də səsləndi. Sizcə, bütün bu deyilənlər ölkədəki kitab satışına nə dərəcədə təsir göstərir?***

- Ümumi nəticəyə təsir göstərən düşüncədir. Bizim xalq olaraq düşüncə problemimiz var. 200-300 nəfər gördüyüm işi dəyərləndirir, onlara minnətdaram və onlara görə işi irəliyə aparmaq niyyətindəyəm. Amma elə insanlar var ki, kitabı necə açmağı bilmirlər. Kitabla bağlı hansı sözlərdən istifadə olunur? Deyir ki, kitaba pul verməkdənsə çölə tökərəm, kitab oxuyub kim nə əldə edib ki, oxumaq gözə ziyandır...

***- Bu fonda daha çox “kitaba pul verməkdənsə onu çörəyə xərcləyərəm” arqumenti daha çox səslənir sanki...***

- Bəli, o da var. Çox adam şikayət edir qiymətlərdən. Mənə elə gəlir ki, ən azından beyinlə qarın bərabər surətdə qidalanmalıdır. Amma baxıram ki, hamı qarnını qidalandırır, beynini yox. Son illər xeyli sayda kitablar buraxmışıq. Bu kitabların Avropa dəyərlərinə baxırsan, orda Azərbaycandakından 30-40 faiz bahadır.

***- Axı Avropada insanların orta aylıq qazancı, yaşam standartları, eləcə də kitabların keyfiyyəti parametri qiymətlərə təsir edir.***

- Təbii, səbəblər var. Ona görə də bizdə qiymətlər aşağıdır. Bu ölkənin vətəndaşı rus dilində təhsil alıbsa, çox az halda kitabın qiyməti üstündə mübahisə edir. Əgər bu kitab ona lazımdırsa, alıb gedir. Amma bir azərbaycanlı gəlir.



Görürsən ki, çox şıq geyimdədir, imkanlı olduğu hiss edilir. Gəlib kitaba dirənəndə deyir, nə bahadır.

***- Bu, kitab yarmarkalarındakı insan mənzərələrindən biri. Başqa nələr gördünüz kitab yarmarkalarında? İnsanların kitaba, naşirə, kitab satışına münasibəti fonunda nələr yaşanır orda?***

- Təsirli hadisələr çox olub. Qaradağdan 2 körpəsi ilə kitab almağa gələn qadının yolda cibindən pulqabısını çıxarmışdılar. Mən ona dedim ki, hansı kitablara görə gəlmisizsə, biz onları sizə verə bilərik və verdik də. Zabitlər Bağında bir ara gördük ki, uşaqlar bir-birinin ardınca əllərində kitablarla kassalara yaxınlaşırlar. Bu an baxdım ki, kənarda yaşı 50-dən yuxarıda olan bir kişi dayanıb. O kişi kitaba yaxınlaşan uşaqlara bunun pulunu özünün ödəyəcəyini deyirdi. O, avropalı idi. Hiss etdim ki, əhvalı yaxşıdır, uşaqların kitaba can atmasını görüb, buna dəstək verir. Daha bir mənzərə isə odur ki, kitabların yanından keçən uşaqlar mütləq ona yaxınlaşmağa can atırlar. Amma dərhal valideyn “toxunma”, “gedirik, əl vurma” deyərək, onu kitabdan uzaqlaşdırırlar. Rus gələndə isə uşağı kitaba meyl edirsə, ona həmin kitabı alır, meyl etməyəndə də kitaba maraq oyatmağa çalışır. Bu, faktdır, son müşahidələrimdir. 50 yaşlı insanlar yanında uşaqla gəlir ki, bəs biz bu kitabların hamısını oxumuşuq. Halbuki sovet dövründə indi satışda olan xarici ədəbiyyatın hamısı olmayıb. SSRİ-nin təbliğatına zidd olan kitabların nəşrinə o zaman icazə verilmirdi. Biz indi bunları öz dilimizə tərcümə etmişik. Mənim şəxsən tanıdığım vəzifəli adam gəlir və deyir ki, kitabla olmur, əsas qanda olmalıdır. Və mən o adama yaxından bələdəm, bilirəm ki, təhsilinə görə bu gün vəzifədədir, çünki kasıb ailədən idi. Deyirəm “qanda nə ola bilər, necə ola bilər? Axı sən oxumaq hesabına bu səviyyəyə gəlmisən. Bu məsələyə molla kimi münasibət göstərib, ”hər şey Allahdandır" demək ədalətsizlikdir".

***- Səhv etmirəmsə, “Nərimanov Bağı”nda, “Sahil”, “Zabitlər” və “Hüseyn Cavid” bağlarında keçirildi kitab yarmarkaları. Satış göstəriciləri nə dedi?***

- Düzü, hələ hesablamanı yekunlaşdırmadığımız üçün sizə tam rəqəm deyə bilməyəcəm. Amma sizin sadaladıqlarınızdan başqa “Xalqlar Dostluğu”nda da yarmarka təşkil olundu. Ora 10 mindən artıq kitab çıxarmışdıq, onun cəmi 10 faizi satıla bilirdi. 200 adda 1 manatlıq kitab vardı ki, satıldı. Böyük rəqəmlər deyildi. Qəribə fikir var ki, sanki kitab pis satılırsa, kitab nəşr edən adam mütləq acından ölməlidir. Belə deyil axı. Əslində kitabın yanında olan, həyatını onunla quran adam yaxşı yaşamalıdır.

***- Yarmarkanın təşkili necə, çətin başa gəlir?***

- Asan deyil. Amma şükürlər edirəm ki, müəyyən orqanlarda məhz kitab adına dəstək verən xeyli adamlar var idi. Kitab yarmarkası üçün can-la-başla yardım edirlər.

***- Polisin yarmarkanı dağıtma cəhdi? O da baş verir?***

- Olur. İsrar, telefonlar, zəngləşmələr... İcazəli olduğunu dəfələrlə təsdiqlədəndən sonra imkan verirlər. Hətta bir dəfə Aqil Abbas da gəlmişdi. Onu görəndə polis gəldi ki, kitab satışı qanunsuzdur, yığışdırın. Aqil Abbas dedi ki, mən bu dəqiqə polisə deyərəm. O, polisə zəng elədi. Məni idarəyə dəvət edib bildirdilər ki, bunu bizə deputat dediyi üçün biz qeydiyyatını aparmalıyıq və siz cərimə ödəməlisiniz. Yəni mən belə başa düşdüm ki, Aqil Abbas zəng etməməliydi.(gülür)

***- Cərimə demiş, bildiyim qədər sizin kitabların plagiat variantları da metrolarda satılır. Bunun qarşısını almaq olmur?***

- İndi metrolarda kitab satılmır. Amma kitab sektoruna ziyan vuran məhz metrolar və “28 May” metrosu ətrafında topdansatış mərkəzləridir. Təsəvvür edin ki, Əlif Şafakı, Xalid Hüseyni, fərdi inkişafla bağlı bəzi kitabları, detektivləri nəşr etdim. Amma görürsən ki, sənin buraxdığın kitabların pirat nüsxələri çıxıb və o yerlərdə satılıb. İzah edirsən ki, düzgün deyil. Biz bu kitabların Azərbaycan dilində nəşrinə icazə almışıq. Amma onlar davam edir və oxuculara bizim kitabların daha ucuz versiyasını satırlar.

***- Bəzən belə fikirlər də səslənir ki, Şahbaz Xuduoğlu uğursuz bizneslə məşğul olmanın verdiyi aqressiya ilə danışır... Sizcə, Azərbaycanda bu, uğursuz biznesdir?***

- 22 ildir kitab işi ilə məşğulam. Mən buna uğurlu iş kimi yanaşıram. Bu, biznesdən daha çox mədəniyyətdir. Mənim görə bildiyim iş kitab nəşridir. Burda bu işi daha yaxşı qurmaq olardı. Amma ölkədə kitab dükanları yoxdur. Belə faciəli durumda kitab çıxırsa, buna şükür etmək lazımdır.

❑ **Sevinc TELMANQIZI**

# Seçki ehtirasına qapılma



**Xalid KAZIMLI**

**Mübahisənin yeri yoxdur: Müsavatın başqanı müsavatçı olmalıdır. Onun hansı millətdən, etnik qrupdan olması fərq etməz. Məsələ bu qədər bəsitdir və mübahisə predmeti olmağa layiq deyil.**

Həm də bu, təkcə Müsavata aid deyil, dünyəvi dəyərlərə, demokratik prinsiplərə önəm verən istənilən partiyaya, eləcə də dövlətə aiddir.

Bir də əsas məsələ odur ki, başqan (prezident) olacaq şəxs komanda formalaşdırarkən, rəhbərliyinə seçildiyi orqanı idarə edərkən öz seçdiklərinin hansı millətdən, etnik qrupdan olması arasında fərq qoymasın.

Əks təqdirdə, alınmayacaq, söz-söhbət başlayacaq və idarə olunması çətinləşən bir durum yaranacaq. Çünki etnik azlıq nümayəndələri də hansısa bir idarəedici qurumun nüvəsində çoxluq təşkil edərlərsə, bu, balansın süni şəkildə pozulması deməkdir.

Üzvü olduğumuz Avropa ailəsində millətçi şüarlarla heç bir uğur qazanmaq, Avropaya, demokratik dünyaya inteqrasiya olunmaq mümkün deyil.

Bariz bir nümunə: 10-12 il əvvəl Avstriyada parlament seçkilərində böyük səs üstünlüyü ilə qalib gələrək hökumət qurmaq imkanı əldə etmiş millətçi *(daha dəqiqi, açıq faşizm ideyaları təbliğ edən)* partiyanın sədri bir gün belə baş nazir ola bilmədi. Bütün Avropa dövlətlərinin göstərdiyi təzyiq nəticəsində o, geri çəkilməyə məcbur oldu.

Bütün bu cür söz-söhbətlər seçki ehtirasından doğur. Seçki elə bir şeydir ki, insanlar adi, ənənəvi, normal düşüncə tərzinin çərçivəsindən kənara çıxır, ehtiraslara qapılır, harasa seçilməyi ölüm-qalım məsələsinə çevirirlər. Bu zaman qarşılıqlı əks-təbliğat, qara piar elementləri müşahidə olunur, yalan vədlərə, iftiraya əl atıldığı olur.

On illərlə eyni partiyada çiyin-çiyinə, ən ağır şərtlər altında fəaliyyət göstərən siyasi fərdlər belə bir gün rəqibə çevrilərkən aralarında gərgin münasibətlər yaranır.

Öz partiyasının üzvündən düşmən düzəltmək ənənəsinin tarixi qədimdir. Məsələn, çoxlarımızın orta məktəbdə dərs kimi keçdiyimiz Kommunist (bolşeviklər) Partiyasının tarixi bu baxımdan çox zəngindir. Stalin hakimiyyətini möhkəmlətmək üçün minlərlə silahdaşını, partiya yoldaşını sözün birbaşa mənasında məhv edib.

Elə ən yeni tariximizdə də partiyadaxili intriqalara dair çoxlu faktlar tapmaq olar. Bir təşkilat (məsələn, AXC), bir partiya daxilində “hakimiyyətə gəlmək”, söz yiyəsi, idarəedici olmaq üçün nə qədər intriqalar, qovğalar yaşanıb, parçalanmalar baş verib.

Əslində müəyyən qədər də o cür “qırğınlar”ın yaratdığı əlverişsiz mühit üzündən oldu ki, AXC-Müsavat hakimiyyəti süquta uğradı və onların qurmaq istədikləri gənc dövlət YAP-ın pəncəsinə keçdi. Budur, 21 ildir ki, YAP köhnə Kommunist Partiyası kimi, öz daxilində təfriqəçiliyə, fraksiyaya, hər hansı bir intriqaya yol vermədən, sırf inzibati-amirlik metodu ilə özünü də idarə edir, dövləti də.

Əlbəttə, bu, düzgün idarəetmə forması deyil. YAP-da demokratiyadan, ədalətli seçmədən, yeni nəfəsdən, təşəbbüskarlıqdan əsər-əlamət yoxdur. Partiya dediyin qaynar qazan kimi olmalıdır. Amma o dərəcədə də qaynar yox ki, üstü qaynayıb daşsın, dibi yansın.

Hazırda Müsavatda seçki ehtirası partiya çərçivəsini aşaraq ictimaiyyətin diqqətinə təqdim edilmiş durumdadır. Bu, bir çox yerlərdə müzakirə predmetinə çevrilib. Bir tərəfdən, bu təbiidir, bir ana müxalifət partiyasının rəhbərliyindəki dəyişiklik ciddi məsələdir, 1 ildən sonra xalq növbəti seçki üçün sandıq başına gedəndə onsuz da yeni adları çox eşidəcək.

Ancaq seçki ehtirasına qapılaraq vəziyyəti o yerə çatdırmaq da lazım deyil ki, xalq tərəflərin hər ikisindən narazı qalsın.

Bundan başqa, yarışma elə olmalıdır ki, seçki ehtirası səngiyəndən sonra bir tavanın altında yenidən çiyin-çiyinə mübarizə aparmaq mümkün olsun.

Bir də bütün enerjisini öz qrup liderinin partiya başqanı seçilməsinə sərf etməyə hazır görünənlər bilməlidirlər ki, indiki şərtlərlə, Azərbaycan tipli ölkələrdə ana müxalifət partiyasının rəhbəri olmaq adama hər hansı bir imtiyaz vermir, əksinə, bu gedib topun qabağında durmaq, cibinə nəşə atılmaq riskinə, Kürdəxanı təcridxanasına yaxınlaşmaq deməkdir.

Müxalifət partiyasının lideri seçilmək hakim partiyanın rəhbəri olmaqla eyni deyil, müxtəlif məşəqqətlərə qatlaşmaq deməkdir. Ona görə də bir qədər təmkinlə, soyuqqanlılıqla yarışmaq gərəkdir.

YENİ MÜSAVAT
N 191 (5900) 31 iyul 2014



# Qaçan dilənçi

Zamin HACI
zaminhaci@gmail.com

**Cənab prezidentin tapşırığı var, hər kəs idmanla məşğul olmalıdır. 2015-ci ildə Bakımızda 1-ci Avropa Oyunları keçiriləcəkdir. Bu münasibətlə hər kəsi təbrik edirəm, arzu edirəm xalqımız ancaq idmanla məşğul olsun. İdmandan sonra da ancaq çay içsinlər. Sağlam bədəndə sağlam ruh olur.**

Uzun sözün qısası, mən də idmanla məşğul oluram - vaxtım olanda qaçıram. Qarşımda duran əsas məqsəd ölkədən baş götürüb qaçmaq, sonra Avropada oturub burdakı əziz camaatımıza dəyərli məsləhətlər verməkdir. Zarafat edirəm, qorxmayın, sizi atıb hara gedirəm? Mənim sizsiz bir günüm olmasın. Adam gərək hər an öz xalqının doğma qoxusunu duysun, metroya minsin, beş qəpiyə görə üzünə durmağa hazırlaşan insanlarla həmrəy olsun. Yaşa, yaşa, Azərbaycan, qadir sovet əllərində! *(Sonuncu ayrı yazıdan idi, təsadüfən bura düşdü, siz də özünüzü elə aparın guya görməmisiniz)*.

Məqsədim haçansa marafon qaçmaqdır. Çünki bunun tarixindən çox xoşum gəlir. Təsəvvür elə, 42 kilometr qaçırsan, düşmənlər üzərində qələbəni camaata xəbər verib ölürsən. Çox romantik ideyadır. Özü də hazırkı Güney problemi baxımından, farslar üzərində qələbə söhbətinə görə mən marafon qaçışına böyük inamla yanaşıram. Görək nə olur.

İndi nəhayət keçim başıma gələn əhvalata, yoxsa əziz oxucular qaçıb gedəcəklər başqa cızmaqaraları oxumağa.

İki gün qabaq yaxınlıqdakı istirahət və mədəniyyət parkında qaçırdım. Burada yenə bir zəruri haşiyə çıxım və park haqda da uca, sevgili xalqıma məlumat yetirim. Həmin park cənab prezidentin 2012-ci il, 13 aprel, 1126 saylı sərəncamı ilə əsaslı surətdə təmir edilmişdir, hər bir nöqtəsinə daş əkilmişdir. Ümumən, biz dünyada yeganə dövlətik ki, hətta parkda skameykanı rəngləmək üçün də gərək ayrıca sərəncam olsun, yoxsa iş yerimir. Təkcə rəngləmək deyil, o cümlədən hansı skameykada kim oturmalıdır, semiçka qabığını hara atmalıyıq, yelləncək işlədənə hər yellənməyə görə neçə qəpik tarifi nəzərdə tutulur, ağacın dibində qızı öpərkən polis yaxınlaşsa "ASAN-xidmət"dən arayış lazımdırmı və sairə - bunlar hamısı üzrə müvafiq sərəncamda maddələr yazılır, xərclər Nazirlər Kabinetinə tapşırılır, Artur müəllim 3 ay ərzində bunların hamısını işləyir. Ancaq bizim parkda mədəniyyət hissəsinə nə aiddir, bunu mən hələ ayırd edə bilməmişəm. İstirahət var, buna söz yox. Bəs parkın adındakı "mədəniyyət" sözü nədir? Parkımızda mədəniyyət yoxdur. Nə üçün parkda sirk ustalarının, Bakı Şəhər İcra Hakimiyyətinin, səyyar musiqiçilərin konsertləri, saqqallı rəssamların sərgiləri nümayiş etdirilməsin? Söz əlaqədar təşkilatlarındır.

Hələ burda qalan səbirli oxucular varsa, onlara mövzunun ardını yazıram. Səhər vaxtı şirin-şirin qaçıram, özü də musiqi dinləyirəm, necə deyərlər, tam nirvana vəziyyətindəyəm. Onuncu kilometrin ortalarında *(inanmayan daşa dönsün)* bir də görürəm parkın gözəl, baş daşına oxşayan daşlarından birinin arxasından 40-50 yaşlarında, eynəkli, buna görə də ziyalıya və AYB üzvünə oxşayan bir şəxs çıxdı, başladı nəsə deyə-deyə, əliylə işarə edərək mənimlə yanaşı qaçmağa. Açığı, ilk anda elə bildim dəyərli oxucularımızdan biridir, avtoqraf istəyir, ona görə dedim, bağışla, bu saat qələm üstümdə yoxdur. Ancaq qardaş təkidlə qaçmağa davam edəndə qulaqcığı çıxartdım, dayanmadan soruşdum ki, nə istəyir. Cavab fantastik idi: "Bir manat ver də!" Sən demə, bu yoldaş, əlim də gəlmir o ziyalı görkəmə aid eləyim, dilənçi imiş! Həyatımda ilk dəfə idi qaça-qaça, idman eləyən adamdan pul istəyən şəxs görürdüm. Əhvalat o qədər xoşuma gəldi, dünyada analoqu olmayan bu hadisəyə görə Prezident Administrasiyasına, yaxından uzaqdan əziyyət çəkib bu yazını oxuyan hər kəsə minnətdaram!

Təəssüf ki, qaçanda adətən cibimdə pul olmur, o üzdən 1 manatı verə bilmədim. Buna görə isə özümü şiddətlə qınayıram.

# Söhbət İsraildən gedəndə...

**Qəzzada baş verənlər sanki Azərbaycan cəmiyyətini maraqlandırmır. Minlərlə dinc insanın qətlə yetirilməsinə Azərbaycan cəmiyyəti ifrat laqeydlik nümayiş etdirir. Düzdür, Azərbaycanın özünün problemləri kifayət qədərdir. Acınacaqlı vəziyyətdə yaşayan ölkəmizin yadına Fələstin düşməyə bilər. Lakin ölkəmizdə insan haqlarının pozulması, demokratik adacıqların sıradan çıxardılması İsrailin Qəzzadakı qətliamlarını da unutdura bilməz.**

Azər RƏŞİDOĞLU



Minlərlə fələstinlinin, o cümlədən yüzlərlə uşaq və qadının qətlinə Azərbaycan ictimaiyyətinin bu qədər laqeyd yanaşması anlaşılan deyil. Bir neçə günün ərzində on minə yaxın dinc fələstinlinin ağır xəsarət alması sıradan bir hadisə deyil. Qətlə yetirilənlər müsəlman olanda, Azərbaycan siyasətçiləri susmağa üstünlük verir.

Azərbaycanda heç bir siyasi, ictimai təşkilatın Qəzza hadisələrinə yetərincə reaksiya verməməsi yalnız dini məsələ ilə də bağlı deyil. Səbəb odur ki, Fələstin Azərbaycan siyasətçilərinin maraq dairəsinə daxil olan ölkə deyil. Artıq "ərəb baharı" dəbdən düşüb, odur ki, dinc ərəblərin yəhudilər tərəfindən qətlə məruz qalması da olduqca az adamı maraqlandırır.

Düzdür, Azərbaycan müxalifətinin problemləri həddən ziyadə böyükdür. İrimiqyaslı təzyiqlər və az qala kütləvi həbslər fonunda öz problemlərini unudub, bölgə xalqı üçün göz yaşı axıtmaq o qədər də səmimi olmazdı.

Lakin burada söhbət öz problemlərinin çoxluğundan deyil, İsrail qarşısında aciz qalmaqdan gedir. Söhbət İsraildən gedəndə Azərbaycan siyasətçiləri lal-dinməz rolunu oynamağa başlayırlar.

Müxalifət bunu nisbətən gizli şəkildə həyata keçirirsə, bu məsələdə iqtidar özünü birmənalı şəkildə İsrailin dostu kimi aparır.

Bir fakta diqqət yetirək. İsrail Qəzzada dinc sakinləri qırdığı günlərdə Azərbaycan hakimiyyəti Qəbələdə İsrail Balet Qrupunun konsertini təşkil etmişdi, yəhudilərlə tarixi dostluqdan danışırdı. Əslində bu, türkürpədici bir faktdır.

Bu baxımdan, müxalifət İsrailin Qəzzada törətdiyi hərbi və insanlığa qarşı cinayətləri bir kəlmə "pisləyirəm" deməklə ittiham edə bildi. Lakin dərhal da "... bir qədər əvvəl İsrailə də HƏMAS tərəfindən raket hücumları olmuşdu, bu addımı da pisləyirəm" əlavəsini elədi.

İsrailin Qəzzada törətdiyi işğalçılıqdır və dinc əhalinin qırılması cinayətdir. Yarandığı 63 il ərzində İsrail qonşularının hamısına problem yaradıb, dinc insanları qətlə yetirib. İsrail beynəlxalq öhdəliklərə məhəl belə qoymadan, Fələstin dövlətinin yaradılmasının qarşısını alır. Bunları açıq şəkildə söyləməyə Azərbaycan siyasətçilərinin qətiyyəti çatmır.

Rəsmi Bakının İsrail qarşısında sakitliyi qaçılmazdır.

Azərbaycan hakimiyyətinin son prezident seçkilərini İsrail siyasi texnoloqlarının yardımı ilə keçirtdiyi barədə mətbuat çox yazıb.

Azərbaycan hakimiyyətinin İsraillə münasibətlərinin normallaşdırılması, hərbi-texniki və təhlükəsizlik sahələrində iki ölkənin əməkdaşlığı, ABŞ yəhudi lobbisinin rəsmi Bakının maraqlarının müdafiəsində fəal iştirakı rəsmi Bakını Qəzza məsələsində israilpərəst mövqe tutmağa vadar edir.

Müxalifət isə İsraildən demək olar ki, heç bir maddi və mənəvi yardım almır. Belə olan təqdirdə, iqtidar opponentlərinin müəyyən hissəsinin yəhudi maraqlarının müdafiəçisi kimi çıxış etmələri də anlaşılan deyil.

Bu gün Azərbaycanda "qüdrətli yəhudi şəbəkəsi" adlı bir mif hökm sürür. Əksər hallarda, bu kimi məlumatlar həddən ziyadə şişirdilmiş olur.

Azərbaycan unikal ölkədir. Burada siyasətə yaxın simalar özlərini "İsrail kəşfiyyatı"nın xəfiyyəsi kimi təqdim etməklə fəxr edirlər. Əslində onlara İsrail kəşfiyyatçıları heç salam da verməzlər. Sadəcə, İsrailə işləmək kimlər üçünsə fəxr sayılır. Odur ki, özlərini belə bir simada təqdim etməklə siyasi çəkilərini artırmaq istəyirlər.

Normal, özünə hörmət edən cəmiyyətlərdə çuğulçuluq təqdir edilmir. Azərbaycanda isə çuğulçu olmağı kimlərsə özlərinə şərəf bilir...

# 5 Latın Amerikası ölkəsi İsraildən səfirlərini geri çağırdı

## Misirdə danışıqların davam etdiyi vaxtda İsrail "yanlışlıqla" daha bir BMT məktəbini vurdu, HƏMAS ikinci cəbhə açılması üçün "Hizbullah"a müraciət etdi...

**İsrailin Qəzza zolağını bombalaması davam edir. İyulun 7-dən başlayan hücumlar nəticəsində 1200-dən çox fələstinli həyatını itirib, 6500 nəfərdən artıq insan yaralanıb. İsrail isə HƏMAS-ın cavab zərbələri nəticəsində 2 dinc sakini və 53 hərbçini itirdiyini bəyan edib.**



Qeyd edək ki, ötən gün İsrailin atdığı bombalar Qəzzada BMT-yə məxsus orta məktəbə düşüb. Nəticədə məktəbə sığınmış 15 nəfər ölüb. Ötən gün həmçinin İsrail Hərbi Hava Qüvvələri Qəzzanın qərbindəki Şati qaçqın düşərgəsində yerləşən "əl-Suveysi" məscidini bombalayıb. İslam.az saytının məlumatına görə, məscidə 3 raket düşüb. Nəticədə ibadətgah yerlə-yeksan olub, ətrafdakı evlərə xeyli ziyan dəyib. Ümumilikdə Qəzzada 74 məscid vurulub. Onlardan 20-si tamamilə dağıdılıb.

BMT Qəzzanın Cəbaliyə məntəqəsindəki orta məktəbin vurulmasını "utancverici" hadisə adlandırıb. BMT-nin Qaçqınlara Yardım Qurumunun yerli ofisinin direktoru Bob Törner bildirib ki, orta məktəb tank atəşi ilə vurulub. BMT yetkilisi tərəfləri mülki binaları vurmamağa çağırıb.

Qeyd edək ki, artıq iki gündür ki, HƏMAS və "İslami Cihad" qruplaşmalarının nümayəndələri Misirdə İsrail tərəfinin nümayəndələri ilə danışıqlar aparır. Ancaq HƏMAS-ın hərtərəfli sülh müqaviləsi tələbi sülh danışıqlarını pozub. Qəzza hakimiyyəti müvəqqəti atəşkəs deyil, köklü sülh müqaviləsi imzalanmasını təklif edir. Beynəlxalq səviyyədə atəşkəs çağırışlarına baxmayaraq hər iki tərəf müvəqqəti atəşkəsə razı deyil. HƏMAS-ın hərbi qanadının rəhbəri Məhəmməd Deif bildirib ki, Qəzzaya qarşı tətbiq olunan embarqo ləğv olunana qədər atəşkəs olmayacaq.

Xatırladaq ki, Qəzza zolağının blokadası 2007-ci ildə HƏMAS Qəzzada hakimiyyətə gəldikdən sonra Misir və İsrail tərəfindən tətbiq olunur. 2006-cı il seçkilərində mandat yerlərinin çoxunu qazanan HƏMAS hərəkatının hökumət qurması baş tutmayıb və Ramallahda yerləşən Fələstin administrasiyası ilə hökumət qurulmasında anlaşa bilməyib. Bundan sonra HƏMAS-ın yaratdığı yeni hökumətlə Ramallah arasında anlaşılmazlıq 2007-ci ildə HƏMAS-ın Qəzzanı ələ keçirməsi ilə daha da böyüyüb. Nəticədə Fələstində iki hökumət formalaşıb: Qəzzada HƏMAS, Ramallahda isə Fəth hökuməti. Bundan sonra İsrail və Mübarəkin Misir hökuməti Qəzzaya gedən quru yollarını bağlayıb və bölgə blokada vəziyyətinə düşüb. HƏMAS-ın Misirə keçmək üçün qurduğu tunellər isə zaman-zaman vurularaq dağıdılıb. Ancaq buna baxmayaraq, ötən 7 ildə tunellər Qəzza üçün əsas keçid vasitəsi olaraq qalıb.

Bu arada məlum olub ki, 5 Latın Amerikası ölkəsi - Çili, Peru, Salvador, o cümlədən bir neçə gün əvvəl Braziliya və Ekvador hökumətləri İsraildəki səfirlərini geri çağırmaq haqqında qərar verib. Bundan başqa, Venesuela prezidenti Nikolas Maduro bir qədər əvvəl İsraili Qəzzaya hücuma görə sərt tənqid edərək, onu qatil dövlət adlandırıb.

Qəzzada atəşin dayandırılması müzakirələri ilə bağlı Misir paytaxtı Qahirədə olan HƏMAS Siyasi Bürosunun üzvü Musa Əbu Mərzuk sensasion açıqlama ilə çıxış edib. Deyerler.org saytının məlumatına görə, o, Livanın "Hizbullah" hərəkatına müraciət edərək onu sionist rejimin şimal sərhədlərindən İsrail rejiminə qarşı hərbi əməliyyatlara başlamağa çağırıb. "Biz ümid edirik ki, "Hizbullah" fələstinlilərə yardım etmək üçün İsrail rejiminə qarşı ikinci cəbhəni açacaq", - deyə Əbu Mərzuk açıqlamasında bildirib.

Xatırladaq ki, ötən həftə "Hizbullah" baş katibi Seyyid Həsən Nəsrullah Fələstin müqavimət təşkilatlarının rəhbərləri, o cümlədən HƏMAS rəhbəri ilə əlaqə saxlayaraq müqavimətə dəstək verdiklərini və işğalçı rejimə qarşı hər cür əməkdaşlığa hazır olduğunu bəyan etmişdi.

❑ KƏNAN

**ABŞ başda olmaqla, Qərb dövlətləri Ukrayna böhranını siyasi-diplomatik vasitələrlə çözmək səylərini davam etdirir. Rusiya ilə birbaşa hərbi münaqişəyə girməyin böyük fəsadlar verə biləcəyini ciddiyə alan demokratik dünya - hərb yeganə müstəvidir ki, Rusiya özünü orada yaxşı hiss edir - iqtisadi sanksiyalarla, bu sanksiyaları tədricən sərtləşdirməklə hədəfinə çatmağa ümidlidir.**



# ABŞ Krımın işğalı ilə barışmayacaq, bəs Qarabağın?

## Bir daha Qərbin ikili standartı haqda; nə fərqi oldu: Rusiya da beynəlxalq hüquqa, BMT nizamnaməsinə laqeyddir, demokratiya paytaxtları da...

Ukraynaya bu boyda diqqətin olması bir neçə səbəblə izah edilir. Onlar haqda kifayət qədər yazılıb. Qısaca bunu qeyd edək ki, Qərb-Rusiya geosiyasi rəqabətində Ukrayna - "qırmızı xətt", "ön cəbhə", həlledici bir həlqədir, nəinki MDB-nin və Avrasiya İttifaqı və GUAM layihələrinin, bütövlükdə postsovet məkanının inkişaf vektorları baxımından taleyini həll edəcək bir ölkədir.

Bu mübarizə və israr eyni zamanda beynəlxalq hüququn hamı üçün eyni olduğunu, onu qaba şəkildə tapdamağın ağır siyasi-diplomatik, iqtisadi-maliyyə sonuclarına gətirəcəyini Rusiyaya da sübut eləmək üçün aparılan savaşdır. Təsadüfi deyil ki, Qərb siyasiləri və yetkililəri Şərqi Ukrayna məsələsi ilə yanaşı, vaxtaşırı şəkildə Krım mövzusunu da diqqətə gətirir, Rusiyanın məqsədli şəkildə unutdurmaq istədiyi problemi dönə-dönə onun yadına salmaqla anladırlar ki, Moskva ilhaqı asanca həzm edə bilməyəcək.

Növbəti bənzər açıqlama ABŞ-ın Rusiyadakı yeni səfir postuna namizədi Con Teftdən gəlib. İyulun 29-da ABŞ Senatının xarici əlaqələr komitəsindəki dinləmələrdə çıxışı zamanı diplomat bildirib ki, Amerika Krımın zəbt olunmasını heç vaxt qəbul etməyəcək. Onun sözlərinə görə, Birləşmiş Ştatlar Ukrayna böhranı ilə Rusiyanın beynəlxalq düzəndə yaratdığı fundamental problemləri rədd edə bilməz.

Çox gözəl. Birbaşa Azərbaycana dəxli olan mövqedir. Amma məsələdə incə bir nüans var. Bu da ondan ibarətdir ki, Ukrayna böhranını, beynəlxalq hüququn və beynəlxalq münasibətlər sisteminin böhranını müstəsna olaraq Krımın ilhaqından başladığını iddia edən və doğru da iddia edən Qərb - ABŞ və Avropa nədənsə Rusiya kimi özü də ikili standartlardan qurtula bilmir. Yoxsa Krımın, Cənubi Osetiya və Abxaziyanın zəbt edilməsi ilə heç vaxt barışmayacağını bəyan edən, bundan ötrü Putinə qarşı koalisiyalar quran demokratiya paytaxtları heç olmasa bircə dəfə "Biz Azərbaycanın ayrılmaz parçası olan Dağlıq Qarabağın işğalı ilə də barışmayacağıq" deyərdilər.

Amma demirlər, əksinə, illərdir bir ovuc separatçının halına yanır, Krıma dərhal sanksiyalar tətbiq elədikləri halda, Qarabağ terrorçularına maliyyə-siyasi dəstək verir, daha betəri, ermənilərin öz müqəddəratını təyinetmə haqqından, referendumdan dəm vururlar, bunu hətta yeni həll modelinə ayrıca bənd kimi salmağa çalışırlar.

Görəsən, niyə? Məgər hər üç halda beynəlxalq hüquq, BMT nizamnaməsi kobud şəkildə pozulmayıb? Bəyam Ukrayna, Moldova və Gürcüstan kimi Azərbaycan da BMT-yə keçmiş SSRİ tərkibindəki inzibati sərhədləri ilə daxil olmayıb, həmin sərhədlərlə tanınmayıb? Əlbəttə ki, məhz bu cür tanınıb. O zaman nə fərqi oldu - Rusiya da beynəlxalq hüquqa, BMT nizamnaməsinə tüpürür, Qərb də...

Söz yox, ortada Azərbaycanın demokratik ölkə olmaması reallığı var. Ancaq məgər Ermənistan hüquqi-demokratik dövlətdir ki? Deyil. Bəlkə zaman-zaman vurğuladığımız kimi, xristian amilidir Qərb dünyasını Qarabağın işğalını görməyə mane olan? Bişəkk o da var.

Səbəblər hər nədisə, bir şey artıq dəqiqdir: bu, təkcə Azərbaycandakı hakimiyyətin mahiyyəti ilə ilgili deyil. Belə görünür, hakimiyyətlərdən asılı olmayan, qalıcı amillər də var ki, yenə də iqtidarda kimin olmasından asılı olmayaraq, ilk öncə rəsmi Bakı onları neytrallaşdırmaq barədə düşünməlidir. Özü də ciddi şəkildə və vaxt itirmədən. Nədən ki, müasir zəmanəmizdə haqlı olmaq yetərli deyil. Gərəkdi ki, bunu həm də sübut etməyi bacarasan. Çətindir, amma mümkündür..

❑ **Siyasət şöbəsi**

# "Nyu-York Tayms"dan Avropa ölkələrinə ittiham dolu yazı

**"Avropa ölkələrinin hökumətləri girovlara görə milyonlarla dollar pul ödəməklə, silahlı islamçı qrupların maliyyə mənbəyinə çevrilir".**

The New York Times

APA-nın verdiyi məlumata görə, bu sözlər "New-York Times" qəzetinin yazarı Rukmini Kallimaçinin məqaləsində yer alıb.

Onun apardığı araşdırmaya görə, girovlar vasitəsilə ən çox kapital toplayan silahlı qruplaşmalardan biri olan "əl-Qaidə"dir və bu qruplaşma "mübadilə" əməliyyatlarını Şimali Afrika ölkələrində gerçəkləşdirir. Müəllif qeyd edir ki, silahlı qrupların girovlara görə Avropa hökumətləri ilə dialoqa girməsi elə də çətin olmur: "Avropalıların oğurlanması "əl-Qaidə" üçün qlobal biznesə çevrilib. Bu qruplaşma 2008-ci ildən bu yana girov biznesindən 125 milyon dollardan çox gəlir əldə edib ki, bu məbləğin 66 milyonu 2013-cü ildə əldə olunub".

**Məqalədə qeyd olunur ki, silahlı qruplaşmalar əsasən diplomatları, jurnalistləri və yaxud qərargahı Avropada yerləşən beynəlxalq təşkilatların nümayəndələrini girov götürür:** "Girovları öldürmək təhdidi olsa da, bu təhdidlər çox az hallarda icra olunur. Adətən bir girovun geri qaytarılması 5 ilə qədər vaxt aparır. Avropa dövlətləri nadir hallarda danışıqlardan imtina edirlər. ABŞ və Böyük Britaniya terrorçularla danışığa ən az meyl edən dövlətlərdən hesab olunur".

**Almaniyaya gəldikdə isə müəllif qeyd edir ki, bu ölkə 2003-cü ildə 32 nəfər girovun qaytarılması üçün maliyyə yardımı adı ilə büdcədən 5 milyon dollar çıxarıb:** "Avropalıların cavab verməli olacağı çoxlu sual var. Onlar terrorçulara pul ödəyirlər, amma bunu etiraf etmirlər. Bu, təkcə terrorçuları maliyyələşdirmir, həm də avropalıların ilk fürsətdə oğurlanması üçün zəmin yaradır".

# Üzü günəşə doğru...



**Hüseynbala SƏLİMOV**

**Bəli, bir səhər Günəş bu ölkəyə boylanar. İnsanlar üzü Günəşə doğru gedərlər... O vaxt mən də onlara qoşularam. İndi isə tək gəzib-dolanıram, heç kimə qoşulmuram. Ona görə ki, hamı Günəşə arxa çevirib... Günəşə arxa çevirəndə isə adam İşığı görmür, Günəşə arxa çevirəndə adamın əl-ayağına kölgələr dolaşır.**

Kölgələr yalnız iki halda, bir gün orta olanda və bir də üzü Günəşə dayananda yox olur...

Gəlin üzü Günəşə doğru dayanaq. Və mən bir nağıl başlayım. Xoşbəxt sonluqlu bir nağıl. Elə bir nağıl ki, bu ölkə haqqında olsun. Elə bir nağıl ki, bu ölkənin adamları haqqında olsun. Və elə bir nağıl ki, Günəş haqqında olsun...

Amma mən bu yazını da Siyasətdən başlamaq istəyirdim. Gərəkdir ki, bunu da etiraf edim. Amma nə yazıqlar ki, Siyasətdə İşıq qalmayıb. Ona görə də onun adını kiçik hərflə başlamaq zorundayam...

Özü də baxıram, zülmət tək bizim siyasətdə deyil. Elə başqa yerlər də belədir. Bu yaxınlarda Eduard Şevardnadze vəfat etdi. Hətta mən də təsirli bir yazı ilə bu hadisəni diqqətə çəkmək istədim.

Ona görə ki, E.Şevardnadze də bir ömürdə bir neçə siyasətçi həyatı yaşamışdı. Onlardan ən azı biri təqdirəlayiq idi. Gürcüstanda hakimiyyətdə olan və olmayan siyasətçilər də ona böyük ehtiram göstərdilər. Elə düz də elədilər...

Amma indi nə edirlər? M.Saakaşvilini istintaqa çağırırlar. Təbii ki, bu adam mələk deyil. Amma, bağışlayın, heç Şevardnadze də mələk deyildi. O şeyi ki, M.Saakaşvili etdi, onu E.Şevardnadze bacarmamışdı - M.Saakaşvili seçkidə uduzduğunu etiraf etmək üçün özündə güc tapdı və etdi də. Bu, Qafqazda ilk hadisə idi.

O vaxt, Gürcüstandakı proseslərin ilkin çağında yazmışdım (özü də bir neçə dəfə!) ki, hakimiyyəti elə alın ki, onu verən peşman olmasın. Amma belə olmur. Səbəbi də bəlkə budur ki, demokratiyalar zamanı hakimiyyətə siyasi qalmaqallarla, necə deyərlər, hay-küylə gəlirlər. Bir müddət, ən azı ətalət üzrə bu vəziyyət davam etməlidir. Bunu başa düşürük. Amma həmişə siyasəti rəqibin ifşası üzərində qurmaq olmaz.

Yeni hakimiyyətlər özləri heç nə edə bilməyəndə belə bir mif yaradırlar ki, guya əvvəlki hakimiyyət hər şeyi tamam alt-üst edib, hər şeyi dağıdıb və bütün bunları bərpa etmək üçün nəinki bir prezidentlik müddəti, heç ikisi də bəs etmir.

Amma belədirmi? Əlbəttə ki, yox. Axı Gürcüstan çox da uzaq deyil və hamımız bilirik ki, M.Saakaşvili çox iş gördü. İndi bunların hamısını danmaq olarmı? O vaxt deyirdilər ki, E.Şevardnadzenin hakimiyyəti Tiflisdən o yana keçmir. Həqiqətən də belə idi. M. Saakaşvili bu sərhədləri xeyli genişləndirdi, Gürcüstanın Acarıstandakı suverenliyini bərpa etdi. Ölkədə əsl qayda-qanun yaratdı. Bunları danmaq olarmı?

Elə Azərbaycanda da hələ də eyni tendensiya davam edir. Yeni Azərbaycan Partiyası 21 ildir ki, hakimiyyətdədir. Amma 21 ildir ki, AXC hakimiyyətini bir ildə törətdiyi dırnaqarası cinayətlərə görə ittiham edir. Axı bir ildə nəyi dağıtmaq, nəyi uçurtmaq olar ki, onu 21 ildə bərpa etmək mümkün olmasın?

Bəs Gürcüstandakı hakimiyyətin M.Saakaşviliyə bu qədər "diqqət" ayırmasının səbəbi nədir? Çox sadədi. Heç nə edə bilmirlər. B.İvanişvili hakimiyyətə gəlişi ərəfəsində nələri vəd etməmişdi?

İnsanlar hələ də Gürcüstanda sovet dövründən qalma zavodların işə düşməsini gözləyir. Amma B.İvanişvili öz vədlərindən yalnız birinə əməl etdi- hakimiyyətdən getdi, Gürcüstan elektoratına yeni prezident seçməyə mane olmadı...

Amma yeni prezident nəsə etməlidir. Etməlidir, amma edə bilmir. Əslində bu və ya başqa şəkildə M.Saakaşvilinin siyasi kursu davam etdirilir. Amma indi məlum olur ki, M.Saakaşvili Qərb haqqında nə demişdisə hamısı şişirtmə idi, amma o, Rusiya haqında nə demişdisə o, doğru çıxdı. İndiki hakimiyyətin də rastlaşdığı ən böyük həqiqət və problem də elə budur- M.Saakaşvilinin Rusiya haqda dedikləri doğru idi.

Bəli, prezident G.Margelaşvili də özündə güc tapıb bunu etiraf etməli və eks-prezidentdən, M.Saakaşvilidən əl şəkməlidir. Ən azı ona görə ki, o, bir, hətta iki prezidentlik müddətində siyasətini M.Saakaşvilinin "ifşası" üzərində qura bilməyəcək - insanlar başqa şey də eşitmək istəyir...

**Azpolitika.info saytı Azərbaycanda 1996-cı ildən başlayaraq həyata keçirilən özəlləşdirmə prosesində baş verən fırıldaqlar, cinayətlərlə bağlı araşdırmalar aparıb. Bu məqalələrdə Azərbaycanda əmlak talanının hansı mexanizmlərlə, necə və kimlərin vasitəsilə reallaşdırıldığı ümumi çəkildə açıqlanıb. Ancaq ötən illərdə Əmlak Məsələləri Dövlət Komitəsində söz sahibi olan şəxslərin, o cümlədən indiki rəhbərliyin bu prosesə necə qatılmaları, aşkar və gizli olaraq nələri ələ keçirmələri, hansı qanunsuzluqlarda, hətta cinayətlərdə iştirak etmələri detallı olaraq açıqlanmayıb.**

# Azərbaycanın “əmlak kralı” ilə bağlı şok dosye

## Kərəm Həsənovla bağlı sensasion məlumatlar yayıldı; komitə sədrinin heyrətamiz talançılığı

Sayt bunlarla bağlı sözün həqiqi mənasında sensasiyalı məlumatlar, faktlar əldə edib. Bizə təqdim olunan materiallarda Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) rəhbərliyinə gəlmiş-getmiş demək olar ki, bütün şəxslərin bu illər ərzində hansı qanunsuzluqlarda, cinayətlərdə iştirak etdiyi, nələrə sahib olduğu və sairlə bağlı geniş dosyelər var. Bundan əlavə, ƏMDK-da, onun tabeliyində olan Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin istər Bakı Şəhər Ərazi İdarəsində, istərsə də digər rayon və şəhər ərazi idarələrindəki qanunsuzluq, korrupsiya, rüşvətxorluq faktlarına dair geniş məlumatlar təqdim edilib. Bu materialları sayt hissə-hissə dərc edir. Ümid edirik ki, aidiyyəti qurumlar bu faktları araşdıraraq hüquqi qiymət verəcək.

**10 milyonlarla manat rüşvət yığılan qurumda 6 ayda 2 korrupsiya faktı aşkarlanıb...**

Mətləbə keçməzdən öncə qeyd edək ki, Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi tərəfindən verilən məlumata görə, 2014-cü ilin birinci yarımilliyində ƏMDK-nın strukturlarındakı korrupsiya və rüşvətxorluq faktına görə cəmi 2 cinayət işi açılıb. Ancaq yerlərdən gələn məlumatlar göstərir ki, ƏMDK-nın strukturlarında, xüsusən Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətində və onun ərazi idarələriində baş verən korrupsiya, rüşvətxorluq hallarının sayı-hesabı yoxdur. Mətbuatda, televiziyada bununla bağlı demək olar ki, hər gün vətəndaşların şikayətlərinə rast gəlinir. Hətta son illər Əmlak Komitəsindəki korrupsiya və qanunsuzluqlar beynəlxalq təşkilatların hesabatlarına belə düşməyə başlayıb. Bu çür geniş miqyaslı qanunsuzluqların baş verməsi təbii ki, ƏMDK-nın rəhbərliyinin, o cümlədən sədr Kərəm Həsənovun, müavinləri Rafiq Cəlilovun və Rüstəm Şahbazovun da fəaliyyətini diqqət mərkəzinə gətirir. Onların ƏMDK-nın strukturlarına, o cümlədən Rafiq Cəlilovun birbaşa nəzarətində olan Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin ərazi idarələrində yığılan milyonlarla manat rüşvətdən xəbərləri yoxdurmu? İnandırıcı deyil...

Hər halda, son illər Kərəm Həsənovun ölkənin ən güclü oliqarxlarından birinə çevrilməsinin, adının baş nazirliyə iddialılar sırasında çəkilməsinin arxasında məhz onun rəhbərlik etdiyi qurumun tabeliyindəki idarələrdə hər ay müxtəlif qanunsuz yollarla yığılan 10 milyonlarla manat “çirkli pulların” böyük rolu olduğuna dair iddialar mövcuddur. Ancaq Kərəm Həsənovun, necə deyərlər, gününü ancaq Əmlakdan gələn pulları saymaq, “yerləşdirməklə” keçirdiyini iddia etmək də mümkün deyil. Belə ki, bu gün Kərəm Həsənovun çoxsaylı zavodlara, şirkətlərə, obyektlərə, tikinti firmalarına, 1000 hektarlarla kənd təsərrüfatı məhsulları istehsal edən ərazilərə və sair malik olduğu bildirilir. Onun adı həmçinin ölkədə, xüsusən paytaxtda aparılan söküntü-tikinti işlərində xərclənən 100 milyonlara nəzarət edən şəxslərdən biri kimi çəkilir. Bəs hazirda 46 yaşı olan, 32 yaşından özəlləşdirmə prosesinə nəzarət edən Kərəm Həsənov bu imkanları necə əldə edib?

**Qardaşı Rafiq Fərhad Əliyevdən Kərəm Həsənova vəzifə verməyi xahiş edir**

Beləliklə, Kərəm Həsənovun şəxsi dosyesindən başlayırıq... *(Qeyd edək ki, bu material Kərəm Həsənovu çox yaxından tanıyan birinin dilindən nəql olunub...)*

Kərəm Həsənov 1992-ci ildən xarici təşkilatların tələbi və məsləhəti ilə bütün keçmiş SSRİ respublikalarında yaradılmış formal bir qurum olan Anti-inhisar Komitəsində sıradan bir məsləhətçi işləyirdi. 90-cı illərin sonlarında o, sabiq iqtisadi inkişaf nazri Fərhad Əliyevin qardaşı, “Azpetrol” Şirkətinin rəhbəri Rafiq Əliyevlə tanış olur. Kərəm Həsənovun odlu-alovlu çıxışları Rafiq Əliyevin xoşuna gəlir.

K.Həsənov vaxtaşırı uzun illərdir işlədiyi komitədəki əmək haqqının azlığından, Yasamalda kirayədə yaşamasından, rayondan yardım olmasa dolanışığının çətinliyindən R.Əliyevə gileylənərək, əlverişli variant olsa həmyerli kimi onun da nəzərə alınmasını xahiş edirdi. Fərhad Əliyev dövlət əmlak naziri təyin olunduqdan sonra R.Əliyev qardaşından K.Həsənovu məsul bir vəzifəyə təyin etməyi xahiş edir.

Qardaşının sözünü eşidən F.Əliyev K.Həsənovu qəbul edir. Onu başdan-ayağa süzdükdən sonra ilk tapşırığını verir: **“Əynindəki nimdaş pal-paltarını dəyiş, məmura yaraşan tərzdə geyin...”**

**Kərəm Həsənov “barmaq gətirmək” üçün göndərilən yerdən “qol gətirir”**

Fərhad Əliyev bu görüşdən sonra Kərəm Həsənovu sınaq müddətinə departament direktorunun müavini təyin etdi. Həmin müddətdə “barmaq gətirmək” üçün göndərdiyi yerdən Kərəm Həsənovun “qol gətirdiyini” müşahidə edən Fərhad Əliyev qardaşının zamin durduğu bu gəncdə qeyri-adi “istedad” olduğunu görür. Kərəm Həsənovla bağlı qardaşının səhv etmədiyini, onun karyera xatirinə istənilən addımı atmağa hazır bir şəxs olduğunu başa düşür. Lakin Kərəm Həsənovdakı bu “keyfiyyətin” sonradan onun özünə qarşı da çevrilə biləcəyini nəzərə almır...

Sınaq müddəti başa çatdıqdan sonra Fərhad Əliyev Kərəm Həsənovu Orta və İri Müəssisələrin Özəlləşdirilməsinin Təşkili Departamentinin direktoru təyin edir. Respublikada ən məsuliyyətli sahələrdən birinin etibar edildiyi vaxtda belə bir şəxs F.Əliyev üçün çox lazım idi. O, F.Əliyevin ona olan inamından, etimadından istifadə edib digər həmyerliləri - Anti-inhisar Komitəsində işləyən Rüstəm Şahbazovu özünə müavin təyin etdirir və beləliklə, “Cəlilabad triosu” yaranır...

**Kərəm Həsənov özəlləşdirmədə “haqq” yığılması mexanizmini işə salır**

K.Həsənov özəlləşdirməyə açıq elan olunmuş, lakin hələ özəlləşdirilməmiş Bakı, Sumqayıt, Gəncə şəhərində yerləşən müəssisələrdən aylıq, əvvəlki baş idarəsi ləğv olunmuş komitənin tabeliyində olan müəssisələrdən, müştərək müəssisələrdən, səhmlərinin 30 % -i və ya daha çox hissəsi özəlləşdirilməmiş ASC-lərdən, həmçinin səhmlərinin müəyyən hissəsi özəlləşdirilmiş, lakin səhm sahibi naməlum olan ASC-lərdən rüblük “haqq” yığılması mexanizmini işə salır.

Nəzərə alsaq ki, həmin vaxt respublikada 1000-dən çox ASC, bundan xeyli çox özəlləşdirilməmiş, ancaq komitənin tabeliyinə verilən dövlət idarə və müəssisəsi fəaliyyət göstərirdi, toplanan pulun miqdarını təsəvvür etmək çətin olmaz.



I Dövlət Proqramı çərçivəsində səhmlərinin müəyyən hissəsi özəlləşdirilmiş ASC idarə heyəti sədrlərindən, səhmdarların birinci ümumi yığıncağına qədər sədr təyin olunmuş əvvəlki müəssisə rəhbərlərindən istənilən təsərrüfat fəaliyyəti ilə bağlı komitə ilə razılaşmaları tələb olundu. K.Həsənov hər şeydən, qarşılaşdığı bütün imkanlardan yararlanmaq istəyirdi. Tutduğu vəzifəyə görə buna nail də olurdu. Heç nəyi geri qaytarmırdı. Hətta bir müəssisə rəhbərinin taksidən onun xidməti maşınına ev şəraitində hazırlanmış meyvə mürəbbələri qoyduğunu da əməkdaşlar görmüşdü...

**İxtisaslaşdırılmış çek hərraclarından qazanc götürməyin də yolunu tapır**

Yalnız bir sahədə - ixtisaslaşdırılmış çek hərraclarından əvvəllər təcrübəsiz olduğundan pay götürə bilmirdi. Lakin sonradan burdan da qazanmağın çarəsini tapdı. Dostu Rüstəm Şahbazovla birləşib, Fərhad Əliyevdən xəlvəti bəzi ASC-lərə tələbə yoldaşlarının, dostlarının, qohumlarının, yaxınlarının adına müəyyən qədər çek qoyaraq həmin müəssisələrin 3-5 % səhmlərini ələ keçirirdilər. Sonradan isə həmin səhmləri böyük məbləğə özlərinin saxta yolla qalib elan etdikləri nəzarət səhm sahibinə sataraq külli miqdarda qazanc götürürdülər. Təbii ki, bu qazancdan Fərhad Əliyevin xəbəri olmadığından cəmi 2 yerə bölürdülər.

K.Həsənovun özündən vəzifəcə böyüklərlə müti, vəzifəcə aşağılarla əzazil, qaba, etikasız tərzdə danışığı, davranış və hərəkətləri tabeliyindəki əməkdaşları onunla təmasdan çəkindirirdi. Bir dəfə səfərdən qayıdarkən onun xidməti nəqliyyat vasitəsini sürət məhdudiyyətini keçdiyi üçün Qaradağ postunda saxladığına görə YPX-nin əməkdaşını təhqir etməsi əhvalatını eşitməyən yox idi.

Hətta nazirliyin Ağdaş rayon şöbəsinin rəisi Sadiq Yunusovla kabinetdə əlbəyaxa olduğu xəbəri də bütün nazirliyə yayılmışdı. Lakin şöbə rəisi respublikanın məşhur xalq şairinin yaxın qohumu olduğu üçün onu vəzifədən azad etməyə gücü çatmadı...

Əməkdaşlar ilk gündən bu cavan oğlanın istər gənclərə, istərsə də yaşlılara yuxarıdan aşağı baxdığını, sanki özünü DƏN-də birinci şəxs hesab etdiyini müşahidə edirdilər. O özü də müəyyən səbəblərdən adını açıqlamaq istəmədiyimiz, Qərb bölgəsi rayon şöbələrindən birinin rəisi ilə söhbət zamanı yaxın zamanlarda bu binaya özünün rəhbərlik edəcəyini bildirmişdi. Və həqiqətən istəyinə nail oldu...

**Fərhad Əliyev Kərəm Həsənovu, o da dostlarını özəlləşdirmənin başına keçirir**

K.Həsənovun canfəşanlığı və fədakarlığı Fərhad Əliyev tərəfindən qiymətləndirildi. Onun təqdimatı ilə 2000-ci ildə K.Həsənov dövlət əmlakı nazirinin müavini vəzifəsinə təyin olundu.

2001-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə İqtisadi İnkişaf Nazirliyi yaradıldı. Yeni strukturda Dövlət Əmlakının Özəlləşdirilməsi Departamenti ayrıca bir komitə səlahiyyətli qurum oldu.

F.Əliyevin təqdimatı ilə onun etibarlı adamı hesab etdiyi K.Həsənov da bu departamentin direktoru təyin olundu. ƏMDK sədrinin hazırki müavinləri Rüstəm Şahbazov departamentin Orta və İri Müəssisələrin Özəlləşdirilməsi İdarəsinin rəisi, Rafiq Cəlilov isə Yarımçıq Tikililərin Özəlləşdirilməsi şöbəsinin rəisi təyin olundular.

**Fərhad Əliyevə Rafiq Cəlilovun da namizədliyini qardaşı Rafiq Əliyev vermişdi...**

İqtisadi inkişaf naziri işlədiyi dövrlərdə F.Əliyev həm nazirliyin əsasnaməsinə, həm də öz şəxsi marağına uyğun olaraq, respublikada inhisarçılığa qarşı fəal mübarizə aparırdı. Bu mübarizədə F.Əliyevlə o zaman Dövlət Gömrük Komitəsinin sədri vəzifəsində işləyən Kəmaləddin Heydərovun və idxal-ixracda süni inhisar yaradan digər iri ranqlı məmurların mübarizəsi tam kəskinləşmişdi.

F.Əliyev bir tərəfdən müxtəlif dövlət və hökumət tədbirlərində iştirakı, digər tərəfdən xarici ölkələrə işgüzar səfərləri ilə əlaqədar K.Həsənovun rəhbərlik etdiyi departamenti demək olar ki, nəzarətsiz buraxmışdı. Bu səhvi F.Əliyevi gözləmədiyi halda uçuruma apardı...

*(ardı var)*

YENİ MÜSAVAT
N 191 (5900) 31 iyul 2014

# Facebook həbsləri - dünyada və bizdə...

## Misirdə, Türkiyədə gənc fəalları məhz statuslarına görə cəzalandırırlar

**Son illər Azərbaycanda baş verən əksər həbslər "facebook həbsləri" statusunu qazanıb. Sosial şəbəkədə aktivlik edən, status yazan, ictimaiyyəti aktivliyə səsləyənlərin əksəriyyəti müxtəlif bəhanələr və şərləmələrlə həbs edilib. Hazırda sosial şəbəkələrin ciddi nəzarət altında olması da şübhəsizdir. Daxili yazışmalardan tutmuş, statuslara, hətta hansı fikri "layk" (bəyənmə) etməyə qədər bir məqam da nəzarətsiz buraxılmır.**




Ekspertlər hesab edir ki, bu, daha çox "Misir baharı"ndan sonra Azərbaycan hakimiyyətində yaranmış xofun nəticəsidir. Belə ki, iqtidar insanların sosial şəbəkə vasitəsilə məlumatlanması, istiqamətlənməsi, bir sözlə, aktivləşməsindən narahatdır. Və bunun qarşısını xofla, qorxutma yolu ilə almağa çalışır.

Dünyanın bir çox ölkələrində facebook həbsləri olub. Tutaq ki, Amerika, Britaniya kimi ölkələrdə bu, sırf hansısa sosial şəbəkə istifadəçisinin başqasının hüquqlarını tapdaması və ya təhqir etməsinə qarşı açılan cinayət təqibinin nəticəsində baş verir. Məsələn, 19 yaşlı Texas sakini facebook səhifəsində yazdığı istehzalı statusuna görə ömrünün bir neçə ayını həbsxanada keçirib. O, digər istifadəçilərlə söyüşərkən, zarafatyana hansısa məktəbin şagirdlərini güllələməyi düşündüyünü yazmışdı.

Hakimiyyət isə bu zarafatı anlamayaraq onun terrora səslədiyini əsas gətirib Texas sakinini həbs etdi.

Türkiyədə 2013-cü ildə facebook həbsləri geniş vüsət almışdı. Məsələn, təkcə İzmir polisi şəhərdə Taksim Gəzinti Parkında baş verən etiraz aksiyalarına dəstək məqsədilə nümayişlər keçirilərkən sosial mediada hökumət əleyhinə çağırışlar edən 38 nəfəri müəyyənləşdirərək, onların 25-ni həbs etmişdi. Onlar bir neçə sutka saxlanılandan sonra azadlığa buraxılmışdı.

Beynəlxalq hüquq müdafiə təşkilatı "Human Rights Watch", Səudiyyə Ərəbistanında 7 nəfərin "Facebookda etirazları qızışdırmaq və ictimai nizamı pozma" iddiasıyla həbs edildiyini açıqlayıb. 2013-cü ilin 29 iyun tarixli hesabatda, Ağır Cinayətlər Məhkəməsində 7 nəfərə 5-10 il arasında həbs cəzası verildiyi və həbs müddətini başa vurduqdan sonra da ölkə xaricinə çıxışlarının qadağan edildiyi bildirilib.

İranda da 2013-cü ildə facebook həbsləri baş vermişdi. Daxili İşlər Nazirliyinin İnternetdə Təhlükəsizliyin Təminatı İdarəsinin rəisi Kamal Hədianın dediyinə görə, polislər "internetdə korrupsiya və rüşvətxorluq yayan qrupu uzun müddətdən bəri müşahidə edəndən sonra həbsə əl atılıb".

Tutulanlar 2 kişi və 2 qadındır. Onların facebookda yaratdıqları səhifənin artıq 25 min daimi oxucusu vardı. Virtual gözəllik müsabiqəsinə qatılanlar burada öz fotolarını dərc edirdilər.

İranın hakimiyyət dairələri ölkədə facebooka girişi yasaqlasalar da, iranlılar müxtəlif proqramlar vasitəsilə sosial şəbəkəyə qoşulurlar.

Göründüyü kimi, dünyada da sosial şəbəkəyə görə xeyli həbslər baş verir. Amma Azərbaycanda son olaraq iyulun 23-də Müsavat Gənclər Təşkilatı MTK-nın sədri, blogger, musavat.org.az saytının administratoru Fərəc Kərimlinin həbsi hakimiyyət daxilində facebook xofunun gündən-günə artdığını göstərir. Ekspertlər hesab edir ki, indi hakimiyyətin sosial şəbəkənin üzərinə yeriməsinin xüsusi səbəbi var. Belə ki, azad medianı boğan, müstəqil qəzetlərin satışına imkan verməyən, saytları satın alan hakimiyyət gənclərin aktivləşməsi istiqamətində sosial şəbəkənin nüfuzunu görür və gənclərin gözünü bu formada qorxudur.

❑ **Sevinc TELMANQIZI**

# "Ərəb baharı"nın daha bir ölkəsi məhv olmaq ərəfəsində



**Kənan RÖVŞƏNOĞLU**

## Və ya nədən inqilab edənlər iki dəfə düşünməlidirlər?

**"Ərəb baharı"nın daha bir ölkəsi məhv olmaq ərəfəsindədir. Söhbət Qəzzafinin Liviyasından gedir. Bir zamanlar neft zəngini, rifah və qəddar diktatura ölkəsi kimi tanınan Liviya indi dağılmaq üzrədir. Son 3 gündə Liviyada baş verən toqquşmalarda 100-ə yaxın insan öldürülüb, 400 nəfərdən artığı isə yaralanıb. Savaş isə davam edir.**

Əslində Liviyada savaş "ərəb baharı"nın başladığı 2011-ci ildən bu yana heç zaman dayanmayıb. Qəzzafini NATO qüvvələrinin dəstəyi ilə devirərək edam edən liviya üsyançıları ölkədə sabit hökumət qura bilmədilər. Səbəblər çox idi. Qəzzafinin 42 illik diktaturası nəticəsində ölkədə siyasi institutlar məhv edilib, siyasi partiyalar, vətəndaş cəmiyyəti formalaşmayıb, eyni zamanda böyük neft ehtiyatlarına malik *(ortalama gündəlik 2 milyon barrel neft istehsalı - K.)* olan və Şimali Afrikanın mühüm strateji nöqtəsində, Avropa sahilləri yaxınlığında yerləşən bu ölkədə maraqları toqquşan qüvvələr çox idi. Bu mənada Liviya tipik ərəb-müsəlman ölkəsi idi.

Qəzzafinin qanla devrilməsindən sonra ilk seçkilər nəticəsində Liviyada hökumət və parlament formalaşsa da, məlum oldu ki, üsyan zamanı ölkədə milyonlarla silah paylanıb və indi bu silahlar qanunsuz silahlı birləşmələrin əlində cəmləşib. 2012-ci ilin sentyabrında Benqazidə ABŞ səfiri öldürüləndə Qərb ayıldı ki, artıq Liviyada radikal islamçı qruplaşmalar oturublar. Bundan sonra yerli hökumətin dəstəyi ilə ötən il "əl-Qaidə"nin bölgə lideri Ənəs əl-Libi *(əsl adı Nazih Əbdülhəmid Rukay)* həbs olundu. Ancaq bu hadisə Liviyada radikal qruplaşmaların fəaliyyətini nəinki zəiflətmədi, əksinə, daha da fəallaşdı və faktiki olaraq mövcud hökuməti iflic etdilər. Baş nazirin qaçırılması və ardınca baş verən iğtişaşlar Liviyada inqilabdan sonra sabit islahatçı hökumət qurmaqla bağlı proqnozları heçə çıxardı. Bazar günü isə artıq ABŞ, Britaniya, Fransa, Almaniya kimi ölkələr Liviyadakı vətəndaşlarını bu ölkəni tərk etməyə çağırıb. Daha əvvəl bu addımı Türkiyə hökuməti də atıb və Liviyadakı səfirliyini bağlayıb.

Bu ilin yazında isə Liviyada faktiki olaraq daxili müharibə başlayıb. Bir tərəfdə Qəzzafi ordusunun keçmiş komandanlarından olan və uzun illər Amerikada mühacirət həyatı yaşamış Xəlifə Haftar inqilabdan sonra Liviyaya qayıdıb və Liviya xüsusi təyinatlı təhlükəsizlik qüvvələrinin komandanı olub. Hazırda Liviya Milli Ordusu onun nəzarətindədir. Bu il mayın 16-da isə Haftar Liviyadakı radikal islamçı qruplaşmalara qarşı savaş elan etdiyini bildirib. Qeyd edək ki, hazırda Liviyada 150-dən biri qədər artıq tayfa mövcuddur və onlardan daha böyük və aktiv olan 30 aşirət silahlı qruplaşmalara sahibdir. Hazırda bu tayfaların bir çoxu ölkədə güc sahibi olmaq üçün mübarizə aparır. Ancaq ölkədə daha təhlükəli olan radikal islamçı qruplardır. Bu qrupların Misirdəki "İxvan əl-Muslimun" hərəkatına, eyni zamanda xavaric qruplara, təkfirçi və "əl-Qaidə" bağlılığı olanları var. Bu qrupların hamısı silahlıdır və daha çox nüfuz sahibi olmaq və neft satışına nəzarət etmək uğrunda mübarizə aparırlar.

Liviyadan gələn son məlumatlar qorxuludur və ölkənin məhvə aparıldığını göstərir. Belə ki, hazırda savaşan tərəflərin heç biri üstün gələ bilmir, hökumət faktiki olaraq iflic olub. Hafter isə savaşın radikal qrupların ölkədən sıxışdırılıb çıxarılmasına qədər davam edəcəyini bəyan edib.

"Ərəb baharı"nın ən şanslı ölkələrindən sayılan, zəngin Liviya xarabalığa çevrilməkdədir. Liviyada ərəb ölkələrinin, Qərbin, Türkiyənin və başqa cinahların hər birinin marağı və mənfəətləri var. Ancaq son nəticədə bu mənfəət bu ölkənin xarabalığa çevrilməsinə gətirdi. Yaşananlar onu göstərir ki, Liviya parçalanma, avtoritar rejim və ya xaos arasında seçim etməli olacaq. Liviyada olanlar "ərəb baharı" ilə bağlı növbəti ölkə fiaskosudur. Hələlik yeganə və nisbətən normal nəticə Tunisdədir. Belə görünür, artıq inqilab edən xalqlar iki dəfə düşünməli olacaqlar. İnqilabı necə başlamaq və onu necə yekunlaşdırmaqla bağlı.

# ABŞ və Rusiya İraqı silahlandırır

## İŞİD-ə qarşı effektiv mübarizə aparmaq üçün Bağdad hökumətinə bir neçə milyard dəyərində silah və texnika satılır

**İraqda İŞİD terror qruplaşmasının hökumət qüvvələri ilə savaşı davam edir. Ötən ayın əvvəlində hücuma keçərək ölkənin ikinci böyük şəhəri Mosulu tutan İŞİD İraqı faktiki olaraq parçalayıb. Ölkə ərazisinin üçdə birinə nəzarət edən İŞİD yaraqlıları törətdiyi dəhşətli qətllərlə məşhurlaşıb.**

İŞİD yaraqlılarının bu şəkildə fəallaşması bir sıra ölkələrin gizli şəkildə bu qruplaşmanı dəstəkləməsi ilə izah olunurdu. Ancaq eyni zamanda mərkəzi İraq hökumətinin terrorçulara qalib gələ bilməməsi də xarici amillərlə izah olunurdu. Məsələ burasındadır ki, faktiki olaraq İran və Rusiya istisna olmaqla, heç bir ölkə İraqa dəstək vermədi. İranın İraqa təlimatçılar, o cümlədən hərbi təyyarə, silah və sursat, humanitar yardım göstərdiyi bildirilir. Rusiya isə İraqa 500 milyon dəyərində 10 ədəd SU-25 qırıcısı satıb, onlardan artıq 5-i İraq ordusuna təhvil verilib və terrorçulara qarşı istifadə olunur.



ABŞ isə 34 ədəd "F-16" qırıcılarını İraq hökumətinə terrorçuların əlində keçəcəyi təhlükəsini əsas gətirərək təhvil verməkdən imtina etdi. Ancaq görünür, hazırda vəziyyət dəyişib və Qərb artıq İŞİD təhlükəsini daha çox ciddiyə almağa başlayıb. Belə ki, artıq Qərb dövlətləri İraqda antiterror əməliyyatlarında mərkəzi hökumətə müəyyən dəstək verməyə başlayıblar. "Əl-Ərəbiyyə" telekanalının məlumatına görə, ABŞ İŞİD-ə qarşı effektiv mübarizə aparmaq üçün İraq ordusuna 5 min paket AGM-114 Hellfire bombaları satmağa qərar verib. Telekanalın məlumatına görə, artıq İraq hökuməti ilə 700 milyon dollar dəyərində müqavilə imzalanıb.

ABŞ Müdafiə Nazirliyinə bağlı Təhlükəsizlik və Müdafiə Agentliyinin bununla bağlı yaydığı məlumatda qeyd olunur ki, "Helfire raketləri İraq ordusunun quru əməliyyatlarının effektini daha da artırmağa yardımçı olacaq". Qeyd olunur ki, müqaviləyə əsasən ABŞ İraq ordusuna verəcəyi 5 min ədəd "hava-yer" tipli raket bütün lazımi avadanlıqları, yardımçı qurğuları və o cümlədən amerikalı hərbi təlimatçıların İraqa gələrək yerli hərbçilərə təlim keçməsini nəzərdə tutur. O da qeyd olunur ki, ABŞ Dövlət Departamenti artıq silah satışı müqaviləsini dəstəkləyib.

Rusiyanın "Vedomosti" qəzetinin yazdığına görə, İraq müdafiə naziri Sadun Fardan əl-Duleymi bugünlərdə Rusiyaya səfər edərək bu ölkə ilə 1 milyard dollarlıq silah müqaviləsi imzalayıb. Müqaviləyə əsasən Rusiya tez bir zamanda təslim edilmək şərtilə İraq ordusuna yaxın və uzaq mənzilli raket qurğuları, zirehli texnikalar, minaatan qurğular və bunların mərmilərini satır. Eyni zamanda qəzet iyun ayında alınan 5 ədəd SU-25 qırıcısı ilə yanaşı hazırda İraq və Rusiya arasında 10 ədəd SU-27 qırıcı-tutucu təyyarələrin satın alınması ilə bağlı danışıqların davam etdiyini yazıb. Qeyd edək ki, ABŞ hökumətinin silah satmaqla bağlı məhdudlaşdırmasından sonra İraq Rusiya ilə silah alınması müqaviləsi imzalayıb. Ötən il İraq və Rusiya arasında 4,2 milyardlıq silah alınması ilə bağlı müqavilə imzalanıb.

❑ **KƏNAN**






## Yasamal sakinləri "Məxmər-77" MMC-ni məhkəməyə verəcək

### Tikinti şirkətinin fəaliyyəti dayandırıla bilər

**Paytaxtın Yasamal rayonu, Həsən bəy Zərdabi 84 ünvanının sakinləri "Məxmər-77" MMC tikinti şirkətini məhkəməyə verməyə hazırlaşır. Səbəb isə, sözügedən tikinti şirkəti tərəfindən sakinlərin yaşadığı binanın həyətinin zəbt olunmasıdır. Onların sözlərinə görə, ötən həftə tikinti şirkətinin qanunsuzluğu barədə "Yeni Müsavat"da reportaj gedəndən sonra "Məxmər-77" MMC şirkəti gecə saatlarında apardığı tikintini bir neçə günlük dayandırmalı olub.**

Şirkətin nümayəndələri sakinlərlə danışıqlar aparmağa çalışsa da bu, nəticə verməyib. Sakinlərdən bir neçəsinin musavat.com-a verdiyi xəbərə görə, şirkətin tikdirdiyi bina qanunsuz olduğu və ətrafdakı binaların işığını, havasını kəsdiyi üçün inşaat işlərinin ümumiyyətlə dayandırılmasına çalışırlar. Sakinlər buna görə ölkə prezidenti İlham Əliyevə yenidən müraciət edəcəkləri istisna olunmur.

Qeyd edək ki, Yasamal rayonu, Həsən bəy Zərdabi 84 ünvanı "Məxmər-77" MMC inşaat şirkəti tərəfindən zəbt olunub. Sözügedən şirkət digər yaşayış binalarının həyətyanı sahələrini zəbt edərək çoxmərtəbəli yaşayış kompleksinin tikintisini həyata keçirir. Sakinlər deyir ki, dəfələrlə aidiyyəti dövlət orqanlarına ünvanladıqları şikayət məzmunlu müraciətlərinə hələ də cavab verilməyib.

Amma məsələ ictimailəşdikdən sonra "Məxmər-77" MMC-nin işləri xeyli axsamağa başlayıb. Ən azından gecə növbəsini ləğv ediblər. Redaksiyaya daxil olan özəl xəbərə görə, son günlər bağlanan bir neçə tikinti şirkəti kimi "Məxmər-77" MMC-nin də fəaliyyətinin dayandırılması haqda söz-söhbətlər dolaşır. Bu söz-söhbətlər ortaya çıxandan sonra şirkətin tikdirdiyi binadan ev almaq üçün pul ödəyən müştərilər vəsaitlərini geri çəkmək üçün "Məxmər-77" MMC-nin rəhbərliyinə müraciət edib.

Bu istiqamətdə redaksiyanın araşdırmaları davam edir. Mövzunu diqqətdə saxlayacağıq.

❑ Fərahim İLQAROĞLU




## Asiya Bankı ilə Ziya Məmmədovun müştərək korrupsiya layihəsi

### Bank Masallıdan Salyanın Şorsulu kəndinə avtomobil yolunun bir kilometrinə beynəlxalq standartdan ən azı 2 dəfə çox - 10 milyon dollar ayırıb; BVF, DB və başqa nüfuzlu Avropa donorlarından fərqli olaraq AİB korrupsiya risklərini nəzərə almadan böyük məbləğli layihələrə dəstək verir

**Asiya İnkişaf Bankı (AİB) Nəqliyyat Nazirliyinə Masallıdan Salyanın Şorsulu kəndinə avtomobil yolu (63 km) çəkmək üçün vəsait ayırıb. AİB və Azərbaycan hökumətinin rəyinə görə, layihənin ümumi qiyməti 625 milyon dollardır. Avqustda ilk tranş ayrılacaq - 250 milyon dolların ayrılması təsdiqlənəcək.**

Ekspertlərin fikrincə, beynəlxalq maliyyə institutlarının investisiya layihələrində iştirakı yaxşıdır. Onların mütəxəssisləri beynəlxalq normativləri əsas götürür, korrupsiyaya imkan vermir və s. Ancaq Azərbaycanda situasiya fərqlidir. Burada xarici donorlar da Nəqliyyat Nazirliyinin korrupsiya tutumlu layihələrinə maliyyə dəstəyi verir. Məsələn, beynəlxalq maliyyə institutlarının maliyyələşdirdiyi Bakı-Hacıqabul yolu (120 km) dəfələrlə tənqidə məruz qalıb. Yol 30 il istismar edilməli idi, amma hər il ən azı 2 yerində təmir gedir.

Dünyanın heç bir ölkəsində hətta asfalt beton yolun 1 kilometri 10 milyon dollara başa gəlmir. İspaniyada 8 zolaqlı yolun 1 kilometri 1,8, ABŞ-da 2, Finlandiyada 2,8, Rusiyada 3,3, Almaniya və Fransada 5 milyon dollardır.

Hər kilometrin qiyməti yolun eni və qalınlığı, ƏDV, layihə sənədləri xərci, torpaq alınması, kommunikasiyaların köçürülməsi və başqa detallar nəzərə alınmaqla müəyyənləşir. Bundan başqa, Azərbaycanda kəskin iqlim yoxdur. Amma istehsalın inhisarlaşdırılması, hökumətin və siyasi hakimiyyətin Nəqliyyat Nazirliyinə lobbiçilik etməsi "bahalı yolların" ortaya çıxmasına səbəb olur.

Ölkələrdə yolların bir çoxunun tikinti və bərpasına kredit ayıran Dünya Bankı yol layihələrinin xərcləri ilə bağlı hesablama aparıb. Bankın 40-a yaxın ölkədə kredit ayırdığı layihələrin müqayisəli analizini əks etdirən bu sənədə görə, təzə yolun salınması xərclərinin ən ucuzu hər kilometr üçün 142 min dollara, ən bahalısı isə kilometrinə 1 milyon 832 min dollara başa gəlib. Bu qiymətlər ümumiyyətlə yol ol-


Ziya Məmmədov

mayan ərazilərdə aparılan yol tikintilərinə aiddir. Yəni söhbət sıfır variantından yolun salınmasından gedir. Artıq mövcud olan yolların bərpasına isə hər kilometrinə 62 min dollardan 609 min dollara qədər pul xərclənə bilər. Bu xərclər yol ötürücülərinin və qovşaqların tikintisini də əhatə edir.

Rəqəmlər arasında olan fərq yolun keyfiyyəti, ərazinin landşaftı, işçi qüvvəsinin, tikinti materiallarının ölkədən-ölkəyə fərqli qiyməti ilə izah olunur. Azərbaycanın da daxil olduğu beynəlxalq İpək Yolu layihəsinin bir hissəsini çəkən Qazaxıstanda yol tikintisinə sərf edilən vəsait Azərbaycandakı yol tikintisi məsrəfləri ilə müqayisədə çox azdır. Qazaxıstan nəqliyyatçıları Çinə qədər uzanacaq 2500 kilometrlik birinci dərəcəli yolun çəkilməsi üçün 4 milyard dollarlıq büdcə tərtib ediblər. Başqa sözlə, hər kilometrə 1,7 milyon dollar xərc nəzərdə tutulub. Yolların keyfiyyətinə və yol şəbəkəsinin genişliyinə görə dünyanın qabaqcıl ölkələrindən sayılan Finlandiyanın paytaxt Helsinkidən Rusiya sərhədinədək çəkdiyi 1-ci dərəcəli yolun (B tipli) hər kilometri 3,4 milyon dollara başa gəlib. Belə nümunələrin sayını artırmaq da olar. Ancaq oxucuları yormamaq üçün mühüm bir detalı vurğulamaqla bununla kifayətlənək - Qazaxıstanda yol tikintisində çalışanların əmək haqqı 5, Finlandiyada isə azı 10 dəfə Azərbaycanla müqayisədə yüksəkdir. Əgər Qazaxıstan və Finlandiyada yol tikintisi işçilərinin əmək haqqı fondu Azərbaycanla eyni səviyyədə olsaydı, bu göstəriciləri 2-yə bölmək lazım gələcəkdi.

Belə çıxır ki, AİB Nəqliyyat Nazirliyinin korrupsiya tutumlu növbəti layihəsini maliyyələşdirməyə qərar verib. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və başqa nüfuzlu Avropa maliyyə təsisatlarından fərqli olaraq AİB korrupsiya risklərini nəzərə almadan böyük məbləğli layihələrə dəstək verir. Təbii ki, bank burada nəsə itirmir. Çünki kreditlər dövlət zəmanəti ilə alınır və dövlət büdcəsi hesabına da ödəniləcək. Burada itirən Azərbaycan dövləti, qazanan isə başda Ziya Məmmədov olmaqla, bir neçə məmurdur.

Asiya İnkişaf Bankının mənzil-qərargahı Filippində yerləşir. AİB-in 67 üzvü var. Azərbaycan 1999-cu ildən AİB-in üzvüdür, bankın kapitalında 0,5 faiz paya malikdir. Bankın Azərbaycandan Rəhbərlər Şurasının üzvü maliyyə naziri Samir Şərifovdur. AİB Azərbaycan hökuməti ilə sıx əməkdaşlıq edir. Böyük ehtimalla Azərbaycan hökumətini bu Şərq təsisatı ilə sıx bağlayan amillərdən biri də müştərək korrupsiya maraqlarıdır. Hər halda, fakt göz önündədir - bank heç bir xəsislik etmədən Masallıdan Salyanın Şorsulu kəndinə avtomobil yolunun bir kilometrinə 10 milyon dollar ayırıb.

Yeri gəlmişkən, AİB Rəhbərlər Şurasının 48-ci illik toplantısı 2015-ci ildə Bakıda keçiriləcək. Azərbaycan hökuməti bu tədbirə çox ciddi şəkildə hazırlaşır və bununla bağlı baş nazirin müavini Yaqub Əyyubovun rəhbərliyi ilə təşkilat komitəsi də yaradılıb.

❑ İqtisadiyyat şöbəsi

## Şərikini sifariş verən ömürlük həbsdə qaldı

**Bakı Apelyasiya Məhkəməsində "Azər-Ross" MTK-nın baş ofisində törədilən dəhşətli qətl hadisəsində və dələduzluqda ittiham olunan Hümbət Məmmədov, Tofiq Bəkirov, Fərman Hacıyev, Ramil Hacıyev, Sahil Şamilov və Şamil Şamilovun cinayət işi üzrə məhkəmədə qərar elan olunub. Hakim Mirpaşa Hüseynovun elan etdiyi qərara görə, təqsirləndirilən şəxslərin apelyasiya şikayəti təmin edilməyib və Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü qüvvədə saxlanılıb.**

İttihama görə, 2011-ci il iyulun 11-i saat 13 radələrində paytaxtın Nərimanov rayonu ərazisində yerləşən "Azər-Ross" mənzil-tikinti kooperativində qurumun təsisçisi Əflatun Piriyev odlu silahdan açılan atəşlə qətlə yetirilib, baş mühasib Əmi-


Əflatun Piriyev

raslan Əhmədov ağır yaralanıb.

İstintaq araşdırmaları zamanı cinayət işi üzrə dələduzluq faktları da üzə çıxıb. Məlum olub ki, şirkətin təsisçilərindən biri olan Hümbət Məmmədov vətəndaşları aldadaraq bir mənzili bir neçə nəfərə satmaqla dələduzluq edib. Cinayət işi üzrə dələduzluqla üzləşmiş 26 vətəndaş zərərçəkmiş qismində tanınıb. Zərərçəkən vətəndaşlardan 24 nəfərindən 1 milyon 777 min manat pul alınıb və onların heç birinə mənzil verilməyib.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Hümbət Məmmədov və Vüsal Qurbanov ömürlük, Tofiq Bəkirov 14 il, Fərman Hacıyev 14 il 6 ay, Sahil Şamilov və Şamil Şamilov isə hər biri 12 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər. Hökmdən təqsirləndirilən şəxslər apelyasiya şikayəti veriblər. Sahil və Şamil qardaşları barələrində olan hökmün ləğv edilməsini və bəraət hökmünün çıxarılmasını istəyiblər. Digər təqsirləndirilən şəxslər cəzalarının yüngülləşdirilməsini xahiş ediblər.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 191 (5900) 31 iyul 2014

# Məşhurlardan "Coca-Cola"nı boykot açıqlaması

**İsrailin Fələstində törətdiyi qətliamlara və bombardmanlara ən sərt etiraz edən ölkələrdən biri də Türkiyədir. Bu ölkədə İsrailə qarşı çeşidli etiraz aksiyaları keçirilib. Bunlardan biri də İsrail məhsullarının boykotu ilə bağlıdır. Türkiyədə bir çox marketlər İsrailə məxsus malları, o cümlədən "Coca-Cola" firmasının içkilərini satmaqdan imtina ediblər.**

Türkiyədə sıravi vətəndaşlar da "Coca-Cola", "Fanta", "Sprite" içkilərini açıq şəkildə boykot edirlər. Hətta boykot kampaniyası bələdiyyələr səviyyəsinə qaldırılıb. Məsələn, Bursanın İldırım bələdiyyəsinin sədri İsmayıl Haqqı Ədəbəli bu barədə şəxsi twitter hesabında yazıb. O, paylaşımında "Coca-Cola" və bütün İsrail məhsullarını bələdiyyə ərazilərində boykot etdiyini açıqlayıb.

Ədəbəlinin bu qərarı ölkənin bir çox yerlərində müsbət qarşılanıb. Bəziləri isə belə bir qərarın bütün Türkiyədə tətbiq olunmasını tələb ediblər.

Bu boykot havasının küləkləri Azərbaycana da gəlib çatır. Düzdür, bizdə "Coca-Cola"nı açıq boykota rast gəlinməyib, amma bəziləri sosial şəbəkələrdə bu məhsulları boykot çağırışı edir.

Azərbaycanın bir müsəlman ölkəsi olaraq bu cür boykotlara, kampaniyalara qoşulmasına az təsadüf edilir. Amma yenə də bu məsələnin ölkə insanına necə təsir etdiyini öyrənmək üçün bir neçə ticarət və iaşə obyektində olduq.

"Ailə" supermarketinin administrativ işçilərindən Yaşar bəy satışda heç bir dəyişikliyin müşahidə olunmadığını söylədi.

Qeyd edək ki, hazırda əksər marketlərdə yarım litrlik "Coca-Cola" 40 qəpiyə, 1 litrlik 60 qəpiyə, 2 litrlik isə 90 qəpiyə satılır.

**Üzəri "Coca-Cola"nın reklam posterləri ilə örtülmüş "Antep Lahmacun" adlı restoranın işçisi Məhəmməd bəy də Türkiyədə başladılan boykot kampaniyasının Bakıda sözügedən içkilərin satışlarına heç bir təsir göstərmədiyini bildirdi:** "Satışlar həmişə necə idisə, indi də elədir. Restorana gələnlərin 80 faizi "Coca-Cola", "Fanta", "Sprite" sifariş edir, qalan 20 faiz də ayran içir. Bunların üçü də onsuz eyni şirkətindir. Müştərilər tərəfindən hələ heç bir etiraz olmayıb".



Bəs bu mövzuda yazarlarımız nə düşünür? Bugünlərdə "Yeni Müsavat" qəzetinin köşə yazarı Zamin Hacı "Coca-Cola" ilə bağlı özünün facebook səhifəsində maraqlı status yazmışdı. Köşə yazarının həmin statusu bu cür idi:

## "Boykot edəndə dərindən düşünün

"Coca Cola"nın hazırkı prezidenti türkdür - Muxtar Kent. Nyu-Yorkda doğulub, atası Nedcət Kent Türkiyənin baş konsulu işləyib və İkinci Dünya savaşı zamanı yəhudilərin xilasında rolu olub. Buna görə Nedcət bəyə hətta "türk Şindler" də deyirlər.

Bunu ona görə xatırlatdım ki, "Coca Cola" və yəhudilər heç zaman heç nəyi unutmurlar. Nə yaxşılığı, nə pisliyi".

**Mövzu ilə bağlı suallarımızı cavablandıran Z.Hacı hazırda özünün bu içkidən istifadə etdiyini də söylədi:** "Mən "Coca Cola" içirəm, bu boykotu da mənasız hərəkət sayıram. İsrailin Qəzzada adam öldürməsinin, o cümlədən ərəblərin İsrailə raket atmasının bu şirkətə dəxli yoxdur. Ümumiyyətlə, yəhudilərlə ərəblərin davası bizim ermənilərlə davamız kimi bir şeydir. Keçəl bir dərman bilsə məsəli, bizimkilər yaxşı olar öz xarabalarını düzəltsinlər öncə, sonra dünyanın dərdini çəkərik".

**Dini ekspert Kənan Rövşənoğlu da məsələyə münasibətini bildirərək, "Coca Cola"dan imtina etdiyin söylədi:** "Yerli istehsal sularına keçmişəm. Qeyd edim ki, bu qərar ilk dəfə Türkiyədə elan olunub. Bəzi qruplar iddia edir ki, adıçəkilən məhsulları istehsal edən şirkətlər İsrail dövlətini maliyyələşdirir. Bildiyiniz kimi, İsrail yarandığı gündən bu yana Fələstində günahsız insanlara qarşı soyqırım törədir. Bir xalqın taleyini qaraldıb. Bu mənada İsrail və İsrail ordusunu maliyyələşdirən şirkətlərin boykot olunması normal addımdır.

Düşünürəm ki, bununla yanaşı həm də Fələstinə yardım kampaniyaları keçirilməlidir. Və bu, bütün müsəlman ölkələrini əhatə etməlidir. Məsələ içkidə deyil, müsəlmanların zora, şərə qarşı münasibətidir".

**"Xalqımız odlu müharibələri kulinariya müstəvisinə keçirməkdə həmişə israrlıdır"- deyən, yazıçı Həmid Herisçi isə "Yeni Müsavat"a mövzuyla bağlı bunları söylədi:** "Ermənilərə sanki Qarabağ uğrunda deyil, dolma üstündə müharibə aparırıq. Qərblə ideoloji müharibədə də deyəsən elə həmin cığırdan başlamaq niyyətindəyik. Mənə gəldikdə isə bu yad içkilərlə heç vaxt ağzımın dadını dəyişmək fikrində olmamışam. Çöllərdə susuz qaldığım vaxtlar belə bu içkilərə rast gəldikdə üzümə sevinc ifadəsi qonmayıb.

Odlu müharibəni musiqi səhnəsinə transfer edib, ermənilərlə "Sarı gəlin" üstündə də müharibə edərik. Təki, əsl döyüş meydanlarında düşmənlə üz-üzə gəlməyək. İstəyirik kulinarlarımız, müğənnilərimiz əsgər olsun. Övladlarımız yox. Bu da elə həmin məsələdi..."



**Zamin Hacı:**
""Coca-Cola" içməkdə davam edirəm və bu boykotu mənasız hərəkət sayıram"



**Kənan Rövşənoğlu:**
"İsrail ordusunu maliyyələşdirən şirkətlərin boykot edilməsi normaldır"



**Həmid Herisçi:**
"Xalqımız odlu müharibələri kulinariya müstəvisinə keçirməkdə həmişə israrlıdır"

❑ **Fəridə ABDIYEVA**

# Müğənnilərin Ramazanda tətil təəssüratları

**Baloğlan Əşrəfov:** "Öz doğma kəndimdə hər gün nərd oynamaqla istirahət etdim"
**Elariz Məmmədoğlu:** "Qubada istirahət edə bildim"
**Əli Mirəliyev:** "İnsanın gününün xoş keçməsi elə istirahətdir"
**Elnur Məmmədov:** "Artıq istirahətə yollanmağa ölkə tapmıram"

**Artıq Ramazan ayı yekunlaşıb və toy mövsümü başlayır. İstirahətdə olan müğənnilərimiz də fəaliyyətə başlamaq üçün yaxşıca dincəlib paytaxta dönüblər. Biz də onların harada və necə istirahət etdiyini öyrənmək üçün bəziləri ilə telefon əlaqəsi yaratdıq.**



Əməkdar artist Baloğlan Əşrəfov doğulub böyüdüyü rayonda istirahət etdiyini dedi: "Mən yayı öz doğulduğum dədə-baba yurdum Masallı rayonunun Bədələn kəndində tikdirdiyim evdə ailəmlə birlikdə istirahət etdim. İstirahətin müxtəlif formaları var. Kimi bunu dəniz qırağında, əylənməkdə görür. Mən isə öz doğma kəndimdə dost-tanışlarımla bir yerdə hər gün nərd oynamaqla istirahət etdim. Mənim üçün bu, istirahətin ən gözəl növüdür. Azərbaycanın hər yeri, bütün bölgələri bir-birindən gözəldir. Bu dəfə qismət Masallı rayonuna oldu. Artıq sabahdan toylar başladığı üçün istirahətimi yekunlaşdırmışam".

**Müğənni Əli Mirəliyev öz bağında istirahət etdiyini söylədi:** "Dünyada gedən proseslər ondan xəbər verir ki, Azərbaycandan başqa heç yerdə əmin-amanlıq yoxdur. Müğənnilər yalandan deyir ki, xarici ölkələrdə istirahət etdim. Hamısı yalandır. Heç kəs heç yerə getməyib. Hamısı Bakıda oturub. Mənim Mərdəkanda bağım var. Orada istirahət etmişəm. İnsanın gününün xoş keçməsi elə istirahətdir. Lazımdır ki, mütləq Antalyaya və ya Almaniyaya gedəsən?! Hansısa ölkəyə getmək istirahət yox, qudurğanlıqdır. Bir dəfə Bodruma gedib gəlmək ən azı 500 manata başa gəlir. Mən 160 manat təqaüd alıram. Bu təqaüdlə necə Bodruma gedə bilərəm?! Bu pul mənim heç dərmanlarıma çatmır".

**Müğənni Elariz Məmmədoğlunun Qubada istirahət etdiyi bəlli oldu:** "Mən Quba tərəfdə bir neçə ərazidə olmuşam. Artıq istirahətimi yekunlaşdırmışam. Yaxşıca dincələ bildim".

**"Onlar" verilişinin sənət aləminin tanınmış simalarının yayda harada istirahət edəcəkləri haqqında keçirdiyi sorğuda iştirak edən müğənni Elnur Məmmədov isə bütün ölkələri gəzdiyini deyib:** "Artıq istirahətə yollanmağa ölkə tapmıram. Təkrar yerlərə gedirəm. O qədər dövlət gəzmişəm ki... Braziliyaya getmək istəyirəm, amma yol uzundur, hövsələm çatmır. Ola bilsin, yenidən Maldiv adalarına getdim və ya elə Bakıda qaldım. Rio-de Janeyroda karnavala qatılmaq istəyirdim, o da qurtarıb. Konsert və klip çəkilişləri üçün Amerikada olanda bir qəpik də xərcləmədim. Çünki hər şey qabaqcadan hazırlanıb, bütün xərclər ödənmişdi".

**Sevda Yəhyayeva Türkiyədə dincəldiyini bildirib:** "Ən çox sevdiyim ölkə Türkiyədir. İstanbulda dincəlməyi xoşlayıram. Hansı ölkədə olsam da, oradakı kimi zövq almıram. Yəqin bizə yaxın olduqlarına görədir. Amerikaya gedəndə dünya miqyaslı şoulara qatıldım, pulumun çoxunu xərclədim. Dedim, bir də bunları görməyəcəm, qoy gəzim".

Eldar Qasımov da Türkiyədə istirahət edən müğənnilər sırasındadır: "Hara olursa-olsun, isti bir yeri seçirəm. Türkiyəyə, sonra isə Dubaya getməyi planlaşdırıram. Eşitmişəm ki, Dubayda dəniz suyunun hərarəti 30 dərəcədən yüksəkdir. İstirahətdə xərclədiyim pulları saymıram. Şoppinqi sevmirəm. Vaxtımı sırf dincəlməyə sərf edirəm".

**Xumar Qədimova isə harada dincəldiyini demək istəməyib:** "Ölkə adı çəkməyi sevmirəm. Harada oldum, haradan gəldim deməyin əleyhinəyəm. Məkan adi ola bilər, amma mən orada gözəl dincələrəm və yaxud da əksinə".

**Meyxanaçı Namiq Qaraçuxurlu da istirahət etməyi sevdiyini bildirib:** "İstirahət üçün ürəyim gedir. Ən rahatı və ağlımıza gələni Türkiyədir. Ən böyük məbləği İtaliyada xərcləmişəm. Harada brend görürdüm, ora qaçırdım. Amma indi ağıllanmışam. Düşünürəm ki, İtaliya istehsalı olsun, brendliyi vacib deyil".

❑ **Günel MANAFLI**

**Beynəlxalq Təhsil Mərkəzi**

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

- *Kiyev Dövlət Texniki Universiteti*
- *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
- *Kremençuk Dövlət Universiteti*
- *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
- *Kiyev Dövlət Dəniz Akademiyası*
- *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
- *Tbilisi Dövlət Tibb Universiteti*
- *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
- *Minsk Dövlət Universiteti*
- *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
- *Qrodno Dövlət Universiteti*
- *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
- *Volqoqrad Dövlət Aqrar Universiteti.*
- *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**

**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# Uşaqlar harada ucuz və keyfiyyətli dincələ bilər?

## Azərbaycanda balacaların yay istirahəti üçün məkanlar azdır

**Yayda insanları düşündürən məsələlərdən biri də onların harada və necə dincəlmələridir. İsti yay aylarında uşaqların istirahəti daha vacib hesab edilir. Sovet dövründən fərqli olaraq hazırda ölkədə məktəblilərin yay istirahətinin təşkili istənilən səviyyədə deyil. Çünki SSRİ dağılandan sonra Azərbaycanda uşaqların yay istirahətinin təşkili sahəsində pərakəndəlik yarandı.**

Nəticədə istirahət düşərgələrinin bir qismi dağıdıldı, özəlləşdirildi, bəzilərində isə qaçqın və məcburi köçkünlər yerləşdirildi. Ümumilikdə 50-yə yaxın uşaq istirahət düşərgəsi bağlandı. Valideynlər də yay düşərgələrinin yetərincə olmamasından, fəaliyyət göstərən düşərgələrdə də qiymətlərin həddindən artıq yüksək olmasından şikayətlənirlər. Bu cür şikayətlənən valideynlərdən biri də **Bakı şəhər sakini Şəfa Məstəliyevadır.** O, uşaqlarını heç bir düşərgəyə göndərə bilmədiyini deyir: "Uşaqlarım bu istidə Bakıda qalıb, istirahət edə bilmir. 1 aydan sonra məktəblər başlayacaq. Bu uşağın beyni necə dərs götürəcək. Uşaq üçün düşərgələr çox bahadır. Televiziyada düşərgələri reklam edib deyirlər ki, qiymətlərdə nazir, məmur övladlarına güzəşt var. Onların pulu yəni elə azdır?! Ondansa, sadə vətəndaşların övladları üçün güzəşt edilsin".

**Adil Əliyev də nəvəsini istirahətə göndərə bilmədiyini deyir:** "Vaxt vardı, məktəblər bağlanar-bağlanmaz uşaqlar istirahət düşərgələrinə - "pioner-lager"lərə axışardı. Bunu o dövrdə yaşayanlar yaxşı bilər. O dövrdə Qara dənizin sahilində yerləşən "Artek" adında məşhur bir düşərgənin adını eşitməyən yox idi. Amma indi nə düşərgələr var, nə milli dövlətçilik ruhunda tərbiyə, nə də ümumi maraqlar. İndi fərdi maraqlar üstünlük təşkil edir və elə buna görə də uşaqlar istirahət düşərgələrinə həsrət qalıb. Mənim nəvələrim düşərgənin nə olduğunu heç bilmir. Haradan bilsin ki, evdə bişməyib, qonşudan gəlməyib".

Görünür ki, Azərbaycanda yalnız varlı valideynlər övladlarını düşərgələrə göndərə bilir. Onlar uşaqlarını xarici düşərgələrə dil öyrənmək üçün göndərirlər. Bu cür düşərgələrdə isə iki həftə dincəlmək 1000-1500 avroya başa gəlir. Məsələn, Almaniyada Höte İnstitutunun nəzdində düşərgənin 2 həftəsi 1000 avro, İspaniyada "Enfo-Camp"da 1050, Londonda 1500 avrodur. Postsovet məkanındakı digər respublikalardan fərqli olaraq Rusiyada uşaqların istirahəti üçün düşərgələrin sayı çoxdur və ildən-ilə artır. Təkcə Sankt-Peterburqda 40-a yaxın uşaq düşərgəsi var.



Azərbaycanda isə uşaq-sağlamlıq düşərgələrinin üçü Nabran istirahət zonasında, biri isə Şüvəlan qəsəbəsindədir. Bunlar Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının "Olimp", "Şahin", digərləri Xidmət-İş Həmkarlar İttifaqı Federasiyasının "Aypara" və AMEA Həmkarlar İttifaqı Komitəsinin "Elm" uşaq-sağlamlıq düşərgələridir.

Sözügedən uşaq-sağlamlıq istirahət yerlərinə yollayışlar ilk növbədə həmin düşərgələrin məxsus olduğu sahənin müəssisə və təşkilatlarında çalışan işçilərin uşaqlarına verilir. Düşərgələrdə dincələn uşaqların yaş həddi 7-dən 14-dəkdir. Respublika Daxili İşlər Nazirliyinin tabeliyində olan Çingiz Mustafayev adına Uşaq İstirahət Düşərgəsində iyulun 9-dan mövsüm başlayıb. Avqustun 14-nə kimi fəaliyyətdə olacaq düşərgədə uşaqların istirahəti hər il olduğu kimi, üç növbəlidir. Hər növbənin müddəti isə 21 gündür. Ancaq bu düşərgələrdə də sadə vətəndaşların övladlarına güzəşt edilmir və qiymətlər valideynlərin cibinə uyğun olmur. Düşərgələr bir yana qalsın, indi Bakıda uşaqların heç ümumi istirahət yerlərində dincəlməsinə də imkan yoxdur. Paytaxtda uşaqların istirahəti üçün cəmi bir neçə məkan var. "Park Bulvar", "Metropark", "Megafun", "Crazy" və bu kimi mərkəzlərdə bir dəfə istirahət etmək azı 50 manata başa gəlir. Çünki attraksionlar və oyunların qiyməti 2-5 manat arasında dəyişir. Attraksionların qiymətinə yemək, su və dondurma xərclərini də əlavə etsək, məbləğ artmış olacaq. Ona görə də valideynlər övladlarını daha çox özləri ilə istirahətə aparırlar. Bu daha sərfəli olur. Həm ölkə daxilində, həm də xaricdə uşaqlar üçün qiymətlərdə güzəştlər olur. Əksər hallarda 6-7 yaşına qədər uşaqlar üçün istirahət pulsuz, 12 yaşına qədər olanlar üçün müəyyən güzəştlər nəzərdə tutulur. İstənilən halda, ailəvi istirahətə gedəndə bir uşağa çəkilən xərc ölkə daxilində 200 manatdan baha olmur. Bəlkə də bu səbəbdən valideynlər mövcud bir neçə düşərgəyə uşaq göndərməkdənsə, ucuz variantlar axtarıb ailə büdcəsinə uyğun yerlərə üz tuturlar.

Qeyd edək ki, Azərbaycandan fərqli olaraq Avropada uşaqların dincəlməsi üçün hər cür şərait yaradılır. Dünyada uşaqlar üçün macəra tipli düşərgələr də mövcuddur. Məsələn, Rusiya və bəzi Avropa ölkələri üzrə *(İspaniya, Bolqarıstan, Fransa, Xorvatiya)* "Casusların uşaqları", "Qaya şəhərinin sirri", "Robinzoniada" kimi düşərgələr fəaliyyət göstərir. İki həftəlik yollayışı 1000-1200 dollar olan bu düşərgələrdə uşaqlar əsasən ekstremal ekskursiyalara, dağ və meşələrə gəzintilərə çıxırlar. Mağaralarda, qayalar dibində çadırlar qurub orada qalırlar. Bütün dünyada, MDB dövlətlərində, hətta bizə yaxın olan Türkiyə, Rusiya, İran, Gürcüstanda nəinki tələbələr, eləcə də şagirdlər üçün təkcə yay mövsümündə deyil, ilin bütün fəsillərində şagirdlərin maraq dairəsindən asılı olaraq düşərgələr təşkil edilir. Ümumiyyətlə, müxtəlif ölkələrdə uşaq düşərgələrində istirahətin müxtəlif növləri olur. Məsələn, idman düşərgələrində uşaqlara üzməyi, at sürməyi, aykido və karate kimi döyüş üsullarını öyrədirlər. Polşanın Putsko şəhərində 2 həftəlik düşərgədə vindserfinqi öyrənmək mümkündür. Qəribə görünsə də, bəzi ölkələrdə hətta dini təməyüllü düşərgələr də var. Tatarıstanda 20-yə yaxın müsəlman düşərgəsi var. Burda uşaqlar əylənməklə yanaşı, Quranı, müsəlman qaydaları və İslam normalarını öyrənirlər.

**Günel MANAFLI**

**Elan**

**Şamaxı şossesi, MEXKALON -23-də 140 kv metr, hamam tualeti içəridə olan 2 otaq və zalı, mətbəx mebeli, qarajla birlikdə kupçalı və təmirli ev satılır.**

**Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə telefonu: 055 - 211-78-41**






YENİ MÜSAVAT
N 191 (5900) 31 iyul 2014

# "Televiziyaların hamısını bağlamaq lazımdır"

## Tahir İmanov: "Məmurlar bizi tapdalayır, təhqir edir, hədə-qorxu gəlirlər"



**"Planet Parni iz Baku" teatrının bədii rəhbəri Tahir İmanov aktual.az-a müsahibə verib. Müsahibəni təqdim edirik:**

***- Tahir müəllim, Siz həmişə intellektual yumorla fərqlənibsiz. Son zamanlar insanların bayağı yumora meyilliliyi daha çox hiss olunur. İndi yeni yumor qəhrəmanları peyda olub və televiziyalar da onların təbliğatı ilə məşğuldular. Bu barədə nə deyə bilərsiz?***

- Bunun cavabını Təhsil Nazirliyinin keçmiş rəhbərliyində tapmaq lazımdır. Onların fəaliyyəti nəticəsində təhsil sistemi iflic vəziyyətinə düşüb. Təbii, intellekti aşağı olan bir tamaşaçının yəqin ki, daha çox bayağı yumora, musiqiyə meyli olar, nəinki intellektli yumor və səviyyəli musiqiyə. Təəssüflər olsun ki, təhsil sistemi çox bərbad vəziyyətdədir. Və mən indiki cənab nazirə yalnız səbr diləyə bilərəm. Çünki bunu aradan qaldırmaq çox çətin işdir. Tamaşaçının, cəmiyyətin intellektual səviyyəsini yüksəltməsi çox çətin məsələdir. Çünki 18 il ərzində insanların intellektual səviyyəsi çox aşağı düşüb. İndi televiziyalarda bayağı verilişlər populyarlıq qazanıb.

Ümumiyyətlə, bayağılıq təəssüflər olsun ki, cəmiyyətimizdə hökmranlıq edir. Ölkə televiziyalarının hamısını bağlamaq lazımdır. Biabırçılıqdır, sadəcə. Bir az əvvəl dövlət radiosuna qulaq asırdım, Azərbaycan dilində düzgün danışa bilməyən insanları efirə buraxırlar. Əvvəllər belə şey olmayıb. Bu, Azərbaycan dilinə qarşı cinayətdir. Hər bir millət öz dilinə hörmətlə yanaşmalıdır. Ölkənin adını düzgün çəkə bilmirlər, "Azərbaycan" yerinə "Azerbican" deyirlər. Mən bilmirəm, bunu siz necə yazacaqsız. Bu, artıq cinayətdi. Yenə deyirəm, tək bayağı yumora yox, bayağı musiqiyə, bayağı verilişlərə üstünlük verirlər.

***- Siz hər hansı problemlə bağlı iradınızı həmişə deyibsiniz. Ölkə telekanallarına da qarşı iradlarınızı bildirdiniz. Bəs sizə hansısa TV-dən tənqid, yaxud efir qadağası olub?***

- Misalçün, "Lider" televiziyası 2002-ci ildən bizə qadağa tətbiq edib. Əlbəttə ki, siz onlara zəng etsəz, onlar diplomatik şəkildə deyəcəklər ki, yox, nə danışırsız, Tahir İmanovun başı işləmir, ağzına gələni danışır. Onlar ölür intriqa üçün. 2007-ci ildə məni və bütün kollektivimizi təhqir eləmişdilər. Guya biz səviyyəsiz yumor göstəririk və bizim kimi səviyyəsiz kollektivi Heydər Əliyev Sarayı, Opera və Balet Teatrı kimi yerlərə buraxmaq olmaz. Nə oldu, indi biz səviyyəsiz olduq? Ölkə başçısı konsertlərimizə gələndə biz səviyyəli idik, indi yiyəsiz qalmışıq deyə tapdalamaq lazımdır bizi? Ayıb deyilmi sizə? Qaldı, mən "Lider" kimi telekanala buraxılmamağıma görə xoşbəxt insanam.

***- "Yeni Müsavat" qəzetinin əməkdaşı sizdən müsahibə götürmək istəyib. Amma "mən müxalifət qəzetinə müsahibə vermirəm" - demisiz. Bu nə dərəcədə düzgün yanaşmadır?***

- Bəli, demişəm. Bu mənim haqqımdır, mən demokratik ölkədə yaşayıram. Sizin də qərar qəbul etməkdə haqqınız var. Bu, cinayət deyil ki?! Bu mənim seçimimdir və mən öz seçimimi etmişəm.

***- Tamaşalarınızda ölkədəki çatışmazlıqları xüsusilə vurğulayırsız. Bu, siyasi əqidəsindən asılı olmayaraq, insanlarda sizə qarşı daha çox rəğbət oyadır. Hətta müxalifətdə də sizi bəyənənlər az deyil, çünki bəzən elə onların fikirlərini incə yumorla ifadə edirsiz. Amma müxalifət qəzetinə müsahibə vermirsiz...***

- Mənim öz mövqeyim var. Mən çalışmışam ki, həmişə bir əqidəyə qulluq edim. Mənim çox az yaxın dostum var. Çünki eyni əqidəli dostlar dairəsini tapmaq çox çətindir. Əgər sənin zövqü, həyat tərzi, siyasi baxışları müxtəlif olan bir çox dostun varsa, onda sən kişilikdən uzaq birisisən.

***- Bu o qədər də məntiqli deyil axı?***

- Xeyr. Mənim öz əqidəm, öz prinsiplərim var. Bu mənim şəxsi işimdi. Mən bu dövlətə və dövlətçiliyə xidmət edirəm. Mən Heydər Əliyev kursuna xidmət edirəm. Tək mən yox, bütün "Bakılı oğlanlar" bu əqidəyə xidmət edir. Mən cənab prezidentə qulluq edirəm. Dəfələrlə qeyd eləmişəm ki, cənab prezidentimiz bizim ən çətin vaxtlarımızda bütün KVN-çilərə dəstək olub. Biz yenə də onun dəstəyini hiss edirik. Mən bunu karyeramdakı hansısa irəliləyişə görə demirəm. Biz onsuz da bütün zirvələri fəth etmişik. Xahiş edirəm, bunu belə də yazın. Mən istəmirəm ki, hansısa bir müxalifətçi ilə münasibətə görə bu əlaqələr pozulsun, çünki mən beləyəm. Və əgər mən müxalifətçi olsaydım, iqtidar nəşrlərinə, saytlarına açıqlama verməzdim. Mən bu həyatda ancaq birtərəfli dostluğu seçirəm. Ya bir tərəflə dostluq edirəm, ya da ümumiyyətlə, dostluq eləmirəm.

***- "Lider" TV də sizin kimi hakimiyyətin siyasi kursunu dəstəkləyir. Amma onlar sizi efirə buraxmırlar. Bu nəylə bağlı ola bilər?***

- Mən düşünürəm ki, burada "Lider" TV-nin işçilərindən söhbət getmir. Orada istedadlı uşaqlar çoxdur. Mən onları da qınamıram, onlara əmr verilir ki, get, "Parni İz Baku"nu təhqir elə! Onlar da, sadəcə, icraçıdırlar. Bu məsələ isə çox asan yolla həll olunur. Sadəcə, üzr istənilir və aradakı inciklik bitir. Amma onlar bunu eləməzlər, çünki üzr istəmək, başqa sort insanlara məxsusdur. Üzr istəmək də heç vaxt qəbahət sayılmır. Sadəcə, öz nöqsanlarını etiraf etməkdir.

***- Bəs digər TV-lərlə durum necədir?***

- ANS-ə getmirik. ANS də bizi təhqir eləyib. Mirşahin müəllimlə bu haqda danışmışdım. Özü ilə çox gözəl münasibətim var. Amma nə bilim, onlar da heç üzr istəməyiblər. Onlar bizim haqqımızda çox nalayiq süjet vermişdilər.

Bilirsiz problem nədədir? Mən onlara qarşı etiraz kampaniyası aparmıram, çünki bu mənim prinsiplərimə uyğun deyil. KVN-çilər ömür boyu eyni səpkidə, eyni istiqamətdə çıxış ediblər. Bu səpkinin adı çox sadə, lakonikdir - satira janrı və cəmiyyətdə baş verən nöqsanları yumor prizmasından tənqid etmək, parodiyalar və s. Bu istiqaməti biz 95-ci ildən ilk konsertimizdə seçmişik və indiyə kimi bu yolla gedirik. Dəyişilən ancaq bir şey olub ki, vaxtilə konsertimizə ölkə başçısı, nazirlər gəlirdilər, indi gəlmirlər.

Qaldı mənim onlara bir sualım var - ümummilli liderimiz Heydər Əliyev konsertlərimizə gələndə niyə susurdunuz, bizi tənqid etmirdiniz? Guya problemimiz yox idi onda? Mən sizi inandırım, o vaxt bizdə çox nöqsanlar var idi, çünki cavan və təcrübəsiz idik. Sonradan bu nöqsanları aradan yığışdırdıq və çıxışlarımız daha da mükəmməl oldu. Amma siz onda danışmırdız. Bax, onda da danışıb, bizə qadağa qoysaydınız, mən indi bu qadağalara təəccüblənməzdim, etirazımı bildirməzdim. Burda bir problem var - biz yiyəsiz qalmışıq. Bu dəqiqə yoldan keçən müğənni, tamaşaçı bizi tapdalamağa başlayır. Məmurlar bizi tapdalayır, təhqir edir, bizə hədə-qorxu gəlir, televiziyalar qadağa qoyur. Bax, vəziyyət belədir.

***- Həmin məmurların icra etdikləri vəzifələr maraq doğurur...***

- Mən ad çəkmək istəmirəm, bu bizim adımıza, sanımıza yaraşmaz. Biz o kişilərdən deyilik ki, KİV-də adamın dalınca danışaq. Nə lazımdır, görüşəndə üzünə deyəcəyik. Buna siz də, oxucuları da tam əmin ola bilərsiz, mən o insanlardanam ki, sözü üzə deyirəm, Allahdan başqa heç kimdən qorxmuram. Görsəm, mütləq üzünə deyəcəm. Sadəcə, etiraf edim ki, görmürəm, çünki indi hər məmurun 15 mühafizəçisi var. Əsas girişi qoyub, öz binalarına arxa girişdən girirlər, yəni onları tapmaq müşkül məsələdir. Məmurların qəbuluna düşmək çətindi. Gəlin etiraf edək ki, qabaqlar belə deyildi.

***- Dediniz müğənnilər də sizi hədələyib?***

- Sonuncu dəfə Telli Borçalı adlı birisi bizi hədələmişdi. Mən ona tamam başqa məqsədlə zəng edib verilişimizə dəvət eləmək istədim. O da bir ildən sonra başladı bizə hədə-qorxu gəlməyə - nə bilim, məni parodiya edən oğlanı belə edərəm, elə edərəm. Əlbəttə ki, bunlar boş sözlərdi. Heç nə edə bilməzlər. Çünki hər bir aktyorun arxasında mən durmuşam. Mən və qanun durub. Azərbaycan Respublikasının qanunvericiliyi var. Əlbəttə ki, dövlətçiliyimiz, ölkə başçısı da durub. Burda qeyri-qanuni bir şey etsələr, bu, artıq cinayətdir. Bunu özünüz yaxşı bilirsiz. Bunlar ancaq sözlə deyə bilərlər. Çünki biz tənqidlə təhqirin nə olduğunu yaxşı bilirik və onlar arasında sərhədi müəyyənləşdirə bilirik. Bizə cinayət işi də aça bilməzlər, şükürlər olsun ki, bizim ölkədə parodiyaya cinayət işi açılmır.

***- Sonuncu "Analoqu Olmayan" konsertiniz sosial şəbəkələrdə geniş marağa və müzakirələrə səbəb olub. Fikirləriniz maraqlı olar...***

- İndi əsas məsələ o videonu halallıq almadan youtube yerləşdirən adamı tapmaqdı. Sosial şəbəkədə onu yerləşdirən şəxsə deyirəm ki, o kişidirsə, məni tapıb cavabını verəcək. Onu halallıq almadan yerləşdirmək ən azından nakişilikdir. Camaat əziyyət çəkir, kinoteatr da onu verir, bir tikə çörək qazansın, bunlar da götürüb nakişiklik edirlər. Bu youtubedə olan video mənim fəaliyyətimə çox böyük zərbə vurdu. Mən bunu gizli saxlayıram ki, camaat gəlsin ora, biletini alsın. Onlar da götürüb bunu youtube qoyurlar. Olmaz axı belə. Mən bunu kinoteatrda nəyə görə göstərirəm? Oğurluq olmasın və bu, piratçılığa qarşı mübarizə üsuludur. Yaxşı videonu qoyarlar maksimum 5 dəqiqə, daha 20 dəqiqə olmaz axı.

***- Konsertdə millət vəkillərini və dövlət məmurlarını parodiya etmisiz. Bununla bağlı cəmiyyətə vermək istədiyiniz mesaj maraqlıdır, yəni bu parodiya etdiyiniz şəxslərə sözünüz...***

- KVN-in incəliyi də elə ondan ibarətdir ki, tamaşaçı və tənqid atəşinə məruz qalan insan özü üçün bir nəticə çıxarsın. Bir sözlə, bu sənətə qiymət verən, baxan, izləyən hər bir kəs - həm tamaşaçı, həm obrazların qəhrəmanı özüyçün bir nəticə çıxarmalıdır. Bilirsiz, tamaşaçıların zövqünə, intellekt səviyyəsinə uyğun olaraq hərəsində müxtəlif təəssürat yaranır. Biz istəyirik ki, onlar istənilən səhnəciyə baxanda bizim göstərdiklərimizdən düzgün nəticə çıxarsınlar. Və çalışsınlar ki, bir də o səhvlər olmasın. Çünki o səhvlərdən ilk növbədə cəmiyyət əziyyət çəkir.

Biz çalışmalıyıq ki, Azərbaycanın rifahına və inkişafına töhfə verək.

***- Sonuncu konsertlə bağlı ancaq youtubedə yerləşdirilən videodan söz açdınız. Amma yəqin ki, konsert proqramında digər maraqlı səhnələr də olub.***

- Konsertimiz 3 saat davam edib və müxtəlif səhnələr göstərilib. Həmişə olduğu kimi, cəmiyyətdə baş verən proseslərə mövqeyimizi bildirmişik. Ənənəyə sadiq qalaraq televiziyaları da tənqid eləmişik. Televiziya kanallarında həm bayağı verilişləri, həm də normal demək olarsa (gülür), həmin verilişləri də tənqid etmişik. Müğənniləri də parodiya eləmişik.

# YENİ MÜSAVAT

Son səhifə

N 191 (5900) 31 iyul 2014




## Orucluqdan sonra necə qidalanmalı?

Mübarək Ramazan ayını yola saldıq. Müqəddəs ayda oruc tutan müsəlmanlar üçün Ramazan bayramının bir başqa önəmi də var. Bayram süfrələri, bol və ləziz yeməklər, müxtəlif çeşiddə şirniyyatlar ay boyunca dincələn orqanizmə ağır gələ bilər. Çünki bir ay oruc vəziyyətinə öyrəşmiş mədə yenidən qidaların "hücumuna" məruz qalmış olur.

Həkimlərin fikrincə, Ramazandan sonra əvvəlki yemək vərdişinə sürətlə dönmək orqanizmdə müəyyən problemlərə yol aça bilər. İlk növbədə maddələr mübadiləsini yenidən təşkil etmək və əvvəlki vəziyyətinə qaytarmaq lazımdır. Bu məqsədlə gün ərzində 5-6 pay şəklində, hər 3 saatdan bir meyvə, qatıq və süd məhsulları qəbul etmək məsləhətdir. Bu, həm qanda şəkəri nizamlayar, həm də artıq miqdarda qida qəbulunu önləyər. Mütəxəssislər ay boyunca gündüz saatlarında aclığa alışan bədənin normal yemə rejiminə alışması üçün ən az 9 gün lazım olduğunu qeyd edirlər. Bu müddətdə naharların yüngül, günorta yeməklərinin isə az yağlı, daha çox sulu yeməklərdən hazırlanması vacibdir. Mədəni yoran, ağır həzm edilən qidalardan çəkinmək də məsləhətdir. Ən çox süd, qatıq, pendir, ət, balıq, toyuq, paxlalı bitkilər və meyvə-tərəvəz qrupundan olan qidaları qəbul etmək lazımdır. Karbohidrat və zülalla zəngin qidaların yerinə tərəvəz, meyvə tipli məhsulları seçmək və nizamlı qidalanmaq məsləhətdir.

# Obama işləmir, ancaq qolf oynayır

ABŞ prezidenti Barak Obama işlə məşğul olmaq əvəzinə, daha çox qolf oynayır. Amerikalı jurnalistlər belə düşünürlər. "The New York Post" qəzeti bununla bağlı araşdırma aparıb. Qəzetin yazdığına görə, Obama son iki ildə 81 dəfə qolf oynayıb. Halbuki prezident seçki kampaniyasında cəmi 75 dəfə iştirak edib. Bundan başqa, o, prezidentlik dönəmində ancaq qəbullar keçirir və əyləncə xarakterli gecələrdə iştirak edir. Prezident son vaxtlar ölkədaxili səfərlərini də dayandırıb. O, daha çox ev şəraitində işləməyə üstünlük verir. Qəzet yazır ki, Obamanın işinə az vaxt ayırmasının nəticəsində ölkə iqtisadiyyatında dərin böhran yaşanır.



# Yemişin faydaları

Bu şirin bostan bitkisi öz faydalı xüsusiyyətlərinə görə qədim vaxtlardan tanınır. Yemişin kimyəvi tərkibi çox zəngindir. Onun tərkibində selüloz, zülallar, nişasta, asan mənimsənilən şəkər, orqanik turşular, vitaminlər və mikroelementlər var. Sellülozla zəngin olan yemiş bağırsaqların fəaliyyətini yaxşılaşdırır, qəbizliyi aradan qaldırır, orqanizmi ziyanlı maddələrdən (toksinlər, zəhərlər və s.) təmizləyir. A və C vitaminləri orqanizmin müdafiə funksiyalarını yaxşılaşdırır, immuniteti möhkəmləndirir, bərpa proseslərini gücləndirir. B qrupuna aid olan vitaminlər, fol turşusu, PP vitamini mübadilə prosesləri yaxşılaşdırır, sinir sisteminin fəaliyyətinə müsbət təsir edir. Bundan əlavə, fol turşusu qadın dölyaratma sistemi üçün çox vacib olan vitaminlərdən biridir. Yemiş, xüsusilə də onun şirəsi əla sidikqovucu effektə malikdir ki, bu xüsusiyyət onu böyrəklə, sidik kisəsi və bütövlükdə sidik ifrazatı sistemi üçün çox faydalı edir. Silisiumla da zəngin olan yemiş saç və dərinin vəziyyətini yaxşılaşdırır, dərini daha hamar və parlaq, saçları isə daha canlı və qalın edir, saçların tökülməsi ilə mübarizə aparır.





## Yasdıq altındakı telefon yandı

Amerikanın Texas ştatında baş verən hadisə hər kəsi təəccübləndirib. Məlumatlara görə, 12 yaşlı qız gecə yatdığı zaman telefonu yastığının altına qoyub. Lakin yanıq qoxusu hiss edərək yuxudan oyanıb, yanan bir şey görmədiyi üçün yenidən yatıb. Səhərə yaxın oyandığı zaman otağında havanın ağırlaşdığını və içərinin tüstü ilə dolduğunu görüb. Valideynlərinə xəbər verən qız yenidən otağa qayıtdığı zaman yastığın altına qoyduğu telefonun əriyərək yandığını görüb.

Adı açıqlanmayan qızın ailəsi telefon şirkətini məhkəməyə verib. Şirkət rəhbərliyi isə telefonun istifadə kitabçasında hava olmayan yerdə yana biləcəyi haqda məlumat verdiklərini açıqlayıb. Buna baxmayaraq, qızın valideynləri zərərin ödənilməsi üçün yeni məhkəməyə müraciət ediblər. Telefon şirkətinin rəhbərliyi azyaşlı qıza yataq dəsti və telefon hədiyyə edə biləcəklərini açıqlayıb.




**QOÇ** - Səhhətinizlə bağlı diqqətli olun. Yersiz sıxıntılar heç də xilas yolu deyil. Ailə-sevgi münasibətlərini tənzimləməyə çalışın. Maddi problemlərinizin tezliklə həll olunacağına inanın.

**BUĞA** - Adi bir tarix yaşamalı olacaqsınız. Hansısa müvəffəqiyyət və ya uğursuzluq gözlənilmir. Yaxşısı budur, adi istirahətlə məşğul olasınız. Bütün təkliflərdən imtina edin.

**ƏKİZLƏR** - Nahara qədər ovqatınızda baş qaldıran xoşagəlməzliklər qarşıya qoyduğunuz məqsədlərə yetişməyə mane ola bilər. Riskli işlərdən yayının. Sonrakı müddətdə isə dəstək alacağınız mümkündür.

**XƏRÇƏNG** - Maliyyə problemlərinin bolluğuna baxmayaraq, ulduzlar digər məsələlərdə yardımçınız olacaq. Günün ikinci yarısında isə sevindirici təsadüflərlə rastlaşmağa hazır olun.

**ŞİR** - Təəssüf ki, bir qədər gərgin gün yaşaya bilərsiniz. Bu səbəbdən də hətta su içəndə belə, ayıq-sayıqlıq göstərməlisiniz. Əsəblərinizi və daxili orqanlarınızı qoruyun ki, hədəfə çatmağa gücünüz yetsin.

**QIZ** - Uğurlu bir gün yaşayacaqsınız. İstər şəxsi büdcənizi artırmaqda, istərsə də qarşılıqlı münasibətlərdə vəziyyət xeyrinizə olacaq. Amma Ayın bürcünüzdə olmasını da unutmayın.

**TƏRƏZİ** - Nəzərdə tutduğunuz planların ləng inkişafına görə usanmayın. Ən azı ona görə ki, Göy qübbəsi bu gündən etibarən şəxsi işlərinizdə böyük dönüşə yiyələnəcəyinizi bəyan edir.

**ƏQRƏB** - Nə qədər çətin olsa da, ixtiyarınızda olan bu təqvimdə neytral olmalısınız. Əks təqdirdə, böyük qanqaraçılıq gözlənilir. Ələlxüsus da, pul haqq-hesablarında gözləmə mövqeyi tutun.

**OXATAN** - Saat 13-15 aralığını nəzərə almasaq, bu təqvimi kifayət qədər xoş ovqatla başa vura biləcəksiniz. Düz yolda olduğunuz üçün mövqeyinizdə bərk dayanın. Amma sərtlik də göstərməyin.

**OĞLAQ** - Hansısa xoşagəlməzliyi gözləməyə dəyməz. Əksinə, bu proqnozu oxuyan kimi aktivliyinizi artırmalısınız. Saat 15-18 arası sürprizlərlə rastlaşma ehtimalınız böyükdür. Riskə dəyər.

**SUTÖKƏN** - O qədər də uğurlu vaxt deyil. Ətrafınızda olanlar əsəblərinizi tarıma çəkməyə çalışacaq. Əgər bu manеələrdən qurtulmaq istəyirsinizsə, təmkin göstərin. "Hirsli başda ağıl olmur" axı.

**BALIQLAR** - Mistikaya qətiyyən varmayın. Xurafata uymaqdansa müqəddəs ziyarətgahlara baş çəkin. Hər hansı çılğınlıq, risk və lazımsız adamların işinə müdaxilələr məsləhət deyil.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Xirosimaya atom bombası atanların sonuncusu da öldü



1945-ci ildə Xirosimaya atom bombası atan B-29 "Enola Gey" qırıcısının axırıncı üzvü, ABŞ-də yaşayan Teodor Van Kirk 93 yaşında vəfat edib. Anspress-in məlumatına görə, mərhumun oğlu bildirib ki, onun ölümü 28 iyul tarixində ABŞ-ın Corciya ştatının Stoun-Mauntin şəhərində baş verib.

"Holland" ləqəbli Teodor Van Krik "Enola Gey"in şturmanı olub. Xirosimanın bombardmanı zamanı onun 24 yaşı olub. Lakin bu yaşda o, artıq 58 döyüş uçuşu edən səriştəli pilotlar sırasında idi.

Xatırladaq ki, qırıcı 1945-ci ilin 6 avqustunda Xirosimanın mərkəzinə "Körpə" adı qoyulmuş uran yüklü bomba atıb. Bombanın gücü trotil ekvivalenti 20 min ton təşkil edib. Partlayış təxminən 140 min adamın həyatına son qoyub.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565